RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 240 (9695) 31 oktyabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir

### Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakının Nəsimi rayonunda Zərifə Əliyeva, Rixard Zorge küçələrinin və Neftçilər prospektinin əhatəsində yerləşən ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yeni salınan parkda yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına burada həyata keçirilən abadlıq və yenidənqurma işləri, yeni salınan parkda yaradılan şərait barədə məlumat verdi.

→ 2

## COP29 innovativ yüksəlişin göstəricisidir

### Sadiq QURBANOV: "Bu qlobal tədbirin Bakıda keçirilməsi Azərbaycanın ekoloji təhlükəsizliklə bağlı nümunəvi siyasətinin və davamlı inkişafının nəticəsidir"




COP29-un Azərbaycanda keçirilməsinə ölkəmizin innovativ inkişafının və yüksəlişinin nəticəsi kimi baxmaq lazımdır. COP29-a evsahibliyi üçün Bakının seçilməsi ölkəmizdə ekoloji təhlükəsizliklə bağlı həyata keçirilən nümunəvi siyasətin, bu sahədə ardıcıl və uğurlu fəaliyyətin, davamlı inkişafın, düzgün proqnozların və onların əsasında uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsinin nəticəsidir.

Xüsusi qeyd etmək istərdim ki, Azərbaycanı COP29-a aparan yolun ilk əsası 21 il öncə atılıb. Buna misal olaraq Prezident İlham Əliyevin 21 oktyabr 2004-ci il tarixli sərəncamını göstərmək olar. Həmin sərəncamla Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə dövlət proqramı təsdiq edilib. Bu o zaman idi ki, torpaqlarımızın 20 faizi işğalda idi, ölkəmizdə yoxsulluq 35 faiz təşkil edirdi, bir milyona yaxın qaçqın və məcburi köçkünümüz var idi. Bütün bunları ona görə deyirəm ki, Ali Baş Komandanın uzaqgörən siyasətinin bir daha şahidi olasınız. Prezident İlham Əliyevin alternativ və bərpaolunan enerji ilə məşğul olması onun dünyada gedən prosesin aktuallığını hər kəsdən qabaq vahid kompleks şəklində görməsindən irəli gəlirdi.

→ 5



# Böyük ümidlərin təntənəsi

## İlham Əliyevin Prezident kimi ilk andiçməsindən 21 il ötür

Prezident İlham Əliyev Azərbaycan xalqının arzularından gəlmiş liderdir. Bizi ömrümüzün ən böyük xəyalına qovuşdurmuşdur.

Azərbaycan indi dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bu strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc nöqtəsində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəkliklərini təşkil edir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında nüfuzlu lider fenomeni dayanır: güclü iradəsi, düzgün qərar qəbul etmək səriştəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edən, arxasınca apara bilən Lider. Azərbaycan tarixinə həkk edilmiş parlaq uğurlarımız da məhz Prezident İlham Əliyevin zəkası, siyasi baxışları və uzaqgörənliyi sayəsində mümkün olub. Dövlət rəhbəri ölkədə baş verənlərin məsuliyyətini daşımaqla yanaşı, beynəlxalq və qlobal məsələlərdə də ciddi təsir gücünə malikdir.

Özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verirlər.

İlham Əliyev Prezident olduğu gündən Zəfər tarixinə qədər əzmkarlıqla üzərinə yönəlmiş bütün təhdidlərə, təzyiqlərə rəğmən, zərrə qədər də olsun güzəştə getmədi. İşğalçı Ermənistan və onun havadarları qarşısında bir addım da geri çəkilmədi. Qarabağ məsələsində Ermənistana, onun dəstəkçilərinə, supergüclərə qarşı qətiyyətlə mübarizə apardı, Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Aparılan işlər tədricən öz nəticəsini verməyə başladı. Səsimiz, sözümüz dünyada daha aydın eşidildi.

Azərbaycan erməni lobbisinin illərlə ətrafımızda qurduğu məlumat blokadasını yardı. Beynəlxalq ictimaiyyət Qarabağ məsələsi ilə bağlı doğruları eşitməyə başladı. Ermənistanın işğalçı mövqeyi ifşa olundu. Azərbaycanın iqtisadi imkanları, qlobal rolu artdıqca, dostlarımızın sırası da genişləndi. Hər kəs anlamağa başladı ki, regiondakı siyasi-iqtisadi maraqları bu bölgənin liderinə, əsas söz sahibinə çevrilmiş Azərbaycanın razılığı olmadan, bu ölkə ilə faydalı əməkdaşlıqlar qurmadan təmin etmək mümkün deyil. Ona görə də ölkəmizlə faydalı tərəfdaşlıq əlaqələri yaratmağa çalışanların, haqlı mövqeyimizi müdafiə etməyə başlayanların sayı artdı.

→ 3

## Qərb Gürcüstana daxil olmaqla bu ölkənin "axırına çıxmağa" çalışır

Son illərin təcrübəsi göstərib ki, ABŞ bayrağının ayaq tutduğu ölkələrin taleyi Ukraynanın taleyi kimi olur. ABŞ siyasətinin qalib gəldiyi Ukraynada insanların düşdüyü ağır vəziyyətə nəzər yetirsək görərik ki, bu ölkənin gələcəyi şübhə altındadır. Bu gün böyük şəhərlər və yaşayış məntəqələri Yer üzündən silinir, on milyonlarla ukraynalı doğma yurdlarını tərk etməyə məcbur olub və özlərinə yeni yaşayış yerləri axtarışındadır. Yüz minlərlə ukraynalı isə müharibənin qurbanına çevrilib. Qərb isə Ukraynaya yardım adı altında yüz milyardlarla dollar həcmində silahlar göndərir və müharibənin Ukraynanın tam məhv olmasına qədər davam etdirilməsinə dəstək verir. Nəticədə isə böyük bir dövlət Yer üzündən silinməkdədir.

Qərb Ukraynanın yaxşı gələcəyini istəsəydi, müharibəyə xərclədikləri 100 milyardların yarısını müharibənin baş verməməsinə və bu ölkənin inkişafına yönəldərdi: "Təəssüf ki, bunun əksi baş verir, çünki Qərb müharibələri dəstəkləməklə, dövlətləri gücsüzləşdirməklə pul qazanmaqda maraqlıdır. Onları Ukraynanın gələcəyi düşündürmür. Gürcüstanda meydana çıxanların Ukraynanın bayrağını dalğalandırması Qərbin Gürcüstanla bağlı planlarının nədən ibarət olduğunu göstərir. 2008-ci ildə Qərbin Gürcüstana müdaxiləsi Abxaziya və Cənubi Osetiyanın itirilməsi ilə başa çatmışdı. İndi Qərb yenidən Gürcüstana daxil olmaqla, ümumiyyətlə, bu ölkənin "axrına çıxmağa" çalışır. Amma gürcüstanlılar çox ağıllı qərar qəbul edərək Qərbə "yox" dedilər".

→ 7



## Paşinyan hökuməti təhlükəli vəziyyətlə üzləşib

### Ermənistanda hakim partiya ilə İstintaq Komitəsi arasında qarşıdurma ən yüksək həddə çatıb

Oktyabrın 15-də Ermənistan parlamentində ölkədəki kriminal vəziyyətlə bağlı başlayan dinləmələr Kərəmyan və Ağazaryan arasında qalmaqala gətirib çıxarıb. Qarşıdurmanı başladan tərəf hakim partiyanın nüfuzlu üzvü Andranik Koçaryandır. Ovik Ağazaryanı özündən çıxaran məsələ isə hüquq-mühafizə orqanları ilə partiyadaşları arasında bir müddətdir davam edən gizli savaşdır. Belə ki, Ovikin oğlu qeyri-qanuni işlərlə məşğuldur və artıq polisin "radarı"na düşüb. Dövlət büdcəsi hesabına avtomobil idxalı ilə məşğul olub cibini dolduran Ağazaryanın xeyli adamı aldatdığı da üzə çıxıb. İddia edilir ki, baş nazir Nikol Paşinyanın parlament tərəfindən dəstəklənməyəcəyi təqdirdə, dövlət çevrilişini planlayan şəxslərdən biri də məhz Andranik Koçaryandır.

→ 12



# Paytaxtımız dünyanın ən gözəl şəhərlərindən birinə çevrilir

## Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni salınan parkda yaradılan şəraitlə tanış olub









*Əvvəli 1-ci səh.*

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin göstərişinə əsasən Nəsimi rayonu ərazisində salınan yeni parkdır.

Bildirildi ki, yeni salınan parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün qısa müddətdə gözəl şərait yaradılıb. Ərazidə asfalt örtüyü ləğv edilərək müasir tələblərə cavab verən piyada yolları salınıb. Yeni parkda yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb.





Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artmaqdadır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə də yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Nəsimi rayonu ərazisində yeni salınan park da Bakı şəhərinin simasının daha da gözəlləşməsi və paytaxt sakinlərinin istirahəti baxımından əhəmiyyətlidir. Yeni parkın salınması gələn ay COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən işlərə də töhfə vermək baxımından xüsusi önəm daşıyır.

# "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 88 (Cild I); 2024, № 4, maddə 365) aşağıdakı məzmunda 19.5-ci maddə əlavə edilsin:

"19.5. Turizm və rekreasiya zonalarının ərazilərində aşağıdakılar qadağan edilir:

19.5.1. kimya sənayesi, metallurgiya, nüvə energetikası ilə bağlı fəaliyyət;

19.5.2. iri sənaye müəssisələrinin, texnoloji avadanlıq və maşınqayırma sənayesi müəssisələrinin fəaliyyəti;

19.5.3. tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin fəaliyyəti, habelə bu məqsədlə qurğuların, poliqonların quraşdırılması ilə bağlı fəaliyyət;

19.5.4. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növləri üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi (ƏMTQ) tərtib edilmədən və həmin sənədin dövlət ekoloji ekspertizası keçirilmədən həyata keçirilən fəaliyyət, habelə ətraf mühitə təsirin qiymətləndirilməsinin aparılması tələb olunmayan, lakin dövlət ekoloji ekspertizasının obyekti olan və dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan həyata keçirilən digər fəaliyyət.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2024-cü il*

# "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 794 (Cild I); 2024, № 4, maddə 400) 1-ci hissəsində "Sahib Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini" sözləri "Elnur Əliyev - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2024-cü il*

# Azərbaycan ilə Mərakeş arasında hərbi əməkdaşlıq haqqında saziş imzalanıb

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Mərakeş Krallığının Hökumət Başçısı yanında Milli Müdafiə Administrasiyası üzrə səlahiyyətli naziri Abdellatif Ludiyinin dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində general-polkovnik Z.Həsənov mərakeşli həmkarı ilə görüşüb.

Azərbaycan Respublikasının müdafiə naziri "Mərakeş Aviaşou 2024" sərgisinə dəvətə görə həmkarına təşəkkür edib.

Görüşdə Azərbaycan ilə Mərakeş arasında hərbi, hərbi-texniki əlaqələrin inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan Hökuməti adından müdafiə naziri mərakeşli həmkarı ilə "Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında müdafiə sahəsində hərbi əməkdaşlıq haqqında Saziş"ini imzalayıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Mədəniyyət naziri Adil Kərimli oktyabrın 30-da Ağcabədi şəhərində vətəndaşlarla görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən görüşdə Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Laçın rayonlarından olan vətəndaşlar iştirak ediblər.

Vətəndaşlar, əsasən işlə təmin olunma, mədəniyyət sahəsi ilə bağlı təkliflər, təşəbbüslər, əməyin qiymətləndirilməsi və digər məsələlərlə əlaqədar müraciətlərini diqqətə çatdırıblar. Mədəniyyət naziri hər bir müraciət üzrə məsələlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə şəhid ailələri üzvlərinin və qazilərin qeyd etdikləri məsələlərə diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu həyata keçirilir. Qəbullarda vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciət və təklifləri dinlənilir.

# Mina probleminə həsr edilmiş işgüzar görüş

**Oktyabrın 30-da Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə Qarabağ Dirçəliş Fondunun (QDF) donor və tərəfdaşlarının iştirakı ilə işgüzar görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Böyük qayıdış planının daha sürətli icra olunması üçün qarşıda duran ən böyük vəzifələrdən biri olan ərazilərin minalardan təmizlənməsi prosesində ANAMA-nın fəaliyyətinə dəstək göstərmək məqsədilə təşkil olunan tədbirdə rəsmi şəxslər, deputatlar, Qarabağ Dirçəliş Fondunun donor və tərəfdaşları və media nümayəndələri iştirak ediblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən yerləşdirilən minaların həmin ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərinə ciddi maneə törətdiyini bildirərək, bu problemin həllində hər kəsin həmrəylik nümayiş etdirməsinin vacibliyini vurğulayıb: "Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin təşkili, Qarabağın dirçəlişi bu gün bütün Azərbaycan ictimaiyyəti və dövlət qurumlarının qarşısında duran mühüm vəzifələrdən biridir. Lakin erməni işğalçıları tərəfindən həmin ərazilərdə yerləşdirilən minalar Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərinin daha sürətlə aparılmasına, eyni zamanda 30 il müddətində doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə və gündəlik həyatlarına geri dönməsinə ciddi maneə törədir. Bu məsələnin aktuallığı və miqyasının olduqca böyük olması mina probleminin həlli üçün daha çox resursların səfərbər edilməsini, eləcə də cəmiyyətin bütün üzvlərinin bu işdə həmrəylik nümayiş etdirməsini zəruri edir".

"Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Osman Karakuş da işğaldan azad edilmiş ərazilərin bərpası, minalardan təmizlənməsi istiqamətində həyata keçirilən işlərə dövlət qurumları ilə yanaşı, şirkətlər tərəfindən də dəstəyin göstərilməsinin vacibliyini vurğulayıb.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları ilə bağlı geniş məlumat verib.

Sonra işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsinə və Böyük qayıdış prosesinin sürətlənməsinə töhfə vermək məqsədilə "Azərlotereya" ASC tərəfindən alınmış üç minaaxtaran it QDF-in vasitəçiliyi ilə ANAMA-ya hədiyyə edilib. ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanova bununla bağlı sertifikatları Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və "Azərlotereya" ASC-nin İdarə Heyətinin sədri Osman Karakuş təqdim ediblər.

# ABŞ-nin Dinlərarası Qonşuluq Şəbəkəsinin həmtəsisçisi ilə Qərbi Azərbaycan İcmasında görüş olub

**Qərbi Azərbaycan İcmasında Amerika Birləşmiş Ştatlarının Dinlərarası Qonşuluq Şəbəkəsinin həmtəsisçisi, Qlobal Məsələlər İnstitutunun prezidenti və Texasdakı "Northwood" kilsəsinin baş pastoru Bob Roberts, Qlobal Məsələlər İnstitutunun vitse-prezidenti Ceyms Çen və icma rəsmiləri arasında görüş keçirilib.**



İcmadan AZƏRTAC-a bildirilib ki, görüşdə qonaqlara Qərbi Azərbaycan həqiqətləri barədə məlumat verilib, soydaşlarımızın ötən əsr boyunca öz ata-baba yurdlarından mərhələlərlə deportasiya edilmələri barədə danışılıb.

Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, bu deportasiyalardan sonra Qərbi azərbaycanlıların doğma yurdlarında qalan zəngin maddi-mədəni irsi, o cümlədən 300-dən çox məscid, saraylar, qala və karvansaralar, o cümlədən 500-ə yaxın qəbiristanlıq da yerlə-yeksan edilib.

İcmanın Gənclər Şurasının sədr müavini, deputat Kamal Cəfərov qonaqlara məscid və məzarlıqların dağıdılmasının dini baxımdan da heç bir ölçüyə sığmadığını, Ermənistanın bu cür davranışlarına dərhal son verməsinin vacib olduğunu bildirib.

İcmanın İctimaiyyətlə Əlaqələr və Qərbi Azərbaycan Televiziyası Şöbəsinin müdiri Ülviyyə Zülfiqar dünyanın bütün ölkələri, o cümlədən ABŞ-də də Qərbi azərbaycanlıların haqq işinin dəstəklənməsinin mühüm əhəmiyyət kəsb etdiyini, beynəlxalq hüququn norma və prinsiplərindən olan qayıdış hüququnun həyata keçirilməsi istiqamətində əməkdaşlıq edilməli olduğunu vurğulayıb. Pastor Bob Roberts isə bildirib ki, Qərbi Azərbaycanla bağlı daha əvvəl Qərb mediasından eşitmiş olsa da, indi məsələnin əsl mahiyyəti ilə bağlı daha təfsilatlı və doğru məlumata malik oldu.

O, Azərbaycandakı yüksək tolerantlıq səviyyəsini qeyd edərək, sülh və barışıq naminə bu modelin hər iki ölkədə tətbiq olunmasının vacibliyini vurğulayıb.

# Böyük ümidlərin təntənəsi



## İlham Əliyevin Prezident kimi ilk andiçməsindən 21 il ötür

**Dövrünün bütün qüdrətli liderlərinin uğurunu şərtləndirən əsas cəhətlərdən biri məhz strateji düşüncə, zamanın axarını duymaq bacarığı və gələcəyə hazır olmaq əzmidir. Xalqa, dövlətə bu keyfiyyətlərə malik Lider rəhbərlik edəndə bütün qeyri-müəyyənliklər yüksək səviyyədə qarşılanır, yaranmış fürsətlər anında dəyərləndirilərək reallaşdırılır, hətta ortaya çıxan çətinliklər belə yeni imkanlara çevrilir. Eyni zamanda əsl liderlərin isə hər zaman böyük strateji hədəfləri olur.**

2003-cü il oktyabrın 31-də Azərbaycan Prezidenti kimi ilk dəfə and içərkən cənab İlham Əliyev "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" demişdi. Verdiyi bütün vədlərə sadiqliyi, hər bir sözünə imzası qədər dəyər verməsi zaman-zaman öz təsdiqini tapmışdı. Həyata keçirdiyi siyasətlə, ölkəmizə gətirdiyi inkişafla, bu yurdun hər bir sakininin gündəlik həyatında yaratdığı rifah, bütün ölkəboyu aparılan quruculuqla həqiqətən hər bir vətəndaşının Prezidenti olmuşdu. Dövlət başçısı İlham Əliyev Ulu Öndərin çox böyük çətinliklər, fədakarlıqlar hesabına yaratdığı sabitlik və inkişaf mühitini qorumuş, xalqı yeni nailiyyətlərə doğru aparmışdı. Azərbaycan dövlətinin, vətəndaşlarımızın təhlükəsizliyini, sosial-iqtisadi inkişaf üçün həyati dərəcədə vacib olan sabitlik mühitini daha da möhkəmləndirmişdi, ölkəmizin yeni dövrdə də inkişaf yolunda inamla addımlaması üçün lazımi şəraiti yaratmışdı.

"Azərbaycanda son illər ərzində hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir. Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik. Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək". Hələ 2003-cü ildə Prezident kimi ilk andiçmə mərasimindəki nitqində vurğuladığı bu fikirlərlə hər bir Azərbaycan vətəndaşının Prezidenti olan İlham Əliyev həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində dövlətimizi tarixinin ən qüdrətli dövrünə yetirdi. Belə bir mərhələnin yaradıcısı, şərəf salnaməsinin müəllifi oldu.

Bu gün zaman bir yerdə dayanmır, dünyanın çağırışları, insanların gözləntiləri dəyişir. Buna uyğun addımlar vaxtında atılmazsa, inkişaf axarından uzaq düşmək olar. Azərbaycan Prezidenti də həyata keçirilən köklü islahatlarla, miqyaslı qərarlarla, yenilik ruhu ilə dövlətimizin inkişaf sürətini zamanın ahənginə uyğunlaşdırır.

Burada ən mühüm olan milli dövlətçilik prinsiplərinə sadiqlik məsələsidir. Prezident İlham Əliyev bu prinsiplərə, xalqın inkişaf amallarına hər zaman sadiqdir. Onun baxışlarında, ideallarında, atdığı addımlarda əsrlər boyu Azərbaycan xalqının, dövlətinin inkişafına çalışmış, ömrünü bu məqsədə sərf etmiş, imzalar içində millətimizin imzasını görmək istəmiş bütün böyük şəxsiyyətlərimizin arzularını görə bilərik. Dövlət başçısı o böyük simaların ideallarını reallaşdırır, onların bir zamanlar xəyal kimi gördüklərini, can atdıqlarını gerçəklik kimi gündəlik həyatımıza gətirir.

### Güclü Lider, qalib sərkərdə

Prezident İlham Əliyev Azərbaycan xalqının arzularından gəlmiş liderdir. Bizi ömrümüzün ən böyük xəyalına qovuşdurmuşdur.

Azərbaycan indi dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bu strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc nöqtəsində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəkliklərini təşkil edir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında nüfuzlu lider fenomeni dayanır: güclü iradəsi, düzgün qərar qəbul etmək səriştəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edən, arxasınca apara bilən Lider. Azərbaycan tarixinə həkk edilmiş parlaq uğurlarımız da məhz Prezident İlham Əliyevin zəkası, siyasi baxışları və uzaqgörənliyi sayəsində mümkün olub. Dövlət rəhbəri ölkədə baş verənlərin məsuliyyətini daşımaqla yanaşı, beynəlxalq və qlobal məsələlərdə də ciddi təsir gücünə malikdir.

Özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verirlər.

Cənab İlham Əliyev Prezident kimi ilk andiçmə mərasimində xalq qarşısında demişdir: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir". Azərbaycan Prezidenti söz verdiyi kimi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla davam etdirdi. Sonda hədəfinə çatdı, işğal olunmuş Azərbaycan torpaqlarını azad etdi. Bu arzuların üfüqlərindən ölkəmiz üçün yeni bir gələcək formalaşdırmağa başladı.

2021-ci ildə Şuşada hərbçilər qarşısında çıxış edərkən Ali Baş Komandan bu mühüm problemə münasibətini bildirərkən qeyd etdi: "2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq" və daha sonra xüsusi vurğuladı ki, bunun üçün, ilk növbədə, iqtisadi müstəqilliyi təmin etməliyik: "Çünki əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq".

### Dünyanın tanıdığı Azərbaycan

Cənab İlham Əliyev Prezident olduğu gündən Zəfər tarixinə qədər əzmkarlıqla üzərinə yönəlmiş bütün təhdidlərə, təzyiqlərə rəğmən, zərrə qədər də olsun güzəştə getmədi. İşğalçı Ermənistan və onun havadarları qarşısında bir addım da geri çəkilmədi. Qarabağ məsələsində Ermənistana, onun dəstəkçilərinə, supergüclərə qarşı qətiyyətlə mübarizə apardı, Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Aparılan işlər tədricən öz nəticəsini verməyə başladı. Səsimiz, sözümüz dünyada daha aydın eşidildi.

Azərbaycan erməni lobbisinin illərlə ətrafımızda qurduğu məlumat blokadasını yardı. Beynəlxalq ictimaiyyət Qarabağ məsələsi ilə bağlı doğruları eşitməyə başladı. Ermənistanın işğalçı mövqeyi ifşa olundu. Azərbaycanın iqtisadi imkanları, qlobal rolu artdıqca, dostlarımızın sırası da genişləndi. Hər kəs anlamağa başladı ki, regiondakı siyasi-iqtisadi maraqları bu bölgənin liderinə, əsas söz sahibinə çevrilmiş Azərbaycanın razılığı olmadan, bu ölkə ilə faydalı əməkdaşlıqlar qurmadan təmin etmək mümkün deyil. Ona görə də ölkəmizlə faydalı tərəfdaşlıq əlaqələri yaratmağa çalışanların, haqlı mövqeyimizi müdafiə etməyə başlayanların sayı artdı.

Azərbaycan irəli sürdüyü və BMT kimi ali qurumlarda da yüksək səviyyədə təqdir edilən humanitar təşəbbüslərlə, aparılan sistemli işlə dünyada sülh və tolerantlıq məkanı, fərqli sivilizasiyaların təmas mərkəzi kimi tanınmağa başladı. Ölkəmiz bütün dünyada multikulturalizm ideyalarını yayan, ali məqsədlərin, bəşəriyyətin xoş gələcəyi naminə xeyirxah niyyətlərin təbliğinə çalışan düşüncə mərkəzinə çevrildi. Dünya bizi mədəniyyətimizin zənginliyi ilə görüb tanıdı, özü üçün yenidən kəşf etdi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə dünya miqyasında icra olunan layihələr, mədəniyyət diplomatiyası işığında dünyaya əsl Azərbaycanı tanıtdı.

Respublikamız yeni strateji dövrdə dayanıqlı şəkildə artan rəqabətqabiliyyətli iqtisadiyyatı, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət modelini, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmağı, işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışı, eləcə də təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmağı özünün milli prioritetləri elan edib. Bu hədəflərə doğru ardıcıl addımlar atılır. Ölkəmiz işğaldan azad edilmiş ərazilərdə vətəndaşlar üçün yeni salınan qəsəbələri "ağıllı kənd" konseptində inşa edir. Respublikamızın alternativ enerji resurslarından istifadə həlləri, dünyanın aparıcı şirkətləri ilə bu istiqamətdə imzalanmış investisiya layihələri və bu layihələrin icrası istiqamətində görülən işlərlə Azərbaycan regionu "yaşıl enerji" bölgəsinə çevirir. Cənubi Qafqazın tarixində yeni bir reallıq yaradır.

Bir faktı da xüsusi qeyd edək ki, ölkəmiz bütün bu uğurlara nail olduqca Ermənistanın ətrafındakı yalan, şər, böhtan, terror dairəsi daralmağa başladı. Dünya əsrlərdir uydurduğu saxta iddialara özünü məhkum etmiş bu ölkənin, xalqın bəşəriyyətə faşizmdən, dağıdıcılıqdan, vandalizmdən başqa nəsə vermək potensialına malik olmadığını getdikcə daha aydın şəkildə görməyə başladı. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən qlobal layihələr, ölkəmizdə bütün dünyaya açılan və maraqlı tərəflərə faydalar yaradan inkişaf qapılarına rəğmən Ermənistan xəstə iddiaları ilə özünü dalana dirədi. Bütün inkişaf layihələrindən kənar düşdü. Ölkə səfalət girdabına yuvarlandı, işğalçı mövqeyinin bədəlini çox ağır şəkildə ödəməli oldu. Aclığın, yoxsulluğun, ümidsizliyin Ermənistanda yaratdığı mənəvi əhvalın ən bariz göstəricisi Vətən müharibəsi zamanı bu ölkənin ordusunda on minlərlə fərarinin olması idi. İnsanlar artıq saxta miflərə inanmırdılar. Ölkəmizin güclənən əli düşmən dövləti bütün müstəvilərdə, bütün cəbhələrdə çıxılmaz vəziyyətə salırdı. Azərbaycan rəhbərliyi qətiyyətli mövqeyi ilə hər kəsdə belə bir əminlik yaradırdı ki, xalqımız bu haqq davasından heç zaman ötüb keçən deyil.

Qarabağı, Şərqi Zəngəzuru azad etmiş Azərbaycan Prezidenti, qalib Sərkərdə kimi adını tarixə yazdı.

### Yerinə yetirilən vədlər

Hazırda ən qüdrətli dövrünü yaşayan Azərbaycan əldə etdiyi uğurları Ümummilli Lider Heydər Əliyevin və böyük rəhbərin strateji kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin illərlə çəkdiyi zəhmət hesabına qazandı. 2003-cü ildə andiçmə mərasimində ölkəmizin müasir dövlətə çevriləcəyini bəyan edən Prezident İlham Əliyev bütün bunları etmək üçün Azərbaycanda çox işlərin görülməsini vurğulamışdır: "Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm... Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Azərbaycan Prezidenti İlham Əliyev əzmi, iradəsi, qətiyyəti, bir o qədər də müdrikliyi, gələcəyə aydın baxışı ilə regionu gələcəyə aparan Liderdir. Onun rəhbərliyi ilə yaşadığımız bölgə daha işıqlı, xoşbəxt, sülh və rifah içində görünür.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Vədini layiqincə doğruldan Prezident

**21 il əvvəl, 2003-cü ilin oktyabrında keçirilən prezident seçkilərində xalqımız Yeni Azərbaycan Partiyasının namizədi cənab İlham Əliyevə etimad göstərməklə özünün tarixi seçimini etdi. Çünki həmin seçkilərdə vətəndaşlar Heydər Əliyev siyasi kursunun davamına, Azərbaycanın inkişafına, respublikamızın aydın və etibarlı gələcəyinə səs verdi.**

Bu gün isə cənab İlham Əliyevin Prezident kimi ilk dəfə dövlətə və xalqa sədaqət andı içməsindən 21 il ötür. Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki çıxışı, əslində, Azərbaycanın gələcək yüksəliş yolunun manifesti idi. Andiçmə mərasimindəki nitqində cənab İlham Əliyev respublikamızın əsas milli hədəflərini, prioritet məqsədlərini bəyan etdi. Dövlət başçısı eyni zamanda bu hədəflərə doğru gedəcəyimiz yolların aydın və dəqiq konturlarını cızdı, bununla bağlı qarşımızda dayanan vəzifələri müəyyənləşdirdi.

Ötən 21 ilin reallıqları göstərir ki, Prezident İlham Əliyevin ilk dəfə andiçmə mərasimində qeyd etdiyi bütün məsələlər həyata vəsiqə alıb, dövlətimiz öz hədəflərinə layiqincə çatıb. Məsələn, Azərbaycanın inkişafı ilə bağlı Prezident İlham Əliyev andiçmə mərasimində demişdi: "Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".

2003-cü ildən ötən 21 ildə Azərbaycanın ən mühüm nailiyyətlərindən biri iqtisadiyyatın inkişaf etdirilməsidir. İqtisadi inkişaf məsələlərinin prioritet vəzifə olaraq müəyyən edilməsi isə təsadüfi deyildi. Çünki Ulu Öndər Heydər Əliyevin dediyi kimi, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu məqsədlə düşünülmüş və əsaslandırılmış iqtisadi kursa və dövlət proqramlarına söykənən islahatlar həyata keçirildi. O cümlədən regionların iqtisadi potensialı hərəkətə gətirildi.

Bir neçə makroiqtisadi göstəricilərə nəzər salmaqla ötən 21 ilin iqtisadi inkişafının əzəmətli miqyasını görə bilərik. Məsələn, 21 il əvvəl Azərbaycanda dövlət büdcəsinin gəlirləri cəmi 1 milyard 220,9 milyon manat idi. Bu gün isə dövlət büdcəmizin gəlirləri 40 milyard manata yaxınlaşıb. Respublikamızda müdafiə xərcləri 2003-cü ildə cəmi 255 milyon manat idi. Bu gün isə büdcəmizin hərbi xərcləri 6 milyard manatı ötüb. 21 il əvvəl respublikamızın cəmi 1,8 milyard dollar valyuta ehtiyatları var idi. Son məlumatlara əsasən, ölkəmizin strateji valyuta ehtiyatları 73 milyard dolları ötmüşdür və bu 2003-cü illə müqayisədə 40,5 dəfə artım deməkdir.

Olduqca qürurvericidir ki, respublikamızda ÜDM istehsalının illik həcmi 100 milyard manatı ötüb. Bu il isə ÜDM istehsalının nominal 121,3 milyard manat olacağı proqnozlaşdırılır. Elə bu iqtisadi artımın nəticəsidir ki, ötən 21 ildə respublikamızın iqtisadiyyatı 3,4 dəfədən çox böyüyüb.

İqtisadiyyatın inkişafı və artan maliyyə imkanları digər sahələrin də yüksəlişinin lokomotivinə çevrildi. Bu illər ərzində Azərbaycanda vətəndaşların sosial rifahının yüksəlməsi, maaş və pensiyaların dəfələrlə artması, 3600-dən sox məktəb binasının, 750-dən artıq tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi, 40-dan çox olimpiya mərkəzinin və yüzlərlə müxtəlif idman qurğularının inşası, or-



bitə 3 peykin çıxarılması, 3 min meqavatdan artıq yeni generasiya gücünün yaradılması, ölkə üzrə qazlaşdırmanın səviyyəsinin 51 faizdən 100 faizə yaxınlaşdırılması, 21 min kilometrə yaxın avtomobil yolu tikilib və ya yenidən qurulması Azərbaycanın yüksəlişinin mükəmməl nümunələridir.

21 il əvvəl andiçmə mərasimində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ən ağır problem olduğunu və ATƏT-in Minsk qrupunun fəaliyyətinin heç bir nəticə vermədiyini deyən Prezident İlham Əliyev bəyan etmişdi ki, nəyin bahasına olursa-olsun torpaqlarımız işğaldan azad ediləcək: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Bu illər ərzində Prezident İlham Əliyev Azərbaycanı inkişaf etdirməklə, həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün əlverişli tarixi zəmin formalaşdırdı. Dövlət başçısı sülh danışıqlarına sadiq qalmaqla, ordumuzu da gücləndirdi. Müxtəlif tədbirlərdə, görüşlərdə etdiyi çıxışlarda Prezident İlham Əliyev sülh danışıqlarının nəticəsiz qalacağı təqdirdə torpaqlarımızın güc yolu ilə azad ediləcəyini bildirdi. Bu məqsədlə Silahlı Qüvvələrimizin döyüş imkanları ən müasir səviyyəyə çatdırıldı. Beləliklə, 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə möhtərəm Prezident İlham Əliyevin "Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir" sözlərinin təntənəsinə çevrildi.

Ötən 21 ildə Azərbaycanda baş verən bütün pozitiv dəyişikliklər Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 31-də andiçmə mərasimində söylədiyi fikirləri təcəssüm etdirir. Bu illər ərzində Azərbaycanın keçdiyi dinamik inkişaf yolu təsdiq edir ki, Heydər Əliyev siyasi kursunun, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının alternativi yoxdur.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin noyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 4 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 7 |
| **Musa Cəfər oğlu QASIMLI** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 6 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 4 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 1 |
| **Arzu Nəsib oğlu NAĞIYEV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 28 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 20 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 14 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 26 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 5 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 18 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 21 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 22 |
| **Şahin Əmir oğlu İSMAYILOV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 25 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsinin sədri | 15 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 7 |
| **Anar Camal oğlu İSGƏNDƏROV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 27 |
| **Polad BÜLBULOĞLU** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 14 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 19 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 5 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 16 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 29 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 16 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 23 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 26 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 19 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14 .**

# Məişət zorakılığından zərər çəkənlərin müdafiəsi gücləndirilir

**Oktyabrın 30-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib.**

Komitənin sədri Hicran Hüseynova iclasda "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirə ediləcəyini söyləyib.



Komitə sədri bildirib ki, Azərbaycan Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarından istifadə, habelə bu hüquqların və azadlıqların dövlət təminatı ilə bağlı olan məsələləri qanunla tənzimlənir. Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli qərarı ilə "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası" təsdiq olunub. Hazırda bu prosedur həmin qaydaya uyğun olaraq həyata keçirilir. Yeni təklif edilən dəyişikliklə qeyd olunan prosedurun qanunda təsbit olunması nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, sənəddə məişət zorakılığı ilə bağlı şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, şikayətə baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən vəkil, psixoloq və tərcüməçilərin xidmətindən istifadə, həmçinin yetkinlik yaşına çatmayan və ya əlilliyi olan şəxslərin dindirilməsi zamanı psixoloq və pedaqoqların iştirakının təmin olunması, eyni zamanda məişət zorakılığı barədə şikayətlərə baxılmanın nəticələrinə dair yekunda qəbul olunan qərarlar öz əksini tapıb.

Qanun layihəsi barədə məlumat verən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanuna təklif olunan dəyişiklik qanunun tətbiqi zamanı səmərəliliyi artıracaq və müraciətə baxan dövlət orqanlarının vəzifəli şəxslərinin məsuliyyətinin artırılmasına gətirib çıxaracaq.




Çıxış edən deputatlar məsələ barədə fikirlərini və qeydlərini səsləndiriblər, dəyişikliklərin məqsədəmüvafiq olduğunu deyiblər.

Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

❖ ❖ ❖

Oktyabrın 30-da Milli Məclisin İnsan hüquqları komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Zahid Oruc bildirib ki, gündəliyə bir məsələ - "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) daxildir.

Azərbaycanda məişət zorakılığı ilə mübarizənin normativ hüquqi bazasının təkmilləşdirilməsi tədbirlərindən və bu sahədə dövlət orqanları tərəfindən görülən işlərdən söz açan Zahid Oruc vurğulayıb ki, müzakirəyə çıxarılan layihədə məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının potensialının artırılmasına, məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının daha səmərəli müdafiəsinə xidmət edir.

Komitə sədri layihədə məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma ilə bağlı qaydaların təkmilləşdirilməsindən danışıb. Qeyd olunub ki, təklif olunan dəyişikliklərdə məişət zorakılığı ilə bağlı şikayətə baxılma müddətləri dəqiqləşdirilir, dinləmədə vəkil, psixoloq və tərcüməçinin iştirakı təmin olunur. Həmçinin layihədə məişət zorakılığı barədə şikayətə baxılmasının nəticələrindən asılı olaraq qərarların qəbulu və məhkəməyə müraciət qaydaları daha aydın şəkildə öz əksini tapıb.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev layihə barədə ətraflı məlumat verib, dəyişiklikləri aktual edən şərtlərdən danışıb. Şöbə müdiri sənəddə 5 maddə üzrə dəyişikliyin nəzərdə tutulduğunu deyib, əsas mahiyyət xarakterli dəyişikliyin qanunun yeni redaksiyada təklif edilən 9-cu maddəsində əks olunduğunu bildirib. O, qanun layihəsində təsbit olunan məişət zorakılığı ilə bağlı şikayətə baxılma prosedurları, müddəti, eyni zamanda məişət zorakılığı barədə şikayətlərə baxılmanın nəticələrinə dair yekunda qəbul olunan qərarlarla bağlı müddəaları diqqətə çatdırıb.

Sonra komitə sədrinin müavini Arzuxan Əlizadənin, komitə üzvləri Azər Allahverənovun, Razi Nurullayevin, Sevil Mikayılovanın, Mübariz Qurbanlının, Bəhruz Məhərrəmovun, Hikmət Məmmədovun, Səyyad Salahlının, Vüqar Rəhimzadənin, Tural Gəncəliyevin, Elman Nəsirovun, Naqif Həmzəyevin, İmamverdi İsmayılovun və Mircəlil Qasımlının iştirakı ilə keçirilən onlayn iclasda qanun layihəsi barədə müzakirələr aparılıb. Deputatlar təklif olunan dəyişikliklərlə bağlı rəy və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə tələbələr arasında intellektual müsabiqə təşkil edilib

**Antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə tələbələr arasında intellektual müsabiqə təşkil edilib.**

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın Tədbirlər Planının 4.4.25-ci yarımbəndinin icrası ilə bağlı, tələbələrin antinarkotik dünyagörüşünün formalaşdırılması məqsədilə Gənclər və İdman Nazirliyinin, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun birgə təşkilatçılığı ilə oktyabrın 29-da Sabunçu Gənclər Evində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı intellektual müsabiqə təşkil edilib.

Müsabiqədə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun, Gənclər və İdman Nazirliyinin, Səhiyyə Nazirliyinin nümayəndələri çıxış edərək, gənclərin narkotik asılılıq probleminə dair biliklərinin artırılması məqsədilə narkotik vasitələrdən istifadənin risk amilləri, psixoaktiv maddələrin xüsusiyyətləri və onların sağlamlığa zərərli təsiri, narkotik asılılığın formalaşma mərhələləri, antinarkotik təbliğatın vacibliyi və narkomanlığa qarşı mübarizə üsulları barədə təqdimat formasında interaktiv təlim təşkil olunub.

Təlimin nəticəsi olaraq intellektual müsabiqə təşkil edilməsi üçün tələbələrin iştirakı ilə hər komanda üzrə 5 nəfər olmaqla 7 komanda formalaşdırılıb və 3 mərhələdən ibarət suallar təqdim olunub. Maraqlı mübarizə şəraitində keçən müsabiqədə "3.5 KH ÜST", "Freydin Kreslosu", "Aypara", "Xarıbülbül", "İrəli", "Cosmo Vizyon" və "Dəmir Yumruq" adlı komandalar mübarizə aparıb, Xəzər Universitetinin tələbələri ("3.5 KH ÜST") qalib olublar.

Sonda qaliblər Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun, Gənclər və İdman Nazirliyinin birgə hazırladığı diplom və hədiyyələrlə mükafatlandırılıb, həmçinin digər iştirakçılara sertifikatlar təqdim edilib.

İntellektual müsabiqənin Bakı şəhərində və respublikanın digər rayon və şəhərlərində də təşkil olunması nəzərdə tutulur.

## ZƏFƏR gündəliyi
## 31 oktyabr 2020-ci il

# Cəbhənin bütün istiqamətlərində düşmən məhv edilib

**Oktyabrın 31-i gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.**



Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar olub.

Gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, artilleriyası, hərbi zirehli texnikası məhv edilərək sıradan çıxarılıb.

### Düşmən Xocavəndə fosfor tərkibli yük gətirməklə təxribata hazırlaşıb

Düşmən Xocavənd istiqamətində əraziyə fosfor tərkibli yük gətirməklə gələcək təxribatlarına zəmin yaratmağa çalışıb.

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, işğal altında olan Xocavənd istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yükün gətirildiyi barədə kəşfiyyat məlumatı daxil olub.

Ehtimal olunub ki, fosfor tərkibli döyüş sursatının qeyd olunan ərazilərə gətirilməsində düşmənin məqsədi, ilk növbədə, onun Azərbaycan Ordusunun bölmələrinə qarşı tətbiq edilməsidir. Digər tərəfdən isə həmin sursatın, guya, bölmələrimiz tərəfindən əraziyə səpələndiyi barədə dezinformasiya yaymaqdır.

Artıq oktyabrın 30-da Ermənistan tərəfi, guya, Azərbaycan Ordusunun ağ fosfor tərkibli silah tətbiq etməsi barədə yalan və saxta məlumat yayıb və beləliklə də, gələcək təxribatları üçün zəmin yaradıb.

Nazirlik bir daha bildirib ki, Azərbaycan Ordusunun silahlanmasında qadağan olunmuş heç bir döyüş sursatı yoxdur.

### Erməni kəşfiyyat-diversiya qrupu məhv edilib

Günün birinci yarısında Azərbaycan Ordusu tərəfindən endirilən zərbələr nəticəsində düşmənin döyüş texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Günorta saatlarında düşmənin canlı qüvvə ilə dolu hərbi avtomobil texnikasının mövqelərimiz istiqamətində hərəkəti müşahidə edilib. Məlum olub ki, Ermənistanın xüsusi təyinatlı qüvvələrindən ibarət kəşfiyyat-diversiya qrupu təxribat törətmək məqsədilə qoşunlarımızın müdafiə xəttinə yaxınlaşmağa cəhd göstərib.

Düşmənə vurulan birinci atəş zərbəsi ilə avtomobil texnikası sıradan çıxarılıb və kəşfiyyat-diversiya qrupu pərən-pərən düşərək qaçmağa başlayıb. Həmin qrupun üzvlərinin ərazini tərk etmələri üçün "Kamaz" markalı ikinci avtomobilə minmələri də müşahidə edilib. İçərisi silahlı hərbçilərlə dolu olan bu avtomobil də istiqamətlənmiş dəqiq atəş zərbəsi ilə dərhal məhv edilib.

### Düşmən Azərbaycanı təxribata çəkib

Ermənistan yenə uydurma məlumat yayaraq Azərbaycan Ordusunun bu ölkənin ərazisini atəşə tutmasını iddia edib. Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilib ki, bu, düşmənin növbəti yalanı və təxribatıdır.

Məlumatda qeyd edilib ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Qubadlı sahəsində rayonun 4-5 km dərinliyində, Azərbaycan ərazisində artilleriya qurğularının atəş nöqtələrini yerləşdirən düşmən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusunun bölmələrini gün ərzində intensiv atəşə tutub. Yalnız sərhədlərimiz çərçivəsində tərəfimizdən düşmənin həmin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görülüb.

Müdafiə nazirliyi bir daha bəyan edib ki, Azərbaycanın Ermənistan ərazisində heç bir hərbi məqsədi yoxdur. Azərbaycan Ordusu dünya birliyi tərəfindən tanınan ölkəmizin sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa edir.

### Düşmənin hərbi avtomobil korteji və şəxsi heyəti məhv edilib



Saat 17:00 radələrində ərazinin havadan müşahidəsi zamanı cəbhənin Xocavənd istiqamətində hərbi avtomobil kortejinin hərəkəti qeydə alınıb.

İstiqamətlənmiş və kombinə edilmiş havadan və artilleriyanın dəqiq atəş zərbələri ilə kortejin tərkibində olan bir neçə avtomobil və şəxsi heyət məhv edilib.

### "Su-25" təyyarəmiz düşmən mövqelərini bombardman edib

Hərbi Hava Qüvvələrinin "Su-25" həmlə təyyarəsi düşmən mövqelərini bombardman edib.

Endirilən aviazərbələr nəticəsində düşmənin səngərlərdəki və yeraltı sığınacaqlardakı xeyli sayda canlı qüvvəsi məhv edilib.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Görünməmiş ekoloji problemlər qarşısında "Vahid Sağlamlıq" yanaşması indi həmişəkindən daha aktualdır

**Danimarkanın paytaxtında Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Komitəsinin 74-cü sessiyası öz işini davam etdirir. Sessiya çərçivəsində "Vahid Sağlamlıq" mövzusunda texniki brifinq keçirilib.**

AZƏRTAC xəbər verir ki, sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev çıxış edərək müzakirə olunan mövzunun aktuallığını vurğulayıb. Qeyd edib ki, Azərbaycan çoxsahəli əməkdaşlıq, siyasət, təcrübə və təhsil yolu ilə "Vahid Sağlamlıq" Konsepsiyasının həyata keçirilməsini təşviq edir: "Beynəlxalq tibbi-sanitariya qaydaları çərçivəsində bu istiqamətdə atılan mühüm addımlardan biri də 19 texniki sahəni əhatə edən Birgə Xarici Qiymətləndirilmədir. 2023-cü ilin may ayında yerli və sektorlararası beynəlxalq ekspertlərdən ibarət qiymətləndirmə qrupunun iştirak etdiyi məsləhətləşmə prosesi vasitəsilə Azərbaycanın imkanları insan sağlamlığı sektoru da daxil olmaqla 19 istiqamətdə yoxlanılıb. Birgə müzakirələr və ərazilərə səfərlər nəticəsində beynəlxalq tibbi-sanitariya qaydalarının, "Vahid Sağlamlıq" Konsepsiyasının tətbiqinin təkmilləşdirilməsinə və Azərbaycan səhiyyə sisteminin fövqəladə hallar zamanı dayanıqlığının gücləndirilməsinə yönələn bütün texniki istiqamətlər üzrə qiymətləndirmələrinə dair prioritet addımlar müəyyən edilib".

Nazirin sözlərinə görə, Azərbaycanda "Vahid Sağlamlıq" Konsepsiyasının həyata keçirilməsində növbəti addım koordinasiya mexanizmlərinin gücləndirilməsi, birgə nəzarət, monitorinq, potensialın, o cümlədən infrastruktur və insan resurslarının inkişafına yönələn Səhiyyənin Təhlükəsizliyinin Təmin edilməsi üzrə Milli Fəaliyyət Planının hazırlanması olacaq.

Teymur Musayev çıxışında noyabr ayında ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi edəcəyini vurğulayıb. Nazirin sözlərinə görə, COP29 qlobal ictimaiyyət üçün bir araya gəlmək, ümumi tərəqqimizi qiymətləndirmək və praktiki həlləri müəyyən etmək üçün mühüm bir fürsətdir.

"İlk dəfə olaraq "Vahid Sağlamlıq" yüksəksəviyyəli COP29-un "dəyirmi masa"sının diqqət mərkəzində olacaq. Görünməmiş ekoloji problemlər qarşısında "Vahid Sağlamlıq" yanaşması indi həmişəkindən daha aktualdır. Konsepsiya insan, heyvan və ətraf mühitin sağlamlığının qarşılıqlı əlaqəsini tanıyır. Bu da iqlim dəyişikliyinin həyatımızın hər aspektinə - biomüxtəlifliklərdən başlayaraq ərzaq təhlükəsizliyi və sağlamlığa təsir edən kompleks yanaşmanı nəzərdən keçirərkən xüsusilə vacibdir. Gəlin birlikdə müzakirələrimizi hər kəs üçün daha sağlam və dayanıqlı gələcəyə aparacaq konkret hərəkətlərə çevirək", - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.




**AZERBAIJAN COP29**

**Yaşıl dünya naminə həmrəylik ili 2024**



# COP29 innovativ yüksəlişin göstəricisidir

## Sadiq QURBANOV: "Bu qlobal tədbirin Bakıda keçirilməsi Azərbaycanın ekoloji təhlükəsizliklə bağlı nümunəvi siyasətinin və davamlı inkişafının nəticəsidir"

**Respublikamızda ekoloji vəziyyətin qorunması, ətraf mühitin mühafizəsi daim dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edib. Bu sahədə qanunvericiliyin mütəmadi təkmilləşdirilməsi, dövlət proqramlarının qəbul olunması, "yaşıl enerji"yə keçid Azərbaycanda ekoloji təhlükəsizliyin prioritet məqsədlərdən biri olduğunu göstərir. Torpaqlarımızın işğaldan azad edilməsi isə ekoloji sahədə yeni çağırışlar formalaşdırıb. Çünki işğal dövründə düşmən Qarabağ və Şərqi Zəngəzurun ekologiyasına da qənim kəsilmişdi.**

**Respublikamızda ekoloji vəziyyətə dair suallarımızı Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanova ünvanladıq. İlk sualımız da işğal dövründə Azərbaycana dəyən ekoloji zərərlə bağlı oldu.**



*- Sadiq müəllim, ermənilərin işğal dövründə Azərbaycana vurduğu ekoloji zərər hansı məbləğlə ölçülür? Həmin zərərə görə kompensasiya ödənilməsi tələbi hansısa platformalarda qaldırılıbmı?*

- Torpaqlarımızın işğalı təbii yaşayış mühitinə, eləcə də bütün canlı növlərinə ciddi ziyan vurulmaqla, Qarabağ və Şərqi Zəngəzurda təbii ehtiyatların tükənməsinə və biomüxtəlifliyin məhvinə səbəb olmuşdur. Ermənistan tərəfindən meşələrin kütləvi şəkildə qırılması, ağacların kəsilməsi və işğaldan öncə təbiət qoruqları olan ərazilərdə qanunsuz tikinti və mədənçilik fəaliyyətinin aparılması nəticəsində ərazilərin çirklənməsi Azərbaycanda 500-dən çox vəhşi təbiət növünü təhlükə altında qoymuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 22 dekabr tarixli sərəncamı ilə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərimizin işğalı nəticəsində dəymiş zərərin qiymətləndirilməsi məqsədilə komissiya yaradılmışdır. Həmin komissiya tərəfindən tələb olunan bütün sənədlər, məlumatlar, o cümlədən "Meşə fondu", "Qeyri-meşə fondu", "Xüsusi mühafizə olunan təbiət əraziləri", "Təbiət abidəsi (qədim ağaclar)", "Təbiət abidəsi (xüsusi qiymətli meşə sahələri)" və "Faydalı qazıntı yataqlarının istismarı" üzrə milli qanunvericiliyə uyğun olaraq aparılmış qiymətləndirmə materialları aidiyyəti üzrə təqdim olunmuşdur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılmış ilkin qiymətləndirmələrə əsasən, erməni təcavüzü nəticəsində ətraf mühitə (yuxarıda qeyd olunmuş 6 sahə üzrə) dəymiş zərərin məbləği ümumilikdə 10 milyardlarla ölçülür. Eyni zamanda Azərbaycan "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Bern Konvensiyasına uyğun olaraq, Ermənistana qarşı dövlətlərarası arbitraj prosesinə başlamışdır. Arbitraj işi, təxminən otuz il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin qanunsuz işğalı dövründə Ermənistanın ölkəmizin ətraf mühitinin və biomüxtəlifliyinin geniş miqyasda məhv edilməsinə görə məsuliyyətə cəlb etmək məqsədi daşıyır.

Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan Bern Konvensiyasının hazırda davam edən bütün pozuntularına son qoymağı və işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə görə Azərbaycana tam kompensasiya ödəməyi tələb edir. Qeyd olunanlarla yanaşı, Azərbaycan Ermənistanın Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn prinsiplərini pozmasına əsasən kompensasiya tələbi ilə arbitraj prosesinə başlanmışdır. İşğal dövründə Ermənistan Azərbaycanı qanunsuz olaraq öz enerji resurslarına çıxışı və onları inkişaf etdirmək imkanlarından məhrum etmiş, habelə həmin resursları öz istifadəsi və mənfəəti üçün istifadə etmişdir.

*- Sərsəng su anbarı ermənilərin işğalı altında olanda suyun səviyyəsi xeyli azalmışdı. İndi anbarda vəziyyət necədir?*

- Sərsəng su anbarı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə Tərtərçayın üzərində Bərdə, Ağdam, Ağdərə, Tərtər, Ağcabədi, Yevlax və Goranboy rayonlarının 100 min hektara yaxın əkin sahəsini suvarma suyu ilə təmin etmək məqsədilə inşa edilmişdir. Anbarın ümumi həcmi 560 milyon kubmetr, faydalı həcmi 500 milyon kubmetr, ölü həcmi isə 60 milyon kubmetrdir.

Su anbarında yığılan su daha sonra Suqovuşan su anbarında nizamlanaraq Tərtərçay Sol Sahil və Tərtərçay Sağ Sahil magistral kanalları vasitəsilə 96 min hektar ərazinin suvarılmasını təmin etmişdir. Eyni zamanda su anbarı bəndində ümumi gücü 50 mVt olan su-slektrik stansiyası mövcuddur. İşğal dövründə iqlim amilləri nəzərə alınmadan, heç bir əsaslı təmir işləri aparılmadan Sərsəng su anbarının ehtiyatları ermənilər tərəfindən uğursuz, səmərəsiz şəkildə enerji istehsalı məqsədilə istifadə edilmişdir. 2023-cü ildə aparılmış lokal xarakterli antiterror əməliyyatlarından sonra nəzarətə götürülmüş su anbarının vəziyyəti kompleks qiymətləndirilmişdir. Sərsəng su anbarı suvarma suyu təminatı, elektrik enerji istehsalı və ekoloji tarazlığın qorunması baxımından Qarabağ regionu və ümumilikdə ölkə üçün önəmli su təsərrüfatı obyektidir. Bu səbəbdən su anbarının əlaqədar qurumlar tərəfindən təmir-bərpa və yaxşılaşdırma işlərinin kompleks şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Hazırda "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Prezidentinin 15 aprel 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış komissiyanın tapşırığına əsasən, Sərsəng su anbarında su ehtiyatlarının toplanması və idarə olunması üzrə nəzarətin həyata keçirilməsi məqsədilə qeyd olunan su anbarının tövsiyə olunan aylıq iş rejimi hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılır. Eyni zamanda su anbarının müasir tələblərə uyğun olaraq istismarının təmin edilməsi üçün təmir-bərpa işlərinin aparılması məqsədəmüvafiq hesab edilmişdir. Hazırda bu istiqamətdə işlər görülür, həmçinin "Sərsəng" Su-Elektrik stansiyasında təmir-bərpa işlərinin aparılması nəzərdə tutulur.

*- Bəs Azərbaycanda içməli su ehtiyatı ilə bağlı proqnozlar hər hansı təhlükə vəd edirmi? Yəni gələcəkdə içməli su qıtlığı yaşaya bilərikmi?*

- Azərbaycan iqlim dəyişmələrinin təsirlərinə yüksək dərəcədə həssas bir ölkədir və iqlim dəyişmələrinin mənfi təsirləri - daşqınlar, sellər, quraqlıq, istilik stresləri və sairə kimi təbiət hadisələri müşahidə edilir. İqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarımız son onilliklərdə azalmışdır və beynəlxalq iqlim modellərinə əsasən suyun gələcəkdə də azalma ehtimalı var.

Ölkənin yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, buzlaqlar təşkil edir. Yerüstü şirin su ehtiyatlarının təxminən 70 faizə yaxın hissəsi ölkə hüdudlarından kənarda formalaşır. İqlim dəyişmələrinin mənfi təsirləri digər ekosistem komponentləri ilə yanaşı, su ehtiyatlarının azalması ilə müşahidə edilir.

Aparılan qiymətləndirmələrə əsasən, 1961-1990-cı illərə nisbətən 1991-2023-cü illərdə ölkə ərazisində temperaturun yüksəlməsi və yağıntının azalması səbəbindən daxili çayların əksəriyyətində və transsərhəd çaylarda orta illik su sərfində azalma müşahidə edilmişdir. Ölkə üzrə 2023-cü ildə 26,2 milyard kubmetr su ehtiyatı formalaşıb ki, ondan 17,8 milyard kubmetri yerüstü, 8,4 milyard kubmetr isə yeraltı su ehtiyatlarına aid edilib. Yerüstü formalaşan su ehtiyatlarının 4,6 milyard kubmetr hissəsi ölkə ərazisində, 13,1 milyard kubmetr hissəsi isə qonşu ölkələrin ərazisində formalaşmışdır. 2023-cü il ərzində su ehtiyatlarından istifadə 9,2 milyard kubmetr təşkil etmiş, bundan 3,2 milyard kubmetr hissəsi suyun mənbədən təsərrüfatlara çatdırılması zamanı infrastruktur, buxarlanma, sudan səmərəsiz istifadə və qanunsuz qoşulmalar səbəbindən itkiyə gedib.

Respublika ərazisinin təxminən 3/4 hissəsi ölkənin ən böyük su arteriyası olan Kür çayı hövzəsinin aşağı relyefində yerləşdiyindən, çayın qonşu dövlətlərin ərazilərində çirklənməsi ekoloji gərginlik yaradır. Qonşu ölkələr tərəfindən təmizlənməmiş tullantı sularının Kür və Araz çaylarına axıdılması onun hidrokimyəvi rejiminə və suyunun keyfiyyətinə mənfi təsir göstərir. Regiondakı qonşu ölkələr BMT-nin Avropa İqtisadi Komissiyasının "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Konvensiyasına qoşulmamışdır. Bu da transsərhəd su problemlərinin beynəlxalq normalar çərçivəsində həllini mümkünsüz edir.

Beynəlxalq praktikaya uyğun olaraq çevik su idarəçiliyinin tətbiq olunması ilə problemin həllinə nail olmaq mümkündür. Buraya suyun mənbədən götürülməsindən ətraf mühitə qaytarılmasınadək dəqiq uçotunun aparılması, itkilərin azaldılması, suya qənaətedici texnologiyalardan istifadə edilməsi, kollektor-drenaj və təmizlənmiş tullantı sularından suvarmada təkrar istifadə olunması, kiçik su tutarlarının yaradılması, eləcə də sudan səmərəli istifadənin stimullaşdırılması məqsədilə istehlak olunan suyun miqdarından asılı olaraq fərqli tariflərin və digər iqtisadi alətlərin (subsidiya, imtiyaz, güzəşt və s.) tətbiq edilməsi və sairə daxildir. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə komissiya yaradılmışdır.

"Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" 2024-2040-cı illəri əhatə etməklə 2027-ci ilədək qısamüddətli strateji baxış, 2030-cu ilədək ortamüddətli strateji inkişaf baxışı, 2040-cı ilədək uzunmüddətli strateji hədəf baxışı olmaqla üç mərhələdə həyata keçiriləcəkdir. Su ehtiyatları ilə bağlı informasiyanın yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılması məqsədilə "Elektron su təsərrüfatı" informasiya sistemi yaradılmışdır.

Qeyd olunan tədbirlərlə yanaşı, Şirvan və Qarabağ kanallarının, həmçinin 20 ədəd magistral suvarma kanalının yenidən qurulması, Qarabağ və Şərqi Zəngəzurun su potensialından səmərəli istifadə üçün su infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən respublikanın müxtəlif rayonları ərazisində dağ çaylarından səmərəli istifadə məqsədilə 10 ədəd yeni su anbarının yaradılması işləri hazırda həyata keçirilməkdədir.

Görülən tədbirlər artıq beynəlxalq ictimaiyyət arasında da öz təsdiqini tapmaqdadır. Belə ki, Dünya Ehtiyatlar İnstitutunun (World Resource Institute) 2020-ci ildəki araşdırmalarına əsasən, Azərbaycan 2040-cı ildə su qıtlığı ilə üzləşə biləcək ölkələr arasında 18-ci yerdə qərarlaşmış və çox yüksək su stresi kateqoriyasına (>80 %) aid edilmişdir. Lakin II Qarabağ müharibəsində əldə edilən müzəffər qələbə ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatları üzərində idarəetmənin bərpasından, həyata keçirilən irimiqyaslı infrastruktur layihələri və dəniz, təmizlənmiş tullantı və digər alternativ su mənbələrindən istifadə ilə bağlı gələcək layihələrin elan edilməsindən sonra qeyd edilmiş siyahıda Azərbaycan çox yüksək su stresli ölkələr (>80 %) sırasından orta stresli ölkələr sırasına (40-60 %) dəyişdirilmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda içməli su ehtiyatı ilə bağlı proqnozlar hər hansı təhlükə vəd etmir. Çünki Azərbaycan dövləti və onun Prezidenti bu sahəyə xüsusi diqqət ayırır.

*- Azərbaycanda adambaşına düşən meşə sahələrinin normadan 4 dəfə az olduğu bildirilir. Bu problemin həllini görürsünüzmü, onu aradan qaldırmaq mümkündürmü?*

- Azərbaycanın meşə fondunun sahəsi 1213,7 min hektar olmaqla, ümumi ərazinin 14 faizini, meşə ilə örtülü sahələr isə 1046,128 min hektar olmaqla ölkə ərazisinin 12,08 faizini təşkil edir. Meşələrin mövcud sahəsi respublikamızda ekoloji tarazlığın və ekosistemlərin qorunub saxlanılması üçün heç də yetərli deyil. Bu səbəbdən meşələr ciddi şəkildə mühafizə olunmalı, qorunmalı və onların sahəsi artırılmalıdır. Hazırda meşə sektorunun gücləndirilməsi sahəsində tənzimlənmə sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional mexanizmlərin təkmilləşdirilməsi, meşə ehtiyatlarından daha da səmərəli istifadə olunması istiqamətində kompleks tədbirlər görülür. Həmçinin mövcud meşələrin yaxşılaşdırılması və meşə ərazilərinin genişləndirilməsi yaxın dövr üçün əsas prioritetlərdəndir. Hazırda meşə ərazilərinin genişləndirilməsi üçün kütləvi şəkildə meşə əkinləri işləri həyata keçirilir.

Son illər ərzində (2018-2024-cü illər) meşə fondunun açıq ərazilərində müxtəlif cinslərdən ibarət 11 milyondan artıq ağac əkilməklə 12,6 min hektar ərazidə yeni meşə sahələri salınmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində əvvəlki illərlə müqayisədə özbaşına (qanunsuz) qırıntının həcminin azalmasına nail olunmuş, yanğına qarşı görülmüş səmərəli mübarizə tədbirləri nəticəsində meşə yanğınlarının başvermə halları və əhatə etdiyi sahə kəskin surətdə azalmışdır. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" beş prioritetdən biri olaraq yüksəkkeyfiyyətli təmiz ətraf mühitin formalaşdırılması istiqamətində meşə ehtiyatlarının və yaşıllıq sahələrinin genişləndirilməsi kimi mühüm tədbirlər diqqət mərkəzində saxlanılır.

Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" üzrə strateji çərçivəsində ölkə üzrə ümumi ərazidə yaşıllığın payının 12 faizdən 12,3 faizə çatdırılması, meşə fondunun 65 faizinin inventarlaşdırılmasının təmin olunacağı hədəf olaraq müəyyən edilmişdir.

Dövlət başçısının 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda meşə fondunun inventarlaşdırılması və qiymətləndirilməsi, məhv olmuş meşə sahələrinin bərpası və artırılması məqsədilə 1150 ha sahədə meşəbərpa və meşəsalma işlərinin aparılması, ərazinin bərpasında lazım olan əkin materialına tələbatın ödənilməsi, meşəçi mütəxəssislərə ixtisası üzrə təlimlərin keçirilməsi, meşəçilik sahəsində müasir, qapalı kök sistemli tingliyin, toxum genbankının yaradılması, meşə əkinləri və yaşıllıq sahələrinin salınması üçün tinglərin yetişdirilməsi məqsədilə Cəbrayıl rayonunda "Azərbaycan - Türkiyə Beynəlxalq Meşəçilik Təlim Mərkəzi"nin, "Ağıllı Tinglik Təsərrüfatı"nın və "Dostluq meşəsi"nin yaradılması kimi tədbirlər nəzərdə tutulmuşdur. Sözügedən layihə meşəçilik sahəsində kadrların hazırlanmasında və ixtisaslarının artırılmasında əhəmiyyətli rol oynamaqla yanaşı, iki dövlət arasında strateji əməkdaşlığın daha geniş formatda inkişaf etdirilməsinə də öz töhfəsini verəcəkdir.

Ölkədə meşə ehtiyatlarının artırılması və ondan rasional istifadə sahəsində davamlı inkişafın təmin olunması, potensial imkanlardan səmərəli istifadə edilməsi, dövlət dəstəyinin gücləndirilməsi və investisiyaların cəlb edilməsi, həmçinin meşə sektoruna hərtərəfli marağın artırılması məqsədilə "Azərbaycan Respublikasında meşələrin davamlı inkişafına dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" hazırlanmışdır.

Eyni zamanda məlumata görə, Meşə Məcəlləsinə dəyişiklik layihəsi də hazırlanmışdır.

*- Sadiq müəllim, respublikamız COP29 ərəfəsindədir. Bu tədbir ölkəmizə nə qazandıracaq? COP29 zamanı hansı qərarların qəbul edilməsi gözlənilir?*

- COP29-un Azərbaycanda keçirilməsinə ölkəmizin innovativ inkişafının və yüksəlişinin nəticəsi kimi baxmaq lazımdır. COP29-a evsahibliyi üçün Bakının seçilməsi ölkəmizdə ekoloji təhlükəsizliklə bağlı həyata keçirilən nümunəvi siyasətin, bu sahədə ardıcıl və uğurlu fəaliyyətin, davamlı inkişafın, düzgün proqnozların və onların əsasında uzunmüddətli inkişaf strategiyasının həyata keçirilməsinin nəticəsidir.

Xüsusi qeyd etmək istərdim ki, Azərbaycanı COP29-a aparan yolun ilk əsası 21 il öncə atılıb. Buna misal olaraq Prezident İlham Əliyevin 21 oktyabr 2004-ci il tarixli sərəncamını göstərmək olar. Həmin sərəncamla Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə dövlət proqramı təsdiq edilib. Bu o zaman idi ki, torpaqlarımızın 20 faizi işğalda idi, ölkəmizdə yoxsulluq 35 faiz təşkil edirdi, bir milyona yaxın qaçqın və məcburi köçkünümüz var idi. Bütün bunları ona görə deyirəm ki, Ali Baş Komandanın uzaqgörən siyasətinin bir daha şahidi olasınız. Prezident İlham Əliyevin alternativ və bərpaolunan enerji ilə məşğul olması onun dünyada gedən prosesin aktuallığını hər kəsdən qabaq vahid kompleks şəklində görməsindən irəli gəlirdi.

Sessiya çərçivəsində iqlim dəyişikliyindən yaranan risklərin maliyyə institutlarının dayanıqlılığına təsirinin neytrallaşdırılması üzrə tənzimləyici və nəzarət çərçivəsinin formalaşdırılması, dayanıqlı maliyyə ekosisteminin formalaşdırılması, maliyyə institutları tərəfindən kredit və investisiyaların iqtisadi sahələrin dekarbonizasiyasını dəstəkləyən layihələrə yönəldilməsi üzrə könüllü maliyyə öhdəliklərinin götürülməsi istiqamətində müzakirələr aparılacaqdır.

COP29-un bizə nə qazandıracağına gəldikdə, deyə bilərəm ki, 200-ə yaxın ölkənin dövlət və hökumət başçıları, o cümlədən beynəlxalq təşkilatların nümayəndələri, nazirlər, 3 mindən çox dünyanın aparıcı media təmsilçiləri ölkəmizdə olmaqla bizim iqlim müzakirələrinə liderlik etmək, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəmizlə tanış olacaqlar. Eyni zamanda ətraf mühitə mənfi təsirin azaldılması üçün bu sahədə digər qabaqcıl təcrübələrin mənimsənilməsində ölkəmizə kömək edəcək və bu təcrübələrin Azərbaycana inteqrasiya olunması asanlaşacaq.

*- Ekologiya sahəsində qanunvericiliklə bağlı nə deyə bilərsiniz?*

- Bu sahədə mükəmməl qanunlarımız var və onlara dövrün tələblərinə uyğun olaraq dəyişikliklər edilir. Eyni zamanda hazırda Milli Məclis bir sıra ekoloji qanun layihələri müzakirə edilməkdədir. Paytaxtımızın iqlimi əsasən mülayim isti və quru subtropikdir. Bu baxımdan yaşıllıq faizinin artırılması olduqca vacibdir. Bununla əlaqədar yaşıllıqların qanunsuz götürülməsi (kəsilməsi) ilə bağlı mövcud qanunvericilikdə mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutan hüquq normalarının effektiv tətbiq edilməsi mexanizminin müəyyənləşdirilməsi məqsədilə bir sıra qanunlara və qərarlara dəyişikliklər barədə qanun layihələri hazırlanmışdır və onlar hazırda Milli Məclisdə müzakirə olunur. Qanunvericiliyin ədalətlilik prinsipi nöqteyi-nəzərindən Cinayət Məcəlləsinin 259-cu maddəsini sanksiyasında olan cərimə cəzaları manatla deyil, yaşıllıqların məhvinə görə təbiətə dəymiş ziyanın misli miqdarda müəyyən edilməsi təklif edilir.

Bununla yanaşı, heyvanlarla bağlı yanaşmanı müəyyən edən layihələr də müzakirədədir. İnkişaf etmiş ölkələrdə itlərin zəncirdə saxlanılması, şirlərin sirkdə istifadə olunması, it və pişik balalarının zoomağazalarda cansıxıcı qəfəslərdə saxlanılması cinayət məsuliyyətinə cəlb olunmaq üçün əsasdır. İspaniya, Fransa, Xorvatiya, Kanada, Finlandiya, Litva, Ukrayna, Latviya, Rusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və digər ölkələrdə bu cür əməllərə görə həmin ölkələrin cinayət məcəllələrində cəzalar nəzərdə tutulub. Gürcüstanda heyvanlarla amansız davranışa görə 1 ilədək islah işləri cəzası müəyyən olunub. Rusiyada analoji cinayətə görə 1 ilədək islah işləri və ya 6 ayadək azadlıqdan məhrumetmə cəzası və iri məbləğdə cərimə tətbiq edilir. Türkiyədə heyvanlara işgəncəyə, amansız rəftara görə 6 aydan 3 ilədək, qəsdən öldürüldükdə 6 aydan 4 ilədək, döyüşdürənlərə 3 aydan 2 ilədək, nəsli təhlükə altında olan bir heyvanı öldürənə 1 ildən 5 ilədək, bir heyvanın nəslinin kəsilməsinə görə 5 ildən 10 ilədək azadlıqdan məhrumetmə cəzası verilir.

Heyvanlarla rəhmsiz rəftar edilməsi halı eyni qaydada ümumi formada nəzərdə tutulmuş və inzibati tənbeh növünün ağırlıq dərəcəsi və bu dərəcələrə uyğun sanksiyalar fərqləndirilməmişdir. Belə bir fərqləndirilmənin mövcudluğu, heyvanlarla rəhmsizcəsinə davranış, bu davranışı özündə əks etdirən materialların əyləncə və ya kommersiya məqsədləri üçün istifadə edilməsi hərəkətinin (hərəkətsizlik) fərqləndirilməsi gələcəkdə eyni inzibati xətanın törədilməsinin qarşısının alınmasında təsirli olacaqdır. 274-cü maddə bu hallar nəzərə alınaraq genişləndirilmiş və 274-1-ci maddə əlavə edilmişdir.

Yeni dəyişikliyə görə, heyvanlarla rəhmsiz rəftar edilməsinə, yəni onlara ağrı, əzab, işgəncə verilməsinə, onların döyülməsinə və ya döyüşdürülməsinə, bu əməlin heyvanın şikəst edilməsinə səbəb olması, o cümlədən heyvanların tələf edilməsinə səbəb olmaqla törədilməsi hərəkətləri müəyyənləşdirməklə sanksiyalar diferensiasiya edilmişdir. Eyni zamanda digər təklif olaraq heyvanlarla rəhmsiz rəftarın təbliğ edilməsi və ya heyvanlarla rəhmsiz rəftara açıq çağırışlar edilməsi, bu cür rəftarı özündə əks etdirən materialların kommersiya məqsədləri üçün istifadə edilməsi məsuliyyət yaratmış olacaqdır.

Beləliklə, İnzibati Xətalar Məcəlləsində maddələr anlaşılmaz olduğu üçün maddələrin daha da təkmilləşdirilməsi, ağırlaşdırıcı halların nəzərdə tutulması, eyni zamanda praktika zamanı ortaya çıxan və məcəllədə nəzərdə tutulmayan halların hüquqi tənzimlənməsinə şərait yaradan yeni müddəaların layihədə göstərilməsi hüquqi tənzimləmədə effektivliyin daha da artırılmasında əhəmiyyətli rol oynayacaq və praktikada hüquqi tənzimləmənin müsbət yönümlü inkişafına şərait yaradacaq.

Tullantıların (tikinti tullantılarının, tibbi tullantıların, plastik tullantıların) idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər aparılır. Qeyd olunan idarəetmə sahəsində yeni mexanizmlərin tətbiqi tullantılara münasibətin dəyişdirilməsinin, onların dövri iqtisadiyyata cəlb olunmasının, təbii ehtiyatlardan səmərəli istifadə ilə ətraf mühitin çirklənməsinin qarşısının alınmasına hədəflənir.

*- Məişət tullantılarının tutumlardan kənar yerlərə atılmasına görə də cərimələr artırılır. Bunun fayda verəcəyini düşünürsünüzmü?*

- Qüvvədə olan qanunvericiliyə görə məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə əlli manat məbləğində cərimə nəzərdə tutulur. Bu məbləğ kifayət qədər azdır. Digər ölkələrdə qanunvericilik kifayət qədər sərt cəzalar müəyyənləşdirib.

Avropa ölkələrində heç kəs adıçəkilən hərəkətləri etmir və orada, ümumiyyətlə, belə şeylərə dözümlük yoxdur. Almaniyada buna görə çox ciddi cəzalar var. Yaponiyada isə tullantı probleminə görə hətta cinayət işi də açıla bilər.

Almaniyada siqaret kötüyünün ictimai yerə atılmasına görə Kölndə 150 avroya qədər cərimə, Berlində 120 avroya qədər cərimə, Essendə 100 avroya qədər cərimə müəyyən edilib. Latviyada yolların və onların komponentlərinin tullantılarla çirkləndirilməsi faktları ilə bağlı fiziki şəxslər üçün 70 - 350 avro, hüquqi şəxslər üçün isə 700 - 2900 avro cərimə nəzərdə tutulur. İsveçdə ictimaiyyətə açıq olan yerlərdə tullantı atılmasına görə cərimə və 1 ilə qədər həbs nəzərdə tutulub. Bu səbəbdən milli qanunvericilikdə də sanksiyaların sərtləşdirilməsi labüd idi.

Ağırlaşdırıcı halların qanunvericiliyə əlavə edilməsi insanları daha da məsuliyyətli edəcək, ətraf mühitin qorunmasında, təmizliyin bərpasında mühüm rol oynayacaqdır. Bu cərimələrin müəyyənləşməsində əsas hədəf və məqsəd insanları bu cür əməllərdən çəkindirməkdir. Yəni insanlar çalışmalıdırlar ki, bu cür əməllərdən uzaq olsunlar. Təcrübə onu göstərir ki, cərimələr aşağı olanda insanlar daha rahat şəkildə davranırlar. Bu cərimələrin artırılmasında məqsəd həmin o inzibati pozulmaların qarşısının alınması, yəni ətraf mühitə atılan tullantıların miqdarının azaldılması olmuşdur.

Eyni zamanda aidiyyəti qurumların da üzərinə vəzifələr düşür. Onlar da yeni təklifə əsasən məişət tullantılarını vaxtında xüsusi ayrılmış ərazilərə daşınmamasına görə məsuliyyət daşımış olacaqlar. Bununla yanaşı, ekoloji mədəniyyət də yüksəldilməli, ictimai qınaq artırılmalıdır.

***Müsahibəni apardı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# "Əqli mülkiyyət və innovasiyalar "yaşıl gələcək" naminə (COP29-a doğru)" mövzusunda "dəyirmi masa" keçirilib



**Oktyabrın 30-da Əqli Mülkiyyət Agentliyi tərəfindən "Əqli mülkiyyət və innovasiyalar "yaşıl gələcək" naminə (COP29-a doğru)" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində keçirilən dəyirmi masa "Yaşıl dünya naminə həmrəylik ili"ndə reallaşdırılan tədbirlər çərçivəsində təşkil edilib.

Açılış mərasimində çıxış edən agentliyin İdarə Heyətinin sədri Kamran İmanov tədbirin keçirilməsində əsas məqsədin əqli mülkiyyətə əsaslanan innovasiyaların "yaşıl gələcək"dəki rolunu göstərmək, təhlil etmək və innovasiyalara bu həyati məsələdə dəstək verməkdən ibarət olduğunu söyləyib: "Çünki kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, insan cəmiyyəti "yaşıl gələcək" yaratmağa qadirdir".

Müasir dünyada "yaşıl innovasiya", "yaşıl texnologiya", "yaşıl patent", "yaşıl enerji" məsələlərinin aktuallığına diqqət çəkən agentlik rəhbəri "Qlobal İnnovasiya İndeksi" üzrə hesabatlarda innovasiyaların enerji mənbəyi kimi vacib rolunun vurğulanmasının təsadüfi olmadığını söyləyib. Eyni zamanda ildən-ilə dünyada iqlim dəyişikliklərinin, o cümlədən qasırğaların, daşqınların, quraqlıqların, meşə yanğınlarının təsirinin çox aydın hiss olunduğunu qeyd edib.

Kamran İmanov deyib: "Yaşıl gələcəy"i arzulayan bəşər cəmiyyətini quranların ilk sıralarında ixtiraçılar və müəlliflər durur. Onlar ənənəvi texnologiyalara daha "təmiz alternativ"lər yaratmaq üzərində çalışan insanlardır. Bu isə onu göstərir ki, davamlı milli innovasiya sistemlərinin yaradılmasına və səmərəli milli əqli mülkiyyət sistemlərinə əlçatanlığın təmin edilməsinə yönəlmiş səylər bundan sonra da davam etdirilməlidir".

Agentlik rəhbəri vurğulayıb ki, COP29-un keçirilməsi və bizim enerji transformasiyasındakı uğurlarımız Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin nəticəsidir: "COP29-un Bakıda keçirilməsi qərarı Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir, "yaşıl enerji" növlərinin yaradılmasını və "yaşıl enerji"nin dünya bazarlarına nəqlini enerji siyasətinin yeni prioritet istiqaməti kimi göstərir".

"Dəyirmi masa"da K.İmanovun "Əqli mülkiyyət və innovasiyalar "yaşıl gələcək" naminə (COP29-a doğru)" mövzusunda təqdimatı dinlənilib. Təqdimatda iqlim dəyişikliyi ilə bağlı ümumi mənzərə, iqlim dəyişiklikləri və dünya miqyasında patent fəaliyyəti, Azərbaycanda patent fəaliyyətinin nəticələri haqqında ətraflı məlumat verilib. Vurğulanıb ki, patent sahəsində Əqli Mülkiyyət Agentliyinin əldə etdiyi yekunlar dövlətimizin başçısının təşəbbüsü ilə aparılan islahatların nəticəsidir.

K.İmanov "Qlobal İnnovasiya İndeksi 2024" hesabatında agentliyin bilavasitə sərəncamında olan göstəricilərin artdığını, patentlərlə bağlı Cənubi Qafqazda liderlik əldə edildiyini diqqətə çatdırıb.

"Dəyirmi masa"da həmçinin Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev çıxış ediblər.

Çıxışlarda iqlim dəyişikliyi ilə mübarizədə təkcə siyasi iradənin deyil, qabaqcıl texnologiyaların da rol oynadığı, bu baxımdan əqli mülkiyyət hüquqlarının qorunmasının mühüm şərt olduğu vurğulanıb. Çıxış edənlər Əqli Mülkiyyət Agentliyinin müvafiq istiqamətdə həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər.

Daha sonra "dəyirmi masada "Azərbaycanda ətraf mühitin mühafizəsi və ekoloji problemlər", "Neft qurğularında istifadə olunması üçün ekoloji təmiz örtüklər", "Bərk məişət tullantılarından üzvi mineral gübrənin alınması üsulu", "Daşkəsən kobalt filizinin zənginləşmə tullantılarından kobaltın çıxarılması üsulu" və digər mövzularda çıxışlar olub.

# COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediatur keçirilib



**Oktyabrın 30-da Yeni Klinikada COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediatur keçirilib.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə brifinqdə tibbi xidmətlərin təşkili ilə bağlı ətraflı məlumatlar təqdim olunub.

TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov brifinqdə COP29 tədbiri günlərində tibbi xidmətlərin keyfiyyətli şəkildə təmin olunması üçün zəruri olan fəaliyyətlərin yüksək səviyyədə təşkil edildiyini bildirib:

"Dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29 Azərbaycana bütün sahələrdə bir sıra dividentlər qazandıracaq, ölkəmizin nüfuzunun daha da yüksəlməsinə öz töhfəsini verəcək. Belə miqyaslı tədbirin keçirilməsi üçün Azərbaycanın bütün dövlət və özəl qurumlarının üzərinə böyük məsuliyyət düşür. TƏBİB digər səhiyyə qurumları ilə birlikdə zəruri tibbi xidmətləri keyfiyyətli şəkildə təşkil edib. Qeyd etməliyəm ki, bu istiqamətdə Səhiyyə Nazirliyi və COP29 Azərbaycan Əməliyyat Şirkəti ilə də koordinasiyalı çalışmışıq. TƏBİB-in tabeliyində fəaliyyət göstərən tibb müəssisələrinin hər birinə baxış keçirilib və müəssisələrimiz zəruri tibbi xidməti təmin edə bilmək üçün hazır vəziyyətə gətirilib.

Yeni Klinikanın Təcili və təxirəsalınmaz tibbi yardım, uşaq təcili tibbi yardım, stasionar, reanimasiya şöbələri və əməliyyatxanası tibbi xidmətə zərurət ehtimalını nəzərə alaraq tədbir üçün ayrılıb. Sabunçu Tibb Mərkəzinə təhkim edilən Məhəmmədi modul tipli xəstəxanada reanimasiya və stasionar tipli olmaqla fövqəladə hallar üçün 370 çarpayı təmin edilib. Havadamcı yolu ilə yayılan infeksion xəstəliklərə yoluxanlara keyfiyyətli xidmət üçün Kliniki Tibbi Mərkəzin nəzdində modul tipli xəstəxanada 10 çarpayı ayrılıb. Mərkəzi Neftçilər Xəstəxanasında bütün zəruri tibbi avadanlıqlarla təchiz olunmuş Yanıq şöbəsi yaradılıb. Zəhərlənmə ehtimalları üzrə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsində müvafiq tibbi xidmətin göstərilməsi üçün çarpayılar ayrılıb".

V.Qurbanov tədbir zamanı təcili tibbi yardım göstərəcək briqadalar barədə də məlumat verib:

"60 briqada (həkim, orta tibb işçisi, sürücü daxil olmaqla), eləcə də 60 ədəd yeni ambulans ayrılıb ki, onun da 3-ü elektromobildir. Onu da qeyd edim ki, COP29 tədbiri ilə bağlı həm ayrılmış hotellərdə, həm də tədbirin keçiriləcəyi məkanda təcili və təxirəsalınmaz tibbi yardım briqadaları xidmət edəcək. Bütün nöqtələr üzrə ambulanslar hərəkət edəcəyi halda isə əvəzedici ambulansların təhkim olunması nəzərdə tutulub".

TƏBİB-in icraçı direktoru qeyd edib ki, təcili və təxirəsalınmaz tibbi yardım (TTTY) xidməti göstərəcək heyət üçün nəzərdə tutulan təməl həyat dəstəyi / təkmil həyat dəstəyi üzrə təlimlər keçirilib, 448 nəfər həkim, orta tibb işçisi və sürücü olmaqla bu təlimləri uğurla başa vurub. Xarici qonaqlarla daha rahat kommunikasiyanı təmin edə bilmək üçün 331 nəfər ingilis dili kurslarına cəlb olunub.

Brifinqdə səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edərək COP29 tədbiri günlərində tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün səhiyyə qurumlarının koordinasiyalı şəkildə fəaliyyət göstərdiyini bildirib:

"Əminəm ki, bu missiyanın öhdəsindən uğurla gələcəyik. Həm TƏBİB-in, həm Səhiyyə Nazirliyinin tabeli tibb müəssisələri, həm də özəl xəstəxanalar olmaqla ümumilikdə 9 xəstəxanada tibbi xidmətin təşkili üçün işlər görülüb.

On minlərlə qonağın şəhərimizə gələcəyini nəzərə alaraq yaranmış təcili hallarla əlaqədar müalicə tədbirləri ilə yanaşı, profilaktika istiqamətində də işlər həyata keçirilib. Gələn şəxslər arasında epidemik xəstəlik daşıyıcıları da ola bilər. Bunun üçün Heydər Əliyev Beynəlxalq Aeroportunda termometrlər quraşdırılacaq ki, ilkin mərhələdə hərarət ölçülsün. Daha detallı müayinə üçün zəruri diaqnostik testlərlə də təmin olunmuşuq. Şübhəli vəziyyət olarsa, həmin şəxslər təcrid olunaraq tez müalicəyə cəlb ediləcəklər.

Hazırda poliklinikalarda qrip əleyhinə peyvəndlənmə də davam etdirilir, bu da COP29 tədbirində xidmət edəcək vətəndaşlarımız arasında qrip xəstəliklərinin ağırlaşmalarının və yayılmasının qarşısının alınmasına kömək edəcək.

Mehmanxanalarda, ictimai iaşə obyektlərində də epidemik xəstəliklərin yayılmasının qarşısını almaq üçün dezinfeksiya işləri də aparılacaq".

TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov təqdimatla çıxış edərək həm xəstəxanalarda tibbi xidmətin təşkilindən, həm də təcili tibbi yardım briqadalarının təhkim olunduğu ərazilərdən bəhs edib:

"Yarana biləcək təcili halları nəzərə alaraq təcili tibbi yardım xidmətinin işinin düzgün qurulması çox önəmlidir. Bu məqsədlə "103" Çağrı Xidmətində ingilis dilini bilən işçilərin növbəli fəaliyyəti təşkil olunub, 60 briqada hazır vəziyyətə gətirilib, Heydər Əliyev Beynəlxalq Aeroportunda, Heydər Əliyev Mərkəzində, Atletlər kəndində, metronun "Koroğlu", "28 May", "Elmlər Akademiyası" stansiyalarında, eləcə də qonaqların məskunlaşdığı ərazilərdə tibbi xidmətin göstərilməsi üçün həkim məntəqələri təşkil edilib".

A.Nəsirov bildirib ki, qonaqların məskunlaşacağı hotel və mehmanxanalarda təcili tibbi yardım xidməti təşkil edilib, tədbirin keçiriləcəyi məkan və ərazilər üzrə ambulanslar, tibbi heyət ayrılıb, Bakı Olimpiya Stadionuna ambulanslar təhkim olunub və COP29 Qərargahında növbətçilik təşkil olunub.

Brifinqdə media nümayəndələrinin sualları cavablandırılıb. Daha sonra Yeni Klinikada yaradılan şəraitlə əyani tanışlıq baş tutub, eləcə də tədbir üçün ayrılan ambulanslara baxış keçirilib.

# COP29 iştirakçılarının akkreditasiya kartlarının verilməsinə başlanılıb

**Oktyabrın 28-dən etibarən COP29-da iştirak edəcək nümayəndələrin və digər qonaqların akkreditasiya kartlarının verilməsinə başlanılıb.**




Bu barədə AZƏRTAC-a COP29 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib.

Bildirilib ki, tədbir günlərində konfransda iştirakı təsdiqləyən sənədin təqdim olunması zamanı növbələrin və gözləmə vaxtının minimuma endirilməsi, eləcə də iştirakçıların rahatlığının təmin edilməsi məqsədilə akkreditasiya kartları hər gün səhər saat 09:00-dan axşam saat 18:00-a qədər konfrans məkanının əsas girişindəki qeydiyyat masalarından təhvil alına bilər.

İştirakçılardan COP29 konfransına qeydiyyatdan keçdiklərini təsdiqləyən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) rəsmi elektron məktubunun çap edilmiş nüsxəsini və qeydiyyat zamanı təqdim edilən fotoşəkilli şəxsiyyət sənədinin - pasportun və ya şəxsiyyət vəsiqəsinin əslini təqdim etmələri tələb olunur.

Təhlükəsizlik məqsədilə akkreditasiya kartı yalnız konfrans iştirakçısı tərəfindən şəxsən, qeydiyyat masasından təhvil alınmalıdır.

# COP29 çərçivəsində keçiriləcək Yüksək Səviyyəli Görüşə hazırlıq məsələləri müzakirə edilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) Baş katibi Rebekka Qrinspan ilə videokonfrans formatında görüş keçirib.**




Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə COP29 çərçivəsində baş tutacaq iqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı Təşəbbüsünə (BICFIT) dair Yüksək Səviyyəli Görüşə hazırlıq məsələləri müzakirə olunub.

Qeyd edilib ki, BICFIT iqlim maliyyəsi, investisiya, ticarət və dayanıqlı inkişaf məsələlərini bir araya gətirərək qlobal sinerjinin təmin edilməsi istiqamətində əhəmiyyətli perspektiv vəd edir. İqlim maliyyəsinin inklüziv əsaslarla formalaşdırılması, özəl sektorun potensialından istifadə və qlobal dekarbonizasiya prosesində BICFIT çərçivəsində aparılacaq müzakirələr mühüm rol oynaya bilər. Təşəbbüs dayanıqlı inkişafı dəstəkləmək, "yaşıl şaxələndirmə"yə sərmayələri təşviq etmək və bu istiqamətdə beynəlxalq təcrübə mübadiləsi kimi mühüm məqsədləri ehtiva edir.

Qeyd edək ki, COP29 üzrə BMT-nin təsis etdiyi müvafiq Qlobal İşçi Qrupunda təmsil olunan BMT-nin Ticarət və İnkişaf Konfransı və BMT-nin İnkişaf Proqramı Azərbaycanın irəli sürdüyü BICFIT təşəbbüsü üzrə BMT tərəfindən əlaqələndirici rolunu oynayırlar.

# Məktəblərdə ekologiya mövzusunda silsilə tədbirlər təşkil olunub

**"Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar "Məktəblərdə ekologiya ayı" layihəsi həyata keçirilib.**

Bakı Şəhəri üzə Təhsil İdarəsindən AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından, dayanıqlı enerji mənbələrindən səmərəli istifadə edilməsi mövzusunda "dəyirmi masa" və debatlar təşkil edilib, "Ətraf mühitimizi qoruyaq" adlı maarifləndirici tamaşalar nümayiş olunub, ağacəkmə aksiyaları keçirilib.

Layihə çərçivəsində məktəblərdə ekoloji guşələr yaradılıb, ekologiyanın qorunmasına dair maarifləndirici videoçarxlar hazırlanıb.

Bundan başqa, "yaşıl enerji"dən istifadənin artırılması, iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə mövzusunda inşa müsabiqəsi və seminarlar, şagirdlər arasında "Təbiətdən incəsənətə" mövzusunda əl işlərindən ibarət müsabiqə keçirilib, fləşmoblar hazırlanıb.

Tədbirlərdə dünyanı narahat edən ekoloji problemlərdən, iqlim dəyişiklikləri və onların canlı aləmə mənfi təsirlərindən, ekoloji mədəniyyətdən bəhs edilib, bu sahəyə diqqətin artırılması, beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin əhəmiyyəti şagirdlərin diqqətinə çatdırılıb. Həmçinin cari ildə ölkəmizdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətindəki səmərəli fəaliyyətinin təqdir olunması kimi qiymətləndirildiyi vurğulanıb.

# Xarici müdaxilələr və hibrid təhdidlər

**Azərbaycan Respublikası davamlı inkişaf yolunda tarixi nailiyyətlər əldə edərək dünya birliyində böyük nüfuz qazanıb. 30 ilə yaxın müddət ərzində işğal altında qalan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad olunub. 2023-cü ilin sentyabrında Qarabağda aparılan antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilərək separatizmə birdəfəlik son qoyulub. Tarixi ədalətin təntənəsi olan bu hadisə beynəlxalq hüquqa hörmətlə yanaşan dövlətlər tərəfindən obyektiv qiymətləndirilir, Azərbaycanın haqlı mövqeyi dəstəklənir. Təəssüf ki, bütün bunları həzm edə bilməyən, erməni lobbisinin təsiri altında olmaqla ikili standartlar mövqeyi tutan bəzi Qərb dairələri xarici müdaxilələr və hibrid təhdidlər vasitəsilə Azərbaycana qarşı təzyiq göstərməyə çalışırlar.**



COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi qərarının verilməsindən sonra xarici dairələrin ölkəmizə qarşı böhtan kampaniyası və ideoloji təxribatları güclənib. Hakimiyyətin əldə etdiyi uğurlara kölgə salmaq, ölkəmizin dünyada qazandığı nüfuza xələl gətirmək və əsassız bəyanatlarla ictimai rəyi çaşdırmaq üçün mediada və sosial şəbəkələrdə hər cür vasitələrə əl atılır.

Bu fikirlər fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səlimovun "Xarici müdaxilələr və hibrid təhdidlər" sərlövhəli məqaləsində yer alıb.

AZƏRTAC məqaləni təqdim edir.

Prezident İlham Əliyev bu il sentyabrın 23-də VII çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında bildirmişdir ki, xarici dairələr, xüsusilə Ermənistanın arxasında dayanan ölkələrin qəbul etdikləri qərarlar, qətnamələr və açıqlamalar verməsi ölkəmizə qarşı çirkin oyunların hələ bitmədiyini göstərir. Azərbaycanın uğurlarını həzm edə bilməyənlər yeni planlar hazırlayırlar. Qarayaxma, iftira və böhtan kampaniyalarının da məqsədi məhz budur. Azərbaycan Prezidenti qeyd edib: "Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur". Dövlətimizin başçısının çıxışından göründüyü kimi, xarici müdaxilələrin və hibrid təhdidlərin qarşısının alınması vacib məsələlərdən biridir. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 30 sentyabr tarixli qərarı ilə parlamentin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması Prezident İlham Əliyevin çıxışından irəli gələn mühüm addımlardan biri oldu.

Hazırda xarici dairələrin böyük canfəşanlıqla ölkəmizlə bağlı əsassız ittihamlar irəli sürməsi 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsi, 2015-ci ildə isə I Avropa Oyunlarının keçirildiyi günləri xatırladır. Həmin vaxt Azərbaycan adıçəkilən tədbirlərə evsahibliyi edirdi, indiki kimi, erməni diasporunun təsiri ilə ölkəmiz davamlı olaraq hibrid təhdidlərə məruz qalır, beynəlxalq təşkilatlarda qeyri-obyektiv xarakterli qətnamələr qəbul edilir, dünya dövlətlərini respublikamızda keçiriləcək tədbirlərdə iştirak etməkdən çəkindirməyə çalışılırdı. Məlumdur ki, həmin mənfur niyyətlər baş tutmadı, hər iki tədbir ölkəmizdə yüksək səviyyədə təşkil edilərək keçirildi.

Əvvəllər olduğu kimi, yenə də anti-Azərbaycan xarici dairələrin xətti ilə ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq üçün qərəzli sənədlər qəbul olunur, feyk məlumatlar əsasında "araşdırmalar" dərc edilməklə beynəlxalq ictimai rəydə yanlış təsəvvürlərin formalaşmasına çalışılır. Əslində, bu il oktyabrın 3-də ABŞ-nin bir qrup konqresmeninin bu ölkənin Dövlət katibinə müraciəti və Avropa Parlamentinin oktyabrın 24-də qəbul etdiyi "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı qətnamə Azərbaycana qarşı hibrid təhdidlərin təzahürüdür. Xalqımız bu cür əməllərin mahiyyətinə yaxşı bələddir, eləcə də erməni təəssübkeşliyi çəkən xarici dairələrin sifarişi ilə Qərb mətbuatında irəli sürülən iftiraların, ikili standartlar siyasətinin dəfələrlə şahidi olub.

Xarici dairələrin ədalətdən və insan hüquqlarından danışmağa mənəvi haqları yoxdur. Çünki onlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğal altında saxlanılması, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, işğal dövründə şəhərlərin və digər yaşayış məntəqələrinin, infrastruktur obyektlərinin tamamilə dağıdılması və xalqımızın milli-mədəni irsinin məhv edilməsi faktlarına bilərəkdən göz yummuşlar. Münaqişənin həlli üçün Azərbaycanla Ermənistan arasında aparılan danışıqlarda yeri gəldikdə ermənilərin mövqeyini müdafiə etmiş, onların işğalçılıq siyasətini davam etdirmələrinə açıq və gizli şəkildə dəstək vermişlər.

Xarici dairələr ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olması faktını qəbul edərək, Ermənistanı beynəlxalq hüquqi norma və prinsiplərin tələblərinə riayət edib Azərbaycanla sülh müqaviləsi imzalamağa çağırmaqdansa, tamamilə fərqli mövqe tuturlar. Onlar Ermənistanda revanşist meylləri gücləndirməklə regionda yenidən münaqişənin alovlandırılmasına çalışırlar. Bu cür niyyətdə olanların COP29-a siyasi rəng verərək, ölkəmizi müxtəlif bəhanələrlə ittiham etmələri heç bir məntiqə sığmır.

Tarixə nəzər salsaq görərik ki, dünyada geosiyasi gərginlik, siyasi toqquşmalar və iqtisadi böhranların yaranmasının əsas səbəblərindən biri də Qərbin hibrid təhdidləri ilə bağlıdır. Sovet İttifaqının süquta uğraması ilə "soyuq müharibə" başa çatdıqdan sonra güman edilirdi ki, Qərb demokratiya, insan hüquqlarının qorunması adı altında geosiyasi və geoiqtisadi maraqlarını həyata keçirmək, bu prosesdə onun göstərişləri ilə razılaşmayan ölkələrin daxili işlərinə müdaxilə etmək niyyətlərindən əl çəkəcək. Lakin çox keçmədən dünyada baş verən hadisələrdən aydın oldu ki, Qərb müəllifi olduğu "yeni dünya nizamı" çərçivəsində ənənəvi hibrid təhdidlərlə beynəlxalq münasibətləri özü istədiyi kimi formalaşdırmağa və istiqamətləndirməyə çalışır.

Qərbin hibrid təhdidləri çərçivəsində 1990-cı illərdə Balkandakı münaqişələrdə, xüsusilə Bosniya və Kosovo müharibələrində hərbi müdaxilə və iqtisadi sanksiyalardan istifadə edilmişdir. 2010-cu ildə "Ərəb baharı"nın başlaması birbaşa Qərbin hibrid təhdidlərinin nəticəsi olmuş, vətəndaş müharibəsi, iqtisadi böhranlar və siyasi-hərbi toqquşmaların gedişində kütləvi insan tələfatı ilə nəticələnən bu prosesin miqyasının daha genişlənərək digər dövlətlərə yayılmasına çalışılmışdır. Qərbin hibrid təhdidləri nəticəsində alovlandırılan münaqişələrdən biri də Ukrayna ilə Rusiya arasındakı müharibədir.

Cənubi Qafqaz da Qərb dairələrinin hibrid təhdidlərinin regional məkanlarından biridir. Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasında maraqlı olmayan Qərb dairələri hazırda Gürcüstanı hədəf seçərək ciddcəhdlə bu ölkədə daxili qarşıdurmalar yaratmağa çalışır. Xüsusilə oktyabrın 26-da Gürcüstanda keçirilmiş parlament seçkilərinin nəticələri Qərbin regionda geosiyasi niyyətlərini iflasa uğratmışdır. Mövcud vəziyyətlə barışmaq istəməyən Qərb dairələri Gürcüstana qarşı iqtisadi təzyiq göstəriləcəyini, siyasi xarakterli problemlərlə üzləşdiriləcəyini açıq şəkildə bəyan edir ki, bu da hibrid təhdidlərin klassik nümunələridir.

## Hibrid təhdidlər: çoxpilləli strategiyalar və taktikalar

Əvvəlki dövrlərlə müqayisədə hazırda hibrid təhdidlərin miqyası daha da genişlənib. Bunun əsas səbəbləri yeni texnologiyaların, xüsusilə informasiya, kibersistemlər sahəsində inkişafın hibrid təhdidlər üçün yeni imkanlar yaratması, dünyanın geosiyasi mənzərəsində özünü göstərən qeyri-müəyyənliklər, asimmetrik xarakterli münaqişələrin sayının artması, beynəlxalq institutların fəaliyyətində müşahidə edilən zəiflik, bəzən onların praktiki addımlar atmaqdan daha çox heç bir kəsəri olmayan deklarativ bəyanatlar verməklə kifayətlənməsi kimi amillərdir.

Hibrid təhdidlər rəqiblərin xarakterinə, strategiyalarına, metodlarına görə asimmetrik və simmetrik olmaqla bir-birindən fərqlənir. Asimmetrik hibrid təhdidlər adətən tərəflərdən birinin zəif olduğu qeyri-bərabər qüvvələrdən (məsələn, üsyançılar nizami orduya qarşı) istifadəyə əsaslanır. Burada partizan müharibəsi, kiberhücumlar, təbliğat və terror taktikalarına əl atılır. Simmetrik hibrid təhdidlərdə tərəflər güc və imkanlar baxımından bərabər üstünlüyə malikdir. Bu təhdidlər zamanı hərbi əməliyyatlarla müasir texnologiyaların (dronların istifadəsi, kiberhücumlar və s.) birgə kombinasiyası tətbiq olunur, ənənəvi və qeyri-ənənəvi metodlara əsaslanan strateji planlaşdırma hazırlanaraq həyata keçirilir.

Hibrid təhdidlərin metodları özündə müxtəlif strategiya və taktikaları ehtiva edir ki, onların sırasında informasiya müharibəsi, kiberhücumlar, proksi qüvvələrdən istifadə, iqtisadi təzyiq və ənənəvi hərbi əməliyyatlar mühüm yer tutur.

İnformasiya müharibəsində dezinformasiyalar yaymaq yolu ilə vətəndaşların dövlət institutlarına, mediaya inamının sarsıdılmasına, hansısa siyasi qüvvəni dəstəkləmək, yaxud onu sıradan çıxarmaq üçün ictimai rəyin formalaşdırılmasına, sosial münaqişələrə səbəb ola biləcək xaos və qarşıdurmaların yaradılmasına çalışılır. Qeyd edək ki, dezinformasiya yaymaq metoduna xüsusi əhəmiyyət verilməsi daha çox sosial-psixoloji səbəblərdən irəli gəlir. Burada əsas məqsəd dezinformasiya vasitəsilə qarşı tərəfi çaşdırıb onun real vəziyyəti obyektiv qiymətləndirməsinə çətinlik yaratmaqdan ibarədir. Ona görə də hibrid təhdidlərdə dezinformasiyaya əhali arasında narazılıq və çaxnaşma yaratmaq vasitələrindən biri kimi baxılır.

Dezinformasiyadan istifadəyə xüsusi önəm verilməsinin əsas səbəblərindən biri də maliyyə ilə bağlıdır. Belə ki, dezinformasiyanın yayılmasını təşkil etmək hərbi əməliyyatlardan daha az maddi resurs tələb etdiyindən ona sərfəli strateji metod kimi yanaşılır. İnformasiya müharibəsi aparan tərəf özünün maraqlarına cavab verən siyasi qüvvələri dəstəkləyir, rəqib hesab etdiyi ölkələr haqqında isə beynəlxalq aləmdə mənfi imicin formalaşdırılmasına cəhd göstərir. İnformasiya müharibəsində əsas diqqət bilavasitə insanların fikir və davranışlarına təsir etmək məqsədilə məlumat və qavrayışın manipulyasiyasına yönəldilir. Bu məqsədlə mediadan, sosial şəbəkələrdən dezinformasiya və təbliğat platforması olaraq fəal şəkildə istifadə edilir.

Kiberhücumlar ənənəvi hərbi münaqişələrin elementləri ilə rəqəmsal strategiyaların birləşməsinə əsaslanır. Hakerlər vasitəsilə ələ keçirilmiş hesablar və saytlarda dezinformasiyanın yayılmasına üstünlük verilir ki, burada əsas niyyət insanları informasiyanın doğru, yaxud yalan olmasını ayırd etməkdə çətinliyə yuvarlamaqdır. Zərərli proqramlardan istifadə etməklə məlumatlar nəinki oğurlanır, hətta onların mahiyyəti bilərəkdən dəyişdirilir. Müxtəlif sektorlara (maliyyə, səhiyyə və s.) kütləvi kiberhücumlar vətəndaşlarda çaxnaşma, narazılıq yaratmaq məqsədi güdür.

Proksi qüvvələrdən istifadə dedikdə, xarici oyunçunun sifarişini yerinə yetirən, lakin müstəqil fəaliyyət görüntüsü ilə pərdələnən marionet qrupların yaradılması və idarə olunması nəzərdə tutulur. Münaqişələr vasitəsilə gərginlik yaratmaq niyyəti güdən, zərərli ideologiyaların yayılması məqsədi daşıyan, xarici oyunçunun mövqeyini gücləndirməyə çalışan bu qruplar cidd-cəhdlə kənar aktorlarla işbirliyini gizlətməyə cəhd edirlər. Xarici aktor da öz növbəsində proksi qüvvələrlə əlaqəsinin olduğunu bildirməkdə həvəsli görünmür ki, beynəlxalq hüquqi normalarla bir araya sığmayan əməllərinə görə (məsələn, ölkələrin daxili işlərinə müdaxilə və s.) məsuliyyətdən yayına bilsin.

İqtisadi təzyiq qarşı tərəfin iqtisadiyyatına və maliyyə sabitliyinə təsir etməklə onu zəiflətməyə yönəlmiş metoddur. Burada iqtisadi sanksiyalar tətbiq etməklə geosiyasi məqsədlərə nail olunması əsas yer tutur. Hədəf seçilmiş ölkədə iqtisadi vəziyyətin ağırlaşmasına çalışılır ki, cəmiyyət siyasi-iqtisadi böhrana sürüklənsin və əhalidə dövlətə qarşı narazılıq yaransın. Maliyyə institutları, bank sistemləri və ödəniş infrastrukturunun fəaliyyətinə maneçilik törətməklə iqtisadi xaosun yaradılması, neft, qaz və digər təbii sərvətlərin ələ keçirilməsi, yaxud onlara çıxışın qarşısının alınması ilə əks tərəfin iqtisadiyyatının zəiflədilməsinə cəhd edilir. Maliyyə bazarlarında valyuta və səhm qiymətlərində kəskin dalğalanmalara səbəb ola biləcək çaxnaşma yaratmaq üçün iqtisadi dezinformasiya üsuluna əl atılır.

Hərbi əməliyyatlardan istifadə olunması hibrid təhdidlərin digər metodlarından fərqlənir. Belə ki, hərbi əməliyyatlarda silahlı qüvvələr və hərbi texnika vasitəsilə hədəf seçilmiş ölkənin ərazisinin ələ keçirilməsi, yaxud hərbi obyektlərinin məhv edilməsi nəzərdə tutulur, hibrid təhdidlərin qeyri-ənənəvi metodları (dezinformasiya, kiberhücumlar və s) isə siyasi-ideoloji xarakter daşıyır.

## Hibrid təhdidlərin ideoloji və qlobal təhlükəsizliyə təsiri

Hibrid təhdidlərin ideoloji təhlükəsizliyə təsiri müxtəlif istiqamətlərdə özünü göstərir. Milli kimliklə, adət-ənənələrlə uzlaşmayan yad dəyərlərin, radikal və ekstremist ideologiyaların yayılmasına çalışılır. İdeoloji təxribatlar yolu ilə dövlətin siyasətinə kölgə salınır, ictimai-siyasi sabitliyin zorakı vasitələrlə pozulmasına cəhd edilir. İdeoloji təxribatların həyata keçirilməsində sosial medianın imkanlarından geniş istifadə olunur.

Hədəf götürülmüş ölkəni beynəlxalq aləmdə nüfuzdan salmaq, ideoloji və qlobal təhlükəsizliyə təhdid yaratmaq üçün müxtəlif metodlar tətbiq edilir. Xüsusilə xarici ictimai rəyə hesablanmış siyasi, sosial-iqtisadi xarakterli yanlış məlumatlar yayılır. Dövlət orqanlarının elektron informasiya ehtiyatları sisteminə qanunsuz müdaxilələr yolu ilə əldə edilən məlumatlardan kompromat kimi istifadə olunur, müxtəlif media kanalları, o cümlədən sosial şəbəkələr vasitəsilə dünya birliyində ölkə haqqında mənfi imicin yaradılmasına çalışılır. Hətta vətəndaş müharibəsinin baş verməsi üçün siyasi-iqtisadi metodlara əl atılır. Müxalif siyasi qruplar və etnik-dini icmalar qeyri-şəffaf yollarla maliyyələşdirilərək pozuculuq əməlləri törətməyə sövq edilir.

Bəzən beynəlxalq təşkilatlar da iqtisadi təzyiq vasitəsi kimi hibrid təhdidlərin həyata keçirilməsinə cəlb olunur. Bu təşkilatların xətti ilə maliyyə resurslarına, ticarətə və vacib əhəmiyyət daşıyan texnologiyaların əldə olunmasına çıxış məhdudlaşdırılmaqla ölkələrə qarşı sanksiyaların tətbiqi kampaniyası daha da genişləndirilir. Hətta hədəf seçilmiş tərəfə kollektiv təzyiq göstərilməsi üçün beynəlxalq koalisiyalar formalaşdırılır.

## Hibrid təhdidlərin qarşısının alınması yolları

Hibrid təhdidlərin qarşısının alınması kompleks yanaşma, siyasi-iqtisadi vasitələri özündə birləşdirən koordinasiyalı fəaliyyətin göstərilməsini tələb edir. Bu məqsədlə siyasi sahədə:

- şəffaflığın, hesabatlılığın və dövlət orqanlarına etimadın artırılması yolu ilə dezinformasiyalara həssaslığın azaldılması;
- informasiya təhlükəsizliyinin gücləndirilməsi, bu sahədə mütəmadi monitorinqlərin aparılması;
- ictimai rəyin qeyri-obyektiv istiqamətdə formalaşdırılması, idarə olunması niyyətlərinin media və sosial şəbəkələr vasitəsilə ifşa edilməsi;
- hibrid təhdidlərə qarşı mübarizədə digər dövlətlərlə tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi;
- kibercinayətkarlıq, radikalizm və ekstremizm ilə mübarizəyə dair qanunvericiliyin təkmilləşdirilməsi;
- informasiya hücumlarının qarşısının daha səmərəli şəkildə alınması üçün kibermüdafiə sistemlərinin gücləndirilməsi;
- əhalinin siyasi şüur və mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə siyasi-ideoloji təbliğat işinin səmərəli təşkili və s.

### İqtisadi sahədə:

- davamlı iqtisadi inkişaf vasitəsilə iqtisadi manipulyasiya və sanksiyalara qarşı həssaslığın azaldılması;
- xarici amillərdən asılılığı azaltmaq üçün davamlı təchizat zəncirinin yaradılması;
- əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün təsirli iqtisadi-maliyyə tədbirlərinin görülməsi və s.

Yuxarıda göstərilənləri ümumiləşdirsək aydın olur ki, müasir dövrdə yeni texnologiyaların sürətli inkişafı hibrid təhdidlərin həyata keçirilməsi imkanlarını artırır. Bu təhdidlər ölkələrarası və ölkədaxili münaqişələrin yaradılması, eləcə də idarə olunmasının əsas amillərindən biridir. Azərbaycan dövləti də mütəmadi olaraq hibrid təhdidlərlə üzləşir. Lakin onlar Prezident İlham Əliyevin qətiyyətli siyasəti, xalq-iqtidar birliyinin nəticəsində iflasa uğrayır. Müasir dünyada geosiyasi gərginliyin getdikcə güclənməsi xarici müdaxilələrin və hibrid təhdidlərin artacağını göstərir. Bu cür mənfi proseslərin qarşısının alınması üçün dünyanın sülhsevər dövlətləri arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi vacib əhəmiyyət daşıyır.

# Qərb Gürcüstana daxil olmaqla bu ölkənin "axırına çıxmağa" çalışır

**"Oktyabrın 26-da keçirilmiş parlament seçkilərində Gürcüstan xalqı Qərbə "yox" dedi. Seçkilər şəffaf şəkildə keçirildi və xalq üçün öz iradəsini ifadə etməsinə demokratik şərait yaradıldı. Seçkilərdə iştirak edən vətəndaşlar öz seçimlərini edərək "Gürcü Arzusu" partiyasını yüksək çoxluqla dəstəklədilər".**



Qərbin gürcü xalqının iradəsini həzm edə bilmədiyini qeyd edən Milli Məclisin deputatı Azər Badamov deyib ki, ona görə də Qərbin təsiri ilə müxalifət insanları meydanlara çağırır, seçkinin nəticələrini tanımayacaqlarını bildirirlər. Seçkilərlə bağlı İsveç və Kanada açıqlama verərək Gürcüstana yardımları dayandırdığını elan ediblər.

Deputat hesab edir ki, digər Qərb ölkələri də eyni addımları atacaq və Gürcüstan hakimiyyətinə təzyiq göstərməyə çalışacaqlar. Seçkinin nəticələri ilə Qərbin razılaşmayacağı qabaqcadan bəlli idi. Çünki bir müddət əvvəl "Xarici agentlər haqqında" qanunu parlamentdə müzakirəyə çıxaranda da Qərb öz narazılığını ifadə edərək bu qanunun qəbul olunacağı təqdirdə Gürcüstanın Avropa Birliyinə yolunun bağlanacağını bildirmişdi. Qərbin narahat olduğu bu qanun onların QHT-lər və siyasi fəal adı altında maliyyələşdirərək insanları ayağa qaldırmağa çalışdıqları siyasi texnoloqları dəstəkləməsində çətinlik yaradacaqdı və bu da onların çirkin planlarının reallaşdırılmasının qarşısını alacaqdı. Ona görə də Qərb birmənalı şəkildə bu qanunun qəbul olunmasına maneçilik törətməyə çalışırdı. "Amma Gürcüstan Parlamenti Qərbin təzyiqlərinə baxmadan bu qanunu qəbul etdi və bununla da Qərbin ölkədə ictimai-siyasi sabitliyin pozulmasına təsirini azaltmış oldu. Amma Qərb yenə ümidlərini üzməmişdi və 26 oktyabrda keçiriləcək parlament seçkilərində onların təsiri altında olan qüvvələri yenidən hakimiyyətə gətirə biləcəklərinə inanırdı. Gürcüstanlıların əksəriyyəti isə Qərbə "yox" deyərək ölkənin müstəqilliyinə və milli dəyərlərin qorunub saxlanılmasına səs verdi", - deyə o əlavə edib.

Prezident Salome Zurabişvilinin çağırışı ilə qərbyönümlü gürcülərin yenidən meydana axışaraq seçkilərə etiraz etdiklərini xatırladan deputat bildirib ki, meydana çıxmış şəxslərin əllərində Avropa İttifaqının bayraqları ilə yanaşı, ABŞ və Ukrayna bayraqları da var idi. Son illərin təcrübəsi göstərib ki, ABŞ bayrağının ayaq tutduğu ölkələrin taleyi Ukraynanın taleyi kimi olur. ABŞ siyasətinin qalib gəldiyi Ukraynada insanların düşdüyü ağır vəziyyətə nəzər yetirsək görərik ki, bu ölkənin gələcəyi şübhə altındadır. Bu gün böyük şəhərlər və yaşayış məntəqələri Yer üzündən silinir, on milyonlarla ukraynalı doğma yurdlarını tərk etməyə məcbur olub və özlərinə yeni yaşayış yerləri axtarışındadır. Yüz minlərlə ukraynalı isə müharibənin qurbanına çevrilib. Qərb isə Ukraynaya yardım adı altında yüz milyardlarla dollar həcmində silahlar göndərir və müharibənin Ukraynanın tam məhv olmasına qədər davam etdirilməsinə dəstək verir. Nəticədə isə böyük bir dövlət Yer üzündən silinməkdədir.

A.Badamov vurğulayıb ki, Qərb Ukraynanın yaxşı gələcəyini istəsəydi, müharibəyə xərclədikləri 100 milyardların yarısını müharibənin baş verməməsinə və bu ölkənin inkişafına yönəldərdi: "Təəssüf ki, bunun əksi baş verir, çünki Qərb müharibələri dəstəkləməklə, dövlətləri gücsüzləşdirməklə pul qazanmaqda maraqlıdır. Onları Ukraynanın gələcəyi düşündürmür. Gürcüstanda meydana çıxanların Ukraynanın bayrağını dalğalandırması Qərbin Gürcüstanla bağlı planlarının nədən ibarət olduğunu göstərir. 2008-ci ildə Qərbin Gürcüstana müdaxiləsi Abxaziya və Cənubi Osetiyanın itirilməsi ilə başa çatmışdı. İndi Qərb yenidən Gürcüstana daxil olmaqla, ümumiyyətlə, bu ölkənin axırına çıxmağa çalışır. Amma gürcüstanlılar çox ağıllı qərar qəbul edərək Qərbə "yox" dedilər".

Deputat xatırladıb ki, Gürcüstan konstitusiyasına görə, prezident seçkinin başa çatdığı 10 gün ərzində parlamentin birinci iclasının çağırılmasına fərman verməlidir. Görünən odur ki, Salome Zurabişvili belə bir sənədi imzalamaqda maraqlı deyil. Bu da ölkədə qeyri-müəyyən vəziyyət yaradır. Konstitusiyaya görə prezident hər hansı partiyaya dəstək verməməli və təmsil etməməlidir. Reallıqda isə o, müxalifəti dəstəkləyir və seçkilərin nəticələrini ləğv etməyə çalışır. Hadisələrin gedişatı göstərir ki, 10 gün ərzində prezident fərman verməzsə, parlamentin çoxluğunu qazanmış "Gürcü Arzusu" partiyası öz təşəbbüsü ilə birinci iclası keçirəcək və sonra da prezidentin hakimiyyətdən uzaqlaşdırılması məsələsinə baxılacaq. Nəticədə isə Qərbin Gürcüstanla bağlı çirkin planları baş tutmayacaq və qalib gəlmiş "Gürcü Arzusu" partiyası hakimiyyətə davam edəcək. Partiyanın iqtidarda olması Gürcüstanı yenidən bütövləşdirə, o cümlədən Rusiya ilə əməkdaşlığın genişlənməsi bu ölkənin iqtisadiyyatının inkişafını sürətləndirə bilər. Seçkilər göstərdi ki, Gürcüstanın gələcəyini düşünənlər Qərbin alətinə çevrilənlərdən çoxdur. Bu da Gürcüstanı tərəqqiyə və inkişafa aparacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



◆ Qarabağdan reportaj

**Artıq Cıdır düzünün iki addımlığındayıq. Sevincdən, fərəhdən ürəyimizin döyüntüsü artır. Ağlımızdan sevincə köklənmiş fikir və düşüncələr keçir. Bu düşüncələrin işığında Cıdır düzünü görməyə tələsirik. İllərdən bəri bu müqəddəs məkana doğru atmaq istədiyimiz addımlar indi gerçəkləşir.**
**Və budur, taxta hasarın elə taxta qapısından keçib Cıdır düzünə ayaq basırıq. Bu yerlərin hər qarışı bizi özünə çəkir. Deməli, bu qədər əziz, bu qədər doğma imiş Cıdır düzü! Cıdır düzünü ekranlardan, efirlərdən çox görmüşdük. Görə-görə də arzulamışdıq ki, kaş günlərin birində bizim də ayağımız Cıdır düzünə dəysin. İndi arzumuza çatmışıq, Şuşadayıq, Cıdır düzündəyik...**





# Zəfər yolu ilə Şuşaya doğru

### Cıdır düzündə qayaların üstünə səpilmiş çiçəklər göz oxşayırdı

Fərəhdən cuşa gəlib istəyirik ki, qollarımızı geniş açıb, Cıdır düzünü qucaqlayıb bağrımıza basaq. Amma Cıdır düzü bu anlarda sanki gözümüzə dünya qədər böyük görsənir. Əlbəttə ki, qucağımıza, qollarımızın arasına sığan deyil. Əksinə, Cıdır düzü bizi qoynuna alır. Bir anlıq ayaq saxlayıb bu müqəddəs məkanın gözəlliyinə tamaşa etdiyimiz anda dodaqlarımızdan pıçıltı ilə bu sözlər qopur: "Salam, Cıdır düzü! Uzun illərdən bəri idi ki, biz səni ziyarət etməyin həsrəti ilə yaşayırdıq. Sən otuz ilə yaxın düşmən tapdağında qaldın. Otuz il əvvəl biz səni ermənilərdən qoruya, uğrunda ölə bilmədik. Buna görə işğalçılar səni ələ keçirtdilər. Belə işğalı, belə qanlı döyüşləri sən ilk dəfə deyildi ki, görürdün! Tarix boyu belə qanlı hadisələrə şahidlik etmisən. Bilirik ki, düşmən tapdağında qalanda çox üzülmüsən. Elə biz də gecə-gündüz sənin həsrətinlə yaşayırdıq. Bir gün, bir an olsun belə sənə qovuşacağımıza olan ümidimizi itirmirdik. Səni işğalçılardan azad etməyin yollarını axtarırdıq. Elə bilmə ki, işğal illərində əlimizi üst-üstə qoyub oturmuşduq. Yox, elə deyildi! Biz daim ordumuzu gücləndirə-gücləndirə bütün ərazilərimizi düşməndən azad etməyə hazırlaşırdıq. Axır ki sənin gözəl qoynuna soxulmuş işğalçıları qovub çıxarmağın zamanı yetişdi. 2020-ci il noyabrın 8-də sənin sinəndən erməni işğalçılarını yaxşıca qovduq. İndi yavaş-yavaş düşmənin sənə vurduğu yaraları sağaldırıq. Biz bundan sonra heç vaxt bir-birimizdən ayrılmayacağıq".

İlahi, necə də gözəldir Cıdır düzü! Görəsən, yer üzündə bu möhtəşəmliyə tay olan başqa bir yer, başqa bir məkan varmı? Yaşıllığa bürünmüş Cıdır düzü başdan-ayağa çiçəklə örtülüb.

Bu müqəddəs məkanda zaman-zaman at yarışları keçirilib. Güclülər, bacarıqlılar qalib gəliblər, zəfər çalıblar. Elə adı da yəqin ki, bu yarışlardan götürülüb.

İndi Şuşanın başqa yerlərində olduğu kimi, Cıdır düzündə də qələbəlikdir. Dəstə-dəstə gələn adamlar deyə-deyə, gülə-gülə gəzib təbiətin bu möcüzəsinə heyran qalırlar. Qayaların üstünə çıxanlar, ağacların kölgəsində dincələnlər, yaşıl çəmənlikdən gül dərənlər, qol-qola verib şəkil çəkdirən dünyanın ləzzətini sanki burada alırdılar. Hərə ürəyindən keçən kimi istirahət edir, hərə Cıdır düzündə zamanını bir cür keçirir.

Gül-çiçəyə bürünmüş çəmənliklə xeyli irəli gəlib Cıdır düzünün qayalığa söykənən, uçurumun dərinliyinə mənzərə açan yerinə çatırıq. İri qayalardan birinin üstünə çıxıb yüksəklikdən aşağıya baxırıq. Göz işlədikcə uzanıb gedən ərazilər ruhumuzu oxşayır. Elə bil Tanrı dünyanın bütün gözəlliyini bu yerlərə bəxş edib. Bir-birinin arxasında möhkəm dayanmış dağların əzəməti özgə bir aləmdi. Bu dağlar sanki Şuşanı ovcunun içində əzizləyə-əzizləyə saxlayır. Daşaltı kəndi buradan daha ecazkar, daha bənzərsiz görünür.

*(əvvəli qəzetin 29 və 30 oktyabr nömrələrində)*

Bir az aralıdakı ziyarətçilər səs-səsə verib şən mahnılar oxuyurlar. Onlar Şuşaya, Cıdır düzünə gəldiklərinin sevincini bu cür ifadə edirlər, bəlkə də həyatlarının ən gözəl anlarını yaşayırlar. Bütün bu səhnələri gördükcə ürəyimiz qürur və iftixar hissləri ilə dolur. Bu müqəddəs məkana ayaq basmış insanların sevinci yerə-göyə sığmır.

Yaxınlıqda dayanmış ortayaşlı, dolubədənli bir nəfər dedi ki, 44 günlük Vətən müharibəsində Şuşanı erməni işğalçılarından azad edən cəsur zabit və əsgələrimiz bu qayalardan üzüyuxarı dırmaşıblar. Onlar qələbəmiz naminə bütün əziyyətlərə qatlaşaraq daim irəli, düşmən üzərində Zəfər çalmağa can atıblar. Qəhrəmanlıqları və igidlikləri ilə tarix yazıblar. Gözəl Şuşamız da bu rəşadətli oğullarımızın qəhrəmanlığı sayəsində düşməndən azad edilib.

Xalq yurdun azadlığı uğrunda şəhid olmuş cəsur oğullarını heç vaxt unutmur, həmişə onların xatirəsini hörmətlə yad edir. Elə qayaların üstünə səpilmiş çiçəklər də onların xatirəsinə ehtiram əlaməti kimi qəbul olunur. Yüksəklikdən üzüaşağı, ayağımızın altındakı sərt yoxuşa baxdıqca düşünürük ki, bu cür sərt yüksəkliyi çiynində silahla, ağır yüklə özü də gecənin bir aləmində ətrafında dolaşan atəş sədaları və güllə yağışı altında qalxmaq, sonra da düşmənlə vuruşmaq, əlbəyaxa olmaq, ona qalib gəlmək misilsiz bir qəhrəmanlıqdır. Şuşanın azadlığı uğrunda zabit və əsgərlərimiz bax belə misilsiz bir igidlik göstəriblər. Belə bir qəhrəmanlıq həm xalqımızın yaddaşında, həm də tariximizin səhifələrində əbədi olaraq daşlaşacaq. Bu gün Şuşada, Cıdır düzündə olmağımız, bu müqəddəs yerləri ziyarət etməyimiz belə cəsur oğullara borcluyuq. Biz də onların adlarını daim ucalıqlarda saxlamalıyıq, zirvələrə yazmalıyıq.

### Cıdır düzü böyüklərlə bərabər uşaqları da ovsunlamışdı

Bizi düşüncələrimizdən ətrafa yayılan gur musiqi səsi ayırdı. Cıdır düzünə gələn bir dəstə adam ruhları yerindən tərpədən, qəlbləri riqqətə gətirən musiqi sədaları altında rəqs edirdilər. Gözümüzü başı dumanlı dağlardan çəkib rəqs edən insanlara yönəldirik. Şən musiqi sədaları bir an içində hamını ətrafına toplayır. Belə xoş anda insanların çöhrələrini seyr edirik. Gülməyən bir üz, fərəhdən yaşarmayan bir göz yoxdur. Cıdır düzünə toplaşan insanların ürəklərində aşıb-daşan sevinc dalğa-dalğa üstündə dayandığımız bu müqəddəs məkanın hər tərəfinə yayılır. Bir az keçmiş sevinci bir-birinə qarışmış insanlar "Yallı" gedirlər. Hamı bir-birinin əlindən tutub rəqs edə-edə Cıdır düzündə dövrə vurur. Birlik, qardaşlıq, həmrəylik rəmzi olan "Yallı" gözəl bir gündə, Cıdır düzündə uzun illərdən sonra yenə də soydaşlarımızı bir-birinə yaxınlaşdırıb mehribanlaşdırır.

Cıdır düzündə təkcə böyükləri deyil, uşaqları da görmək olur. Şuşanı görməyə gələnlər övladlarını da bu gözəl məkana gətiriblər. Gətiriblər ki, onlar da musiqi beşiyimiz olan Şuşanı, onun başı dumanlı dağlarını, buz bulaqlarını, tarixi abidələrini, bir sözlə, əsrarəngiz təbiətini yaxından görsünlər. Çox düzgün də ediblər. Qoy bugünkü uşaqlar, sabahkı gənclər Şuşanı görsün, Qarabağın gözəlliyinə tamaşa etsin, erməni işğalçılarının törətdiyi vanadalizmi yaddaşlarının dərin qatlarına yazsınlar. Dost-düşmənlərimizi tanısınlar ki, böyüyəndə yanlışlığa yol verməsinlər.

Saniyələr, dəqiqələr sürətlə ötüb-keçir. Cıdır düzündə gördüyümüz əsrarəngiz mənzərələrə başımız qarışdığından zamanın necə sürətlə keçdiyini hiss etmirik. Artıq neçə saatdır ki, acılı-şirinli günlərə şahidlik etmiş bu müqəddəs məkandayıq. Amma qarşıda bizi Şuşanın görməli və gəzməli başqa yerləri də gözləyir. O məkanlara da getməliyik, o yerləri də görməliyik ki, Şuşa haqqında təsəvvürümüz bütöv olsun.

Bir neçə saat əvvəl gəldiyimiz güllü-çiçəkli çəmənliklə geriyə qayıdırıq. Çıxışda bir anlıq ayaq saxlayıb dönüb arxaya baxırıq. Cıdır düzü yenə bayaqkı böyük vüqarı və əzəməti ilə gözlərimiz önündə canlanır. Onun geniş sinəsində boy vermiş gül-çiçəyin rahiyəsi ətri ətrafı bürüyüb. Cıdır düzü bənzərsizliyi, əzəməti, möhtəşəmliyi və yenilməzliyi ilə tarixin bütün anlarında, bütün günlərində canlıdır, ölməzdir. Elə yaddaşlara da bu cür hopub qalıb. Cıdır düzü ilə, onun yaşıl sinəsində bitmiş gül-çiçəkləri ilə, iri qayaları və daşları ilə sağollaşanda dodaqlarımızdan bu sözlər pərvazlanır: "Sağ ol, Cıdır düzü! Füsunkar gözəlliyinlə, bir-birinə bənzəməyən gül-çiçəyinlə, qayalarınla, ağaclarınla bizi heyran etdin. Yaxın günlərdə biz yenə də görüşəcəyik! Biz səni hər gün, hər an xatırlayacağıq. Adın dilimizdən heç vaxt düşməyəcək. Salamat qal, Cıdır düzü!"

### Əsrlərin sükutuna dalmış məkan

Beləcə, Cıdır düzünün yaxınlığında olan Azərbaycan poeziyasının bənzərsiz nümayəndəsi, əsrlərdir şeirləri dillərdən düşməyən Molla Pənah Vaqifin məqbərəsini ziyarət etməyə gedirik. Məqbərənin ətrafında ziyarətçilər çoxdur. İnsanlar poeziyamızın ən çox sevilən, oxunan, sözlərinə mahnılar bəstələnən şairlərindən biri olan Vaqifin məzarını, həmçinin məzarının üzərində ucaldılmış məqbərəni ziyarət etməyə gəliblər. Geniş ərazidə yerləşən məqbərə gözəlliyi ilə onu ziyarətə gələnləri valeh edir. Xüsusi cizgiləri və forması ilə seçilən abidə bənzərsizliyi ilə Şuşanın gözəlliyinə gözəllik qatır. Əzəmətlə göyə ucalan məqbərə nağıllar şəhərini daha da füsunkar göstərir, ətrafa yaraşıq verir.



İşğal dövründə bəşəri dəyərlərdən olan ermənilər Şuşadakı başqa tarixi abidələr kimi Vaqifin məqbərəsini də darmadağın etmişdilər. Azərbaycan Ordusunun gücü, qüdrəti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Şuşa şəhəri işğaldan azad olundu. Dövlət başçısının müvafiq sərəncamı ilə çox qısa müddət ərzində Molla Pənah Vaqifin abidəsi də bərpa olunub əvvəlki vəziyyətinə gətirildi. Yenidən xalqın ziyarətgahına çevrildi.

Cıdır düzündən fərqli olaraq burada başqa mənzərə var. Ziyarətə gələnlər M.P.Vaqifin şeirlərini dinləyir, onun sözlərinə bəstələnmiş mahnılara qulaq asırlar. Qəlbləri titrədən bu musiqidən, min bir məna kəsb edən şeirlərdən doymaq bilmirlər.

Addım-addım irəliləyib Qarabağ xanlığının eşik ağası, müasir dildə desək, xarici işlər naziri olmuş, Şuşanı işğal etmək istəyən Ağa Məhəmməd şah Qacara cəsarətli cavab yazmış, poeziyamızda öz dəst-xəti ilə seçilmiş, şeirləri bu gün də aşıqların, müğənnilərin dillərindən düşməyən Vaqifin məqbərəsinə daxil oluruq. Şairin məzarı qarşısında baş əyir, xatirəsini ehtiramla yad edib ruhuna dualar oxuyuruq. Fikirlər, düşüncələr bizi qanadlarının üstünə alıb on səkkizinci əsrin sonlarında Şuşada baş vermiş qanlı hadisələrin mərkəzinə aparır. Budur, Qarabağ xanının vəziri Molla Pənah Vaqif düşüncələr içində sarayda gəzinir. İşğalçıları məğlub etmək üçün xana dəyərli məsləhət və tövsiyələr verir. Qarabağı, Şuşanı işğaldan qorumağın ən uğurlu yollarını axtarır. Sonra birdən-birə gözümüzün önündəki səhnələr dəyişir. Bu səhnələrdə böyük şairin edamını görürük. Bu səhnəyə dözməyib geri qayıdırıq.

Böyük şairin məzarını, məqbərəsini ziyarət etdikdən sonra yaxınlıqda şüşənin altına qoyulmuş şəkillərə yaxınlaşırıq. Böyüdülmüş və ardıcıllıqla düzülmüş bu fotolar məqbərinin dününinə, bu gününə güzgü tutur. Bu güzgü onun tarixini gələn qonaqlara göstərir. Şəkillər özündə tarixin müxtəlif zamanlarını yaşadır. Əvvəlki şəkillər məqbərənin açılışı olan qarlı, çovğunlu bir qış günündə çəkilib. Sonrakı şəkillər isə Şuşa işğaldan azad olunan günlərin yadigarıdır. Bu şəkillərə baxdıqca vandallara nifrətimiz artır. Erməni qəsbkarları işğal dövründə məqbərəni uçurub, yerlə bir ediblər. Bu şəkillər bir daha ermənilərin vəhşi, barbar olduqlarını dünyaya göstərir. Sonrakı şəkillər isə məqbərə üzərində aparılan bərpa və quruculuqdan sonrakı günlərə şahidlik edir. Bərpa işlərindən sonra abidə əvvəlki görkəmindən də yaxşı görünür. Bütün bunlar dövlətimizin tarixi abidələrimizə verdiyi yüksək dəyərdir, göstərdiyi diqqət və qayğıdır.

### Azərbaycan Ordusu gücü, qüdrəti ilə Qarabağa sülh gətirdi

Molla Pənah Vaqifin məqbərəsini xoş hisslərlə tərk etdik. Əmin olduq ki, yaxın zamanlarda işğaldan azad olunmuş bütün ərazilərimizdəki abidələrin, məqbərələrin hamısı bu cür yüksək səviyyədə bərpa olunub əvvəlki vəziyyətinə gətiriləcək.

Şuşaya gəlib İsa bulağını ziyarət etməmiş, bu gözəl məkanı görməmiş geri dönərsənsə, çox şey itirmiş olarsan. Bu, bağışlanmaz səhv olardı. Biz də "səhv" etməmək üçün illərdən bəri adını, tərifini eşitdiyimiz İsa bulağını görməyə getdik. Şuşanın qədimliyini, ulu keçmişini özündə əks etdirən məhəllələrlə geri qayıdırıq. Keçdiyimiz, gördüyümüz hər yerdə quruculuq işləri aparılır, binalara, abidələrə ikinci həyat verilir. İşlər başa çatandan sonra Şuşa daha möhtəşəm görünəcək.

Şuşadan çıxaçıxda ən hündür bir yerdə ayaq saxlayıb Xocalıya, Xankəndiyə, Əsgərana tərəf baxırıq. Dayandığımız yerdən bu şəhərlər aydın görsənir. Qarşımızda gözəl bir mənzərə açılır. Bu mənzərənin gözəlliyindən zövq alır, qürur duyuruq. 30 ilə yaxın müddət ərzində erməni işğalında qalmış bu şəhərlər, eləcə də Qarabağ azaddır. Artıq erməni işğalçılarının ayağı dəyməyən bu yerlər rahat nəfəs alır. Separatçıların kökü tamamilə kəsilib. Azərbaycan Ordusu gücü, qüdrəti ilə Qarabağa əmin-amanlıq gətirib. Gətirilən sülh yavaş-yavaş bu torpaqların ağır yaralarına məlhəm olacaq. Yaralar qaysaq bağlayacaq, amma erməni vəhşiliyi, vandalizmi həm insanların, həm də tarixin yaddaşından heç vaxt silinməyəcək.

### İsa bulağının suyu cana dərmandır

İsa bulağına gedən istiqaməti öyrənib irəliləyirik. Meşəyə girəndən sonra gördüyümüz gözəl mənzərələr bizi heyran edir. Bu yerlər hamının daim təriflədiyi, amma bu günə qədər heç kimin heç vaxt görmədiyi cənnəti xatırladır. Meşədə ağaclar çox sıxdır. O qədər sıxdır ki, heç günəşin şüaları da torpağın üstünə düşmür. Elə bil təbiət bütün yaşıl rəngini bu yerlərə səpələyib. Yola yenicə asfalt döşəndiyindən rahat gedirik. Nəhayət, İsa bulağına çatırıq. Bulağın yerləşdiyi ərazidə geniş meydan var. Meydanın bir tərəfində çayxana, yeməkxana və maşın saxlamaq üçün ayrıca yer də düzəldilib. Şuşanın başqa yerlərində olduğu kimi, burada da təmir-bərpa işləri aparılır.

Ətrafdakı gözəlliyi seyr edə-edə addım-addım qabağa gedirik. İsa bulağının buz kimi suyundan həm içir, həm də qablarımızı doldururuq. Dağların dibindən süzülüb gələn bulağın suyu buz kimidir. Şükürlər olsun ki, tərifi dillərdən düşməyən, Qarabağın gözəlliyinə həsr olunmuş mahnılarda tez-tez adıçəkilən İsa bulağından su içmək səadəti bizə də nəsib oldu. Sanki burada gözəllik gözəlliyə qovuşaraq daha da möhtəşəmlik yaradıb. Yaxınlıqdakı hündür ağaclar da sanki hərdən budaqlarını aşağı sallayıb bulaqdan su içmək istəyir. Bulağın üst tərəfindəki gözoxşayan yaşıllıq ətrafın yaraşığını bir az da artırır. Bu məkana heyran qalmamaq mümkün deyil. Məhz elə buna görə də İsa bulağı Qarabağın ən füsunkar, dillər əzbəri olan guşələrindən biri hesab olunur.

Bu gözəlliyə tamaşa edə-edə fikirləşirik ki, görəsən, bulağın adını daşıyan İsa kim olub, nəçi olub? Nəyə və hansı səbəbə görə belə gözəl bir məkanda yerləşən bulaq onun adını daşıyır? İsa deyilən şəxs Şuşanın tanınmış sənətkarları, musiqiçi, yoxsa qəhrəmanlarındanmı biri olub? Bu suallara cavab tapmaq üçün burada çalışanlara üz tutduq. Onlardan İsa bulağının tarixini soruşduq. Öyrəndik ki, uzun illərdən bəri dillərdə dastan olan bulağın tarixi həm qədim, həm də maraqlıdır. İsa zəhmətkeş, cəfakeş, sadə bir əkinçi olub. O, bu qalın meşəlik ərazidəki dayanmadan çağlayan bulağın yerini XVIII əsrdə təsadüfən aşkar edib. Yerini müəyyənləşdirəndən sonra onun ətrafında abadlıq işləri aparıb. İstəyib ki, Şuşa camaatı onun suyundan içsin. Bu cəfakeş insan çalışqanlığı sayəsində istəyinə nail olub. Əziyyət çəkib buranı abadlaşdırdığına görə də camaat bulağa onun adını verib. Beləcə, İsa adlı əkinçi aşkar etdiyi bulaqla bərabər tarixə düşüb.

Sərin suyundan içəndən sonra bir az İsa bulağının ətrafında dayanıb meşəni seyr etdik, ətrafdakı gözəlliyə tamaşa etdik. Gördüyümüz mənzərələr, eşitdiyimiz söhbətlər ovqatımıza ovqat qatdı. Elə bu ovqatla da gözəlliyinə heyran qaldığımız bulaqdan ayrıldıq.

İsa bulağından geri qayıdıb Zəfər yoluna çıxdıq. Yenə də rahat yollar bizi qoynuna aldı. Hündür dağ aşırımından keçəndə bir anlıq dönüb geri baxdıq. Şuşanın başı dumanlı dağları yenə də əzəmətli və qürurlu görünürdü. Çox iftixar dolu səhnə idi. Belə xoş anlarımızda dilimizə bu sözlər gəldi: "Salamat qal, Şuşa, salamat qal nağıllar şəhəri! Biz yenə də sənin qoynuna qayıdacağıq, saf havandan udub, dupduru suyundan içəcəyik".

8 noyabr 2020-ci ildə Prezident İlham Əliyev Şəhidlər xiyabanından Şuşanın erməni işğalından azad olunmasını Azərbaycan xalqına müjdə verərkən demişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik". Bəli, bu gün dövlət başçımız verdiyi sözə əməl edərək Şuşanı dirçəldir. Şuşaya yeni həyat verir, qurub-yaradır. Ömrünün ikinci baharını yaşayan Şuşa zaman keçdikcə daha da gözəlləşəcək. Dünyanın ən gözəl, ən işıqlı tarixi şəhərlərindən birinə çevriləcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*

# REGİONLAR

## Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları qərar verdilər

### COP29-dək hər gün iməcilik keçirəcəklər

**Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində yeni kampaniyaya başlayıblar. Onlar ölkəmizdə keçiriləcək COP29-la əlaqədar hər gün iməcilik keçirməyə qərar veriblər.**



İlk üç gündə kompleksin əməkdaşları Quba-Qəçrəş-Xınalıq yolu ərazisində təmizlik işləri aparıblar. Turistlərin ən çox üz tutduqları bu yolda fəaliyyət göstərən istirahət obyektlərinin nümayəndələri də onlara qoşulublar.

Kompleksin direktoru bizimlə söhbətində bildirdi ki, kompleks əməkdaşları olaraq əvvəlcə küçələrdə təmizlik aparanlara kömək edirlər: "Rayonun mərkəz yolları, təhsil müəssisələrinin qarşısı təmizlənir. Bizə rayonda onlarla müəssisə qoşulub. Qarşıdan gələn COP29-a görə istirahət mərkəzlərinə də müraciət etmişik".

Öyrənirik ki, piknik ərazilərindən, Qəçrəş-Xınalıq yolunun kənarlarından tonlarla zibil daşınıb. Qonaqkənd, Afurca, Təngaltı kəndlərində yerləşən istirahət mərkəzlərində də aksiyaya qoşulanlar var.

- "Aksiyamız noyabrın 5-dək davam edəcək", - deyə Rəxşəndə Bayramova bildirib. - Noyabr Qubada daha çox yağış yağır. Ötən il hətta yağışdan sonra qar rayonu ağ örpəyə bürüdü. Biz qış aylarında da təmizlik işlərini aparacağıq. Bu bizim torpaqdırsa, onu təmiz saxlamaq borcumuzdur. Vəzifəsindən asılı olmayaraq, hər kəs belə düşünərsə, ekoloji tarazlıq qorunar və "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə vermiş olar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağstafada 9 aya yekun vuruldu

### Kənd təsərrüfatı məhsullarının istehsalı 3,7 faiz artıb, 650 nəfər işlə təmin olunub

**Ağstafada aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə cari ilin 9 ayı ərzində görülən işlərə dair müzakirələr aparılmışdır.**

Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Seymur Orucovun 9 ay ərzində rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlərə dair geniş məruzəsi dinlənilmişdir. Məruzəçi çıxışında Prezident İlham Əliyevin Azərbaycanın tərəqqisi, xalqımızın firavanlığı naminə yürütdüyü uğurlu daxili və xarici siyasətdən, ölkəmizin dinamik sosial-iqtisadi inkişafından, hərbi qüdrətindən, noyabr ayında paytaxtımızda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının əhəmiyyətindən söz açmış, 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ağstafada icra olunan silsilə tədbirlərdən danışmışdır.

Sonra RİH-in başçısı rayon üzrə 9 ay ərzində görülən işlər barədə geniş məlumat vermişdir. Bildirmişdir ki, sözügedən dövrdə həyata keçirilən bir sıra tədbirlər nəticəsində rayonda 650 nəfər işlə təmin olunmuşdur. İstehsal edilən kənd təsərrüfatı məhsullarının həcminin ötən ilin eyni dövrü ilə müqayisədə 3,7 faiz artdığını və bunun dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı nəticəsində əldə olunduğunu deyən S.Orucov hesabat dövründə bir sıra kommunal mənzillərdə, çoxmənzilli yaşayış binalarında aparılan abadlıq-quruculuq işlərini, bəzi küçələrin təmir olunmasını qeyd etmişdir.

Hesabatdan sonra rayonun müvafiq kommunal və xidmət təşkilatlarında görülmüş işlər, daxil olmuş ərizə və şikayət məktublarına baxılmasının vəziyyəti təhlil edilmişdir. Şəmkir Regional Qaz İstismar İdarəsinin Ağstafa Xidmət Sahəsinin rəisi Anar Qocayevin, Ağstafa Elektrik Şəbəkəsinin rəisi Bəhruz Tağızadənin, "Aztelekom" MMC-nin Qərb Regional Filialının Ağstafa şöbəsinin müdiri Bəxtiyar Quliyevin, Ağstafa Su Meliorasiya Sistemləri İstismarı İdarəsinin rəisi Fərid Eyyubovun 9 ay ərzində gördükləri işlərə dair hesabatları dinlənilmişdir.

Yığıncaqda Ağstafa rayon prokuroru Anar Cəfərov və rayon polis şöbəsinin rəisi Vüqar Xəlilov çıxış edərək Azərbaycan Respublikası qanunlarının icrası və həmin qanunvericilik aktlarının həyata keçirilməsi ilə bağlı görülməsi vacib olan məsələlərdən danışmışlar.

Yığıncaqda bəzi çatışmazlıq və nöqsanlarla bağlı aidiyyəti üzrə məsul şəxslərə ciddi iradlar bildirilmiş, həmin nöqsanların qısa müddət ərzində aradan qaldırılması ilə bağlı konkret tapşırıqlar verilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*




## Növbəti toxum sərgi-satış yarmarkasının ünvanı Beyləqan oldu

**Toxum bazarını və yerli toxumçuluğu inkişaf etdirmək, payızlıq əkinlər ərəfəsində fermerlərin sertifikatlaşmış, iqlimə uyğun, keyfiyyətli toxuma əlçatanlığının təmin edilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə növbəti toxum sərgi-satış yarmarkası və Aqrar Biznes Festivalı Beyləqan rayonunda keçirilib.**




İmişli, Saatlı, Sabirabad, Beyləqan rayonlarından olan fermerlərin qatıldıqları toxum sərgi-satış yarmarkasında yerli toxum istehsalçıları, toxum istehsalı və satışı ilə məşğul olan iri şirkətlər, həmçinin kənd təsərrüfatının digər sahələri üzrə ixtisaslaşmış özəl şirkətlər iştirak ediblər.

Beyləqan Rayon İcra Hakimiyyətinin qarşısında keçirilən festivalda Kənd Təsərrüfatı Nazirliyi, eləcə də digər dövlət qurumları öz xidmətləri barədə fermerləri məlumatlandırıblar. Festivalda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) təşəbbüsünün prioritetlərinə uyğun olaraq məhsullar sərgilənib.

Festival çərçivəsində Beyləqan rayonunda "Mil-Muğan iqtisadi rayonunun aqrar sektorunun gələcək inkişaf perspektivləri" mövzusunda "dəyirmi masa" da keçirilib. "Dəyirmi masa"da iqtisadi rayonun prioritet istiqamətlərindən olan pambıqçılıq sahəsi üzrə "Pambıqçılıqda innovativ texnologiyalar: mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda müzakirələr aparılıb. Tədbirdə pambıqçılığın inkişafına dair məsələlər, cari vəziyyət və inkişaf prespektivlərinə dair bu sahədə ixtisaslaşmış "P-Agro", "Azərpambıq" MMC, "MKT İstehsalat və Kommersiya" şirkətinin və digər müəssisələrin, həmçinin Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Sığorta Fondunun mütəxəssisləri çıxış edərək fikir mübadiləsi aparıblar. Müzakirə zamanı subsidiyaların verilməsi, pambığın becərilməsində intensiv texnologiyalardan istifadə etməklə məhsuldarlığın artırılması, yüksək məhsuldarlıq üçün torpaq və su resurslarından səmərəli istifadə, növbəli əkin sisteminin tətbiq olunması ilə bağlı fikirlər səsləndirilib, aqrotexniki tədbirlərin düzgün və zamanında yerinə yetirilməsi, aqrokimyəvi analizlərin aparılması, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsinin vacibliyi vurğulanıb.

Tədbir çərçivəsində fermerlər üçün kredit yarmarkası da təşkil olunub. Kredit yarmarkasında fermerlərə müxtəlif sərfəli kredit məhsulları təklif olunub və informasiya materialları təqdim edilib.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Rusiyalı alimlərlə bitki mühafizəsinin əsas problemləri və onların həlli yolları müzakirə edilib

**Bitki Mühafizə və Texniki Bitkilər Elmi - Tədqiqat İnstitutu və Rusiya Federasiyasının Ümumrusiya Bitki Mühafizə Elmi-Tədqiqat İnstitutu arasında "Bitki mühafizəsinin əsas problemləri və onların həllinin optimal yolları" mövzusunda onlayn tədbir keçirilib.**

İnstitutlar arasında əməkdaşlıq çərçivəsində qarşılıqlı bilik və təcrübə mübadiləsi məqsədilə keçirilən tədbirdə Bitki Mühafizə və Texniki Bitkilər Elmi - Tədqiqat İnstitutunun direktoru, professor İbrahim Cəfərov və Ümumrusiya Bitki Mühafizə Elmi-Tədqiqat İnstitutunun direktoru professor Vyaçeslav Qulevskiy əməkdaşlığın prioritet istiqamətləri, perspektiv layihələr barədə fikirlərini bölüşüblər.

Çıxışlarda xəstəlik və zərərvericilərin kənd təsərrüfatı sahəsində ciddi problemlərə səbəb olduğu qeyd edilib, bitki xəstəlikləri, zərərvericiləri ilə mübarizə üsulları və nəticələr barədə məlumatlar paylaşılıb. Tədbir zamanı növbəti elmi konfransların canlı şəkildə hər iki institutda təşkil olunması təklif edilib.

## Naxçıvanda maliyyə forumu keçiriləcək

**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar cari ilin dekabr ayında Naxçıvanda maliyyə forumu keçiriləcək.**



Bu barədə AZƏRTAC-ın Naxçıvan bürosuna Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, Davos formatında təşkil olunması planlaşdırılan bu forum maliyyə və vergi sahəsində mühüm məsələləri müzakirə etmək üçün ekspertləri, ölkənin və muxtar respublikanın bir sıra dövlət, özəl qurumlarının rəhbərlərini, həmçinin maliyyəçilərini bir araya gətirəcək.

## Ərzaqlıq buğda əkininə dair KTN ilə müqavilələrin bağlanması müddəti sabah başa çatır

**2025-ci ilin məhsulu üçün müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə ərzaqlıq buğda əkininə dair Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilələrin bağlanması müddəti noyabrın 1-də başa çatır.**

Öz sahələrində Pivot suvarma sistemi quraraq ərzaqlıq buğda əkini aparmaq istəyən fermerlər qeyd olunan tarixədək nazirliyə müraciət edərək müvafiq müqaviləni imzalamalıdır.

Qeyd edək ki, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Prezidentin 2022-ci il 19 iyul tarixli fərmanına əsasən, istehsalın etibarlı təşkili ilə əlaqədar tədbirlər 2024-cü ildə də davam edib. 2024-cü ilin məhsulu üçün müqavilə imzalanmış 29 təsərrüfatda 23765 hektar pivotaltı sahədə ərzaqlıq buğda əkini aparılıb. Növbəti təsərrüfat ilində ərzaqlıq buğda əkini sahələrinin daha da genişləndirilməsi nəzərdə tutulur.

## Xurma festivalı məhsul bayramına çevrildi

### Mövsümün əvvəlindən Balakənin bağlarından 9,3 min ton məhsul yığılıb

**Əvvəllər - sovet dönəmində də məhsul bayramları keçirilərdi. Taxıl biçini, üzüm, pambıq yığımının yekununa az qalmış, daha doğrusu, plan və öhdəliklərin yerinə yetirilməsi ilə kəndlilər xoş əhvali-ruhiyyəyə köklənəndə təsərrüfatlarda bir şadyanalıq olardı ki, gəl görəsən… Yaylaqlarda çobanların, qışlaqlarda sağıcıların şərəfinə düzənlənən çal-çağır sadə zəhmət adamlarına stimul verərdi.**

Müstəqillik illərində də həmin ənənə davam edir, amma onun nə plana dəxli var, nə də öhdəliyə aidiyyəti. Sadəcə bu və digər rayon hansı meyvə, bitki ilə məşhurdursa, onun adına festival keçirilir.

Balakən camaatı da bar-bərəkət və bolluğu həmişə böyük fərəh, şükranlıqla qeyd edir. O üzdən 2017-ci ildən burada fasilələrlə Xurma festivalı keçirilir. Qoz-fındığı, şabalıdı, tərəvəzi, bir sıra meyvəsi ilə tanınan rayonda bu dəfə dördüncü dəfə idi ki, Xurma festivalı təşkil olunmuşdur. Rayon icra hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin, Aqrar İnnovasiya Mərkəzinin, Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının və "Balkhoorma" şirkətinin dəstəyi ilə keçirilən tədbirə müxtəlif qurumların nümayəndələri, xurma istehsalçıları və ixracatçıları, həmçinin rayon sakinləri qatılmışdılar.

Festival iştirakçıları və qonaqlar öncə Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət etdilər. Sonra "Balkhoorma" MMC-nin Katex kəndində yerləşən meyvə və giləmeyvələrin quru və yarımquru emalı müəssisəsində istehsal prosesi ilə tanış oldular. Məlumat verildi ki, 2017-ci ildə fəaliyyətə başlayan və müasir standartlara cavab verən müəssisəyə meyvələr sakinlərin şəxsi xurma bağlarından yığılır. Burada istehsal edilən məhsullar ekoloji cəhətdən təmizdir. Onlar qablaşdırılmış formada həm daxili bazarda satılır, həm də MDB-yə və digər ölkələrə ixrac olunur. Müəssisənin fəaliyyətə başlaması ilə yerli əhalinin xurma ağaclarının əkininə marağı xeyli artıb. Yeri gəlmişkən, qeyd edək ki, müəssisə ilə tanışlıqdan sonra qonaqlar ərazidə xurma ağacları əkdilər.

Rəsmi açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı İslam Rzayev bildirdi ki, xurma festivalının keçirilməsi Balakən üçün xüsusi önəm daşıyır: "Festival rayonda kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını stimullaşdırır. Tədbirin yerli məhsulların xarici bazarlarda satışının təşviqi baxımından da böyük əhəmiyyəti var. Xurma festivalının keçirilməsi, eyni zamanda rayonun milli adət-ənənələrinin, qonaqpərvərliyinin, turizm imkanlarının tanıdılmasında, xurmadan hazırlanan məhsulların təşviqində vacib rol oynayır".



Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov və Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyası İdarə Heyətinin sədri Qadir Yusifov çıxış edərək bu gün ölkəmizdə qeyri-neft məhsulları üzrə ixrac imkanlarının artırılmasında meyvəçiliyin mühüm rol oynadığını, Azərbaycandan xarici bazarlara ixrac olunan məhsullar sırasında xurmanın xüsusi yer tutduğunu vurğuladılar, festivalın işinə uğurlar arzuladılar.

Sonra festival iştirakçıları bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və kompozisiyalara, kənd təsərrüfatı məhsulları sərgilərinə baxdılar. Xurma, alma, armud, qoz, fındıq və digər meyvələr, arıçılıq, ət, süd, tərəvəz məhsulları, "Azəryem Sənaye" MMC-nin, konserv zavodunun istehsal etdiyi müxtəlif çeşiddə məhsullar festival iştirakçılarının böyük marağına səbəb oldu. Məlumat verildi ki, Balakəndə 770 hektar xurma bağı var. 2023-cü ildə bağlardan 15 min 755 ton məhsul yığılıb. Hazırda rayonun xurma bağlarında məhsul yığımı davam edir. İndiyədək 9,3 min ton məhsul tədarük olunub. Bu ilin yanvar-sentyabr aylarında ölkəmizdən xarici bazarlara 37700 ton xurma ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,8 faiz çoxdur. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, bu ilin 9 ayında ixrac edilən xurmanın ümumi dəyəri 29,1 milyon dollar olub. Xurma satışından əldə olunan vəsait ötən ilin müvafiq dövrü ilə müqayisədə 75,4 faiz artıb.

Xurma festivalı mədəniyyət və istirahət parkının ərazisindəki meydanda konsert proqramı ilə davam etdi.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*






# Gənclik






● Uğura imza atanlar

# Qələbəmiz böyük sənət perspektivləri yaradır

**Parisdə "Carrousel du Louvre"da keçirilən sərgidə bir qrup azərbaycanlı rəssamla birgə əsərləri nümayiş olunan gənc rəssam Fəxriyyə Əliyeva həyəcanla heyranlarını seyr edirdi. Nəzərlər azərbaycanlı rəssamın yaratdığı qadın fiqurlarına yönəlmişdi...**



Onunla vədələşdiyimiz kimi, Parisdən birbaşa redaksiyamıza təşrif buyurmuşdu. Yüksək əhvali-ruhiyyədə idi. Söhbətə elə Paris səfəri ilə cığır açdıq. O, sevinclə Fransa səfərindən söz açdı:

- 18-20 oktyabrda Parisdə "Carrousel du Louvre"da keçirilən sərgidə iştirakım yaradıcılığımın mühüm bir mərhələsini təşkil edir. Bəri başdan qeyd edim ki, sərgidə iştirak etməyim bir rəssam kimi mənə göstərilən etimad idi. Əsərlərimlə ölkəmizi təmsil etmək xoşbəxtliyinin mənə də nəsib olduğunun qürurunu yaşayırdım. Eyni zamanda bunun məsuliyyətini də dərk edirdim. Onu da qeyd edim ki, mən tək deyildim. Mənimlə birlikdə Əsmər Nərimanbəyova, Ramina Səadətxan və Anar Hüseynzadə də bu sərgidə əsərləri ilə iştirak edirdilər.

Qadınların müxtəlif rol və vəziyyətlərini, eləcə də onların emosional ifadələrini əks etdirən kompozisiyalarla zənginləşdirilmiş işlərimi təqdim etmişdim. Bu əsərlər həmçinin qadınların tarixi və mədəni kontekstdəki yerini müəyyən edirdi. İlk andan hiss etdim ki, əsərlərim ziyarətçilərdə böyük maraq yaradaraq dərin düşüncə və müzakirələrə yol açır.

Dünyanın müxtəlif ölkələrindən gəlmiş rəssamların iştirak etdiyi bu möhtəşəm tədbirə çox insan gəlmişdi. Əsərlərimdən birinin dünyaca məşhur bir kolleksiyaçı tərəfindən satın alınması mənim beynəlxalq səviyyədə tanınma arzumun reallaşmasına mühüm bir töhfə oldu. Parisdəki bu sərgi yalnız yeni əlaqələr qurmaq deyil, həm də yaradıcılığımda yeni istiqamətlər açmaq imkanı yaratdı.

Öyrənirik ki, gənc rəssam Fəxriyyə Əliyeva hələ kiçik yaşlarından meylini rənglərə salıb. 1999-cu ildən etibarən Respublika İncəsənət Gimnaziyasında rəssamlıq ixtisasında təhsil almağa başlayıb. 2008-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Kollecinin Təsviri sənət fakültəsinin rəngkarlıq ixtisasına daxil olan Fəxriyyə Əliyeva 4 illik təhsildən sonra - 2012-2016-cı illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr pilləsini bitirib. 2016-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 2017-2019-cu illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının magistr pilləsini uğurla tamamlayıb.

Fəxriyyə xanım deyir ki, rəssamlıq mənim üçün peşə deyil, yaradıcılıq, həyat tərzimdir:

- Mən özümü bu rənglər dünyasında tapmışam. Hər rəngin öz mənası, fəlsəfəsi var. Rənglərdən yaşılı daha çox sevirəm. Bütün əsərlərimdə özümdən asılı olmayaraq, yaşıl rəngə üstünlük verməyə çalışıram. Yaşıl mənim arzularımın, xəyallarımın rəngidir. Yaşılda bir həyat var... Yaradıcılığımda daha çox güllər, natürmort, tarixi abidələr, milli motivlər, fiqurativ və mifoloji mövzulara üstünlük verirəm. Səyahət etmək, yeni məlumatlar toplamaq isə məni ilhamlandırır... İş prosesi zamanı musiqiyə qulaq asmağı və audiokitabları dinləməyi çox sevirəm...



Bir əsər üzərində işləyərkən tam olaraq ətraf mühitlə əlaqəmi kəsib fırçamla, öz rəngarəng dünyamla baş-başa qalıram. Hərdən mənə elə gəlir ki, sənətinə pərəstiş etdiyim, sevdiyim, rəng dünyasının sirli-sehrli uzmanları - Səttar Bəhlulzadə, Rasim Babayev, Nadir Əbdürrəhimov, Klod Mone, Henri Matis, Mixail Vrubel, Gustav Klimt, Anders Zorn, Jon Singer Sargent və Giovanni Boldini kənardan məni seyr edirlər. Onların yaratdıqları sənət yadigarları mənim yaradıcılığıma dərin təsir göstərir. Onları düşündükcə yaradıcılıq həvəsim daha da artır.

Fəxriyyə Əliyeva hazırda rəssamların binasındakı fərdi emalatxanasında fəaliyyət göstərir. O deyir ki, yaradıcı insan azad olmalıdır. Şükür ki, bu imkanım var. Bu mühit yaradıcılığımı irəlilətmək üçün mənə ilham verir və yeni ideyalar inkişaf etdirməyə imkan yaradır.

Fəxriyyə Əliyeva 2003-cü ildən bir çox sərgilərdə və yaradıcılıq layihələrində uğurla iştirak edib. 2006-cı ildə 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş sərgidə iştirak edib. 2008-ci ildə dövlət proqramı çərçivəsində "Xüsusi istedada malik olan uşaqların potensialının üzə çıxarılması üzrə" sərgidə iştirakına görə fəxri fərman alıb. 2011-2012-ci tədris ilində Azərbaycan Tələbə Gənclər Təşkilatının yaradıcılıq fəaliyyətində fərqləndiyinə görə sertifikatla təltif edilib. 2012-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Gənclər Gününə aid təşkil etdiyi sərgidə, elə həmin ildə Azərbaycan Gənclər Fondunun dəstəyi ilə təşkil olunmuş Gənclik Yaradıcılıq İnkişaf layihəsində və 2 fevral Azərbaycan Gənclər Günü münasibətilə keçirilən inteqrativ festivalda iştirak edib. 2013-cü ildə Xocalı faciəsinə aid sərgidə, 2014-cü ildə Heydər Əliyev Fondunun təşkil etdiyi və Heydər Əliyev Mərkəzində keçirilən Mixail Lermontovun 200 illiyinə həsr olunmuş sərgidə iştirak edərək xüsusi mükafata layiq görülüb.

2016-2017-ci illərdə "25 Gallery"nin təşkil etdiyi səyyar sərgilərdə, 2021-2023-cü illərdə Rəssamlar İttifaqının və Mədəniyyət Nazirliyinin təşkil etdiyi Qarabağa aid sərgilərdə iştirak edib.

2024-cü ildə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Azərbaycan Rəssamlar İttifaqının təşkilatçılığı ilə keçirilən "İçərişəhərim" adlı rəsm müsabiqəsində onun "Şah Sarayı" adlı əsəri birinci yerə layiq görülüb.

Fəxriyyə xanım deyir ki, yaradıcılığında Qarabağ mövzusu xüsusi yer tutur:

- Bir zamanlar Qarabağ mövzusuna dərdlərimizi ifadə etmək üçün müraciət edirdiksə, indi Qarabağ qürur yerimizin ünvanıdır. Əsgərlərimizin göstərdiyi qəhrəmanlıqlar sənət nümunələri yaratmaq üçün üzümüzə geniş imkanlar açıb.

Qəhrəman döyüşçülərimizin rəsmini çəkərkən nə qədər qürur yaşayıramsa, şəhidlərimizin portretlərini yaradanda gərginlik keçirirəm. Çalışıram ki, öz əsərlərimdə onların qələbəyə olan böyük inamlarını, bitib-tükənməyən vətən sevgilərini verə bilim.



Fəxriyyə xanım söyləyir ki, rəssamlıq arzunu, xəyalı rənglərlə canlandırmaq deməkdir: "Beynəlxalq sərgilərdə iştirak etmək, fərdi sərgilər təşkil etmək və yaradıcılığımı daha inkişaf etdirmək niyyətindəyəm. Hələ yolun başlanğıcındayam. Çalışacağam ki, bu rəngarəng, çoxçalarlı dünyada rəssam kimi iz qoya bilim. Bu da mənim arzumdur".

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● Vətənpərvərlər

# Gənclərin vətənə məhəbbət ruhunda yetişməsi üçün mühüm addımlar atılır



**Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması dövlət gənclər siyasətinin ən başlıca və əsas istiqamətlərindən birini təşkil edir. Gənclər cəmiyyətimizin aparıcı qüvvəsidir. Onlarla yerlərdə iş, əsasən, Azərbaycan Prezidenti İlham Əliyevin daim gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı çıxışlarında səsləndirdiyi dəyərli fikirlər, tövsiyə və müvafiq tapşırıqları əsasında aparılır.**



Böyüməkdə olan gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində görülən işlərin davamlılığını və dayanıqlılığını təmin etmək məqsədilə Azərbaycan Gənclər və İdman Nazirliyi tərəfindən bir sıra yeni layihələr həyata keçirilir. Bu layihələrin sırasında çağırış yaşlı gənclər üçün "Poliqon" gənclərin hərbi vətənpərvərlik düşərgəsinin təşkili xüsusi olaraq qeyd edilməlidir.

Gənclərin hərbi vətənpərvərlik tərbiyəsini daha da gücləndirmək məqsədilə 2022-cü ildən başlayaraq ölkəmizin müxtəlif bölgələrində fəaliyyət göstərən Olimpiya İdman komplekslərində müvafiq tədbirlər həyata keçirilir. Olimpiya İdman komplekslərində təşkil olunan "Poliqon" düşərgələrində respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinin tələbələri də iştirak edirlər.

Gənclər tərəfindən böyük maraqla qarşılanan və uğurla həyata keçirilən düşərgələrdə Ümummilli Lider Heydər Əliyevin bütün zamanlar üçün qiymətli olan siyasi irsi və azərbaycançılıq məfkurəsi, Zəfər tariximiz geniş təbliğ edilir. Düşərgələrdə gənclərin daha çox Vətənə məhəbbət, Azərbaycana ürəkdən bağlılıq, milli maraqlar, mənəvi dəyərləri qorumaq, dövlətçiliyə sədaqət, Azərbaycan xalqının birliyinə hörmət və qayğı ilə yanaşmaq ruhunda tərbiyə edilməsi daim önə çəkilir. Düşərgələrə Xüsusi Təyinatlı Qüvvələrin 44 günlük Vətən müharibəsinin od-alovundan keçmiş ehtiyatda olan hərbçiləri təlimçi kimi cəlb olunur. Hərbçilərin gənclərə təlim keçməsi onlara müsbət təsir göstərir.

Ötən il ərzində Qusar, Neftçala, Goranboy, Tərtər, Ağcabədi rayonlarında yerləşən Olimpiya İdman komplekslərində ölkəmizdə fəaliyyət göstərən universitetlərin tələbələrinin iştirakı ilə "Poliqon" hərbi vətənpərvərlik düşərgəsində maraqlı tədbirlər keçirilib. Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Milli Aviasiya Akademiyasının tələbələri üçün təşkil olunan düşərgələrdə gənclər üçün hərbi təlimlər, idman və hərbi-idman oyunları, intellektual oyunlar, ocaq ətrafında görüş, həmçinin "Məclisi-üns" bədii gecələri təşkil edilib.

Düşərgələri maraqlı və yaddaqalan edən məqamlardan biri də burada milli-mənəvi dəyərlərimizin, muğamlarımızın və xalq mahnılarımızın gənclərə təbliğ olunmasıdır. Layihə çərçivəsində bu işləri gənc və istedadlı muğam ifaçısı Yusif Cəfərbəyli yüksək peşəkarlıqla yerinə yetirir. Milli alətlərimiz tarda və kamanda Azərbaycan Milli Konservatoriyasının tələbələri Cavanşir və Əli Rüstəmbəyli qardaşlarının müşayiəti ilə Yusif Cəfərbəyli tərəfindən düşərgələrin açılış və bağlanış tədbirlərində və "Məclisi-üns" gecələrində musiqilərimiz səsləndirilib. Onu da qeyd edək ki, gənc müğənni Yusif Cəfərbəyli Azərbaycan Dövlət İqtisad Universitetində dünya iqtisadiyyatı ixtisası üzrə bakalavr, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində menecment (musiqi sahəsi üzrə) ixtisası üzrə magistr təhsili alıb. O, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən 2019-cu ildə "Tələbə Baharı" Tələbələrin XII Ümumrespublika Yaradıcılıq Festivalında "Muğam" musiqi nominasiyasında II yerə, 2020-ci ildə "Tələbə Baharı" Tələbələrin XIII Ümumrespublika Yaradıcılıq Festivalında "Muğam" musiqi nominasiyasında I yerə layiq görülmüşdü.

2024-cü il ərzində 8 rayonda "Poliqon" təlim düşərgələri təşkil edilib. Sonuncu düşərgə Goranboy rayonunda olub və həm iştirakçılar, həm də tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Növbəti düşərgə isə Neftçala rayonunda təşkil ediləcək. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində bundan sonra da mühüm və zəruri addımlar atılacaq. Görülən bu tədbirlər, keçirilən təlim düşərgələri gənclərimizin Vətənə sevgisini daha da artıracaq. Sabahımızın gəncləri daha vətənpərvər, daha cəsur olacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Xalq artisti Nurəddin Mehdixanlı ilə görüş keçirilib

**Azərbaycan Dövlət Pedaqoji Universiteti Tələbə Gənclər Təşkilatının (ADPU TGT) təşkilatçılığı ilə "Söz və sənətin ustadı" adlı görüş keçirilib. Görüşün qonağı Azərbaycan Respublikasının Xalq artisti, görkəmli teatr xadimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aparıcı səhnə ustası, "Şöhrət" ordeni laureatı Nurəddin Mehdixanlı olub.**



Xalq artisti N.Mehdixanlı tələbələrə səhnə fəaliyyətindən, yaratdığı obrazlar, sənət yolunda qarşılaşdığı çətinliklər haqqında danışıb, gəncləri öz peşələrini sevməyə və qarşılarına çıxacaq maneələrə baxmayaraq, məqsədlərinə doğru əzmlə, qətiyyətlə irəliləməyə çağırıb. Aktyor tələbələri milli dəyərlərə sadiq, vətənpərvər vətəndaşlar kimi görmək arzusunu dilə gətirib.

Görüşün davamında tələbələr N.Mehdixanlının müəllifi olduğu şeir və yazılardan nümunələr səsləndiriblər.

Gənclərin böyük marağına səbəb olan görüş tələbələrin sənətkara ünvanladığı suallar ətrafında səmimi müzakirələrlə yadda qalıb.

● İstedadlar

# "Muğam bizə daha doğmadır"

## Rəvan Qaçayevin ən böyük arzusu Məcnun obrazını canlandırmaqdır

*"Heydər Əliyev Fondunun dəstəyi ilə 2005-ci ildən keçirilən Muğam Televiziya Müsabiqəsi zamanı istedadlı gənc xanəndələr kəşf olunur. Bu müsabiqəyə qatılan ifaçılar ustadların qarşısında çıxış edir, özlərini inkişaf etdirmək və tanıtdırmaq şansı qazanırlar. Sonra da həmin gənclər fəaliyyətlərini muğam sahəsində davam etdirirlər. Bu müsabiqə bizlərə yeni imkanlar yaratdı, həm ölkədə tanındıq, həm də gələcək uğurlarımıza bir vəsilə oldu. Fondun kollektivinə, şəxsən mədəniyyətin, sənətin hamisi, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya, müsabiqənin təşkilində zəhmət çəkənlərə sonsuz təşəkkürümüzü bildiririk!"*

VII Muğam Televiziya Müsabiqəsinin qaliblərindən biri, "Səs Azərbaycan. Doğma nəğmələr" müsabiqəsinin finalçısı, istedadlı xanəndə Rəvan Qaçayev bizimlə söhbətinə yaradıcı gəncləri daim diqqətdə saxlayan dövlətimizin rəhbərliyinə minnətdarlıqla başlayır. İstedadlı sənətçi musiqinin müxtəlif janrlarında - muğam, aşıq mahnıları və estradada sevilən ifalar təqdim edib. Hansına daha çox üstünlük verdiyi və gələcəkdə həmin istiqamətdə püxtələşəcəyi sualına isə cavab verməkdə çətinlik çəkir: "Sözün düzü, bu sualın cavabını hələ tam dəqiqləşdirə bilməmişəm. Hər üç janrda özümü sınamışam və düşünürəm ki, uğurlu alınıb. Seçimdə həmişə tərəddüd etsəm də, muğam bizlərə daha doğmadır. Muğam bəşərin bütün emosiyalarını ifadə edir. Muğamda bütün duyğular əks olunub. Sakitlik, həyəcan, sevinc və digər hissləri özündə birləşdirən muğamın gözəlliklərini saymaqla bitməz. Mənə görə muğam başdan-başa insanın yaşantılarını əks etdirir".



Rəvan əslən qarabağlıdır, Şamaxıda musiqiçi ailəsində dünyaya göz açıb. Bu sənətə marağı da elə ailədə yaranıb. Atası qarmon ifaçısı olub. Qohumları və yaxınları arasında tanınmış musiqiçilər, aşıqlar var. Onlardan Aşıq Mahmud Ələsgəroğlu, Aşıq Əvəz Hacıyev, Abgül Mirzəliyev, Camal Dadaşov, Aşıq Vüqar Mahmudoğlu və başqalarının adını çəkir. İlk müəllimi də atasıdır: "Bir gün evdə zümzümə edən zaman atam dinlədi və həmin gündən bəri daim mənimlə məşğul oldu. Özümün də musiqiyə həvəsim çox idi. Əvvəlcə kiçikhəcmli muğamları, dərslik üçün başlanğıc sayılan "Bayatı-kürd" muğamını öyrənməyə başladım. Sonra V sinifdə təhsil alanda çox gözəl xanəndə, dəyərli pedaqoq Sabir Abdullayevlə birlikdə hazırlaşdıq. Onun sayəsində artıq üç muğamı tam formada öyrənmişdim. Yaşım bir az artdıqdan sonra Bülbül adına Orta İxtisas Musiqi Məktəbində Əməkdar müəllim Qəzənfər Abbasovun dərslərinə qatıldım. Musiqi həyatım da elə məhz buradan başladı".

R.Qaçayev kiçik yaşlarından bir çox ölkədaxili və beynəlxalq müsabiqələrdə iştirak edib. Müsabiqələrin birində isə çox maraqlı bir hadisə ilə qarşılaşıb: "2010-cu ildə xarici ölkələrdən birinə gedəndə elə oldu ki, tədbirimiz kilsədə keçirildi. "Buta" adlı layihə çərçivəsində tədbirdə mənə yaxınlaşıb azanı bilib-bilmədiyimi soruşdular. Bizdə ailədə hər kəs dinə bağlı olduğu üçün mən də azanı mənimsəmişdim. Xahiş etdilər ki, azan oxuyum. Son dərəcə həvəslə oxudum və hər kəs tərəfindən böyük maraqla qarşılandı. Tədbirdə vurğulandı ki, belə bir hadisə tarixdə ilk dəfə yaşanır. Həmin tədbirdə Xalq artisti Elşən Mansurov, Əməkdar artistlər Ehtiram Hüseynov, Arzu Əliyeva və Növrəsli qardaşları da iştirak edirdilər".

Muğam müsabiqələri zamanı da maraqlı hadisələr çox olub: "Mənim üçün ən yaddaqalan isə müsabiqənin finala keçid həftəsində yaşadığım an idi. Həmin gün çox həyəcanlı idim və səhnəyə çıxıb "Dəşti" muğamını oxudum. Bu, uğurlu ifa oldu. "Dəşti"ni Azərbaycanda dəsgah şəklinə salan ustad Əlibaba Məmmədov bunu yüksək qiymətləndirdi. Tamaşaçıların alqışları, münsiflər heyətinin xoş sözləri hələ də qulaqlarımdadır. Deyə bilərəm ki, həmin gün mənim sənət həyatımda unudulmayacaq tarixi an yaşandı".

Rəvan lap kiçik yaşlarından evdə atasının məsləhəti ilə Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Ağabala Abdullayev, Rübabə Muradova, Hacıbaba Hüseynov, Qədir Rüstəmov, Alim Qasımov, Şövkət Ələkbərova kimi sənətkarların lent yazılarını dinləyib. Bu ölməz sənətkarlarımızın məlahətli səsləri uşaq qəlbində yeni ovqat yaradıb, bir növ ruhunun qidasına çevrilib. Ən böyük arzusu isə Opera və Balet Teatrında hansısa bir rolu oynamaqdır: "Fikrimcə, rolun böyüyü, kiçiyi olmur. Bir obrazı səhnədə peşəkar formada nümayiş etdirmək daha önəmlidir. Təbii ki, arzum səhnədə Məcnun rolunu canlandırmaqdır. Düşünürəm ki, özümü düzgün istiqamətdə formalaşdırmaq üçün daim çalışmalıyam". Gənc və istedadlı xanəndəyə sənətdə daha böyük zirvələrin fəthini arzulayırıq!

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

◆ Qarabağ söhbətləri



# İşğalın və Zəfərin fotosalnaməçisi

## Dünyaşöhrətli fotoqraf Reza Deqatinin xalqımızın faciələrini və qürurunu özündə əks etdirən "Azərbaycan albomu"

**Dünyaşöhrətli fotoqraf Reza Deqatinin 72 illik həyatının böyük bir hissəsi Azərbaycanla birbaşa bağlıdır. İndi geriyə baxanda Reza Deqatinin məhz Azərbaycanın ən çətin, köməksiz anlarında ölkəmizə gəlib xalqımızın düçar olduğu zillətləri çəkib dünyaya göstərməsinin təsadüf, ya zərurətdən yarandığını demək çətin olsa da, bircə o dəqiqdir ki, bu həm də onun Azərbaycana, azərbaycanlı soydaşlarına olan hədsiz sevgisinin təzahürü idi...**

### Ömrün Azərbaycan səhifəsi

- Hələ sovet dönəmində Parisdə UNESCO-nun hər dövlətdən səfirliyi var idi. Sovetin səfirliyində Ramiz Abutalıbov (tanınmış Azərbaycan diplomatı) adlı bir azərbaycanlı işləyirdi. Haqqımda eşitdiyi üçün o məni burada axtarıb tapmışdı. O zaman Parisdə azərbaycanlı az idi. Biz üç nəfər - Təbrizdən olan Əyyub və Davud adlı iki rəssam qardaş və mən dost idik. Həmişə bir yerə yığışıb məclislər qurardıq. Ramiz də yanımıza gələrdi, söhbət edərdik, milli mahnılarımızı oxuyardıq. Yəni milli ruhda çox xoş məclislərimiz olardı. Bir dəfə o gəlib dedi ki, "Bakıdan bir nəfər gəlib, "Vətən" cəmiyyətinin sədri Elçin Əfəndiyev (yazıçı) - o, sizinlə görüşmək istəyir. Elçinlə görüşəndə bizi Bakıya dəvət etmək istəyini bildirdi. Görkəmli dramaturq M.F.Axundzadənin 175 illik yubileyi idi və buna görə bizi də xaricdən Azərbaycana dəvət edə bilmişdilər. Qardaşlar da, mən də bu təklifə çox sevindik. Uşaqlığımızdan böyüklərimizdən Bakı haqqında çox eşitmişdik deyə, onun haqqında təsəvvürlərimiz çox möhtəşəm idi, düşünürdük ki, o, dünyanın ən gözəl şəhəridir. Amma təyyarədən düşüb Bakının sınıq-sökük ikimərtəbəli hava limanının binasına daxil olanda, yerdəki sürtülüb rəngi getmiş xalçaya, sınıq-sökük stullara baxanda, əvvəlcə elə bildim başqa şəhərə gəlmişik. Çönüb Elçinə dedim ki, "bizi niyə bura gətirmisiniz, Bakının hava limanına aparmamısınız?" O isə buranın elə Bakının aeroportu olduğunu söylədi...

Hava limanından çıxıb şəhərə üz tutanda da gördük ki, buradakı bütün avtomobillər kör-köhnə, yollar isə bərbad gündədir. Yolların keçdiyi ərazilər neftdən qapqaraydı, mazut iyi hər yanı bürümüşdü. Bakının bu cür olduğuna heç vaxt inanmazdım. Bu mənə elə pis təsir etdi ki, ağlamağa başladım... 1987-ci ildə ömrümdə ilk dəfə Azərbaycanla, Bakı ilə bu cür tanış oldum...

Bizi "İnturist" mehmanxanasında yerləşdirdilər. Axşam isə İçərişəhərdə Karvansarada şərəfimizə böyük ziyafət verdilər. Orada Bəxtiyar Vahabzadə, Fikrət Qoca, Anar, Xəyyam Mirzəzadə, Fərhad Xəlilov və başqa bir neçə ziyalı ilə tanış olub söhbət etdik. Əsasən də Azərbaycanın, Bakının nə üçün bu cür olmasından danışdıq. Həmin səfər zamanı 10-15 gün Bakıda qaldıq, Şəkiyə də getdik.

O zamanlardan yaddaşıma həkk olunan ən təsirli mənzərələrdən biri isə o idi ki, hər gün səhər tezdən hoteldən çıxanda görürdük ki, qapının ağzına yüzdən çox adam yığılıb. Yəqin onlar televiziyadan, qəzetlərdən xəbər tutmuşdular ki, təbrizlilər gəlib. Təsəvvür edin ki, gözüyaşlı olan bu insanlar yaxınlaşıb əlləri ilə bizə toxunurdular, onlara elə gəlirdi ki, biz gerçək təbrizli deyilik. Çünki hələ də bəziləri inanmırdı ki, Cənubi Azərbaycandan bura insanlar gələr... Çoxları gəlib bizdən Arazın o tayında qalan qohumlarını, əmisini, dayısını, qardaşını, bacısını soruşurdu... (Gözləri dolur)

### Qara Yanvar




- Fransaya qayıtsaq da, o vaxtdan ürəyimiz Azərbaycanda qalmışdı. Üç ildən sonra - 1990-cı il yanvarın 21-də Ramiz mənə zəng vurub dedi ki: "Reza, xəbər gəlib ki, dünən gecə Bakıda faciə baş verib. Sovet hökuməti də bütün jurnalistlərin yolunu bağlayıb ki, dünyaya xəbər sızmasın. Sən nə edə bilərsən?" Dedim ki, Bakıya gələcəm. Əslində, o vaxt BMT-nin işçisi idim və onların icazəsi olmadan heç hara gedə bilməzdim, amma azərbaycanlı qanı məni Bakıya çəkirdi...

Tez Parisdəki sovet səfirliyinə gedib operada balerinaların fotolarını çəkmək üçün viza alıb Moskvaya gəldim. Amma bir əmma var idi ki, bu şəhərdən kənara çıxa bilməzdim. Buna görə Moskvadakı Azərbaycan nümayəndəliyinə yollandım. Gördüm ki, rusların xüsusi təyinatlıları nümayəndəliyin qapısını sındırıblar, otaqlar darmadağındır, sənədlər hamısı cırılıb yerə tökülüb. Nümayəndəliyə xeyli azərbaycanlı yığışıb Bakıdakı hadisələri təşvişlə müzakirə edir.

Bakıya təyyarəyə bilet almaq üçün viza lazım idi. Maşın isə bir həftəyə ancaq gedərdi. Sürət qatarına da həmçinin pasport və bilet tələb olunurdu. Amma başqa bir qatar marşrutu da var idi ki, o, kəndbəkənd, şəhərbəşəhər dolaşaraq 48 saata Bakıya çatırdı və sadəcə bilet göstərmək lazım idi. Elə nümayəndəlikdəki azərbaycanlı tələbələrlə məsləhətləşib bu marşrutu seçdik. Tələbələrdən iki-üç nəfər dedi ki, biz də səninlə gedirik, sadəcə bələdçi gəlib yoxlayanda gərək gizlənəydim.

Həmin vaxt Moskvada bizdən başqa 40 nəfərə yaxın xarici jurnalist var idi. Hamımız "Rossiya" hotelində qalırdıq. Onlar da istəyirdilər Bakıya getsinlər. Bizə demişdilər ki, "səhər saat 9-da bir yerə yığışın, hamınızı təyyarə ilə Bakıya aparacağıq". Jurnalistlər bu xəbəri eşidib çox sevindilər. Amma neçə illər Əfqanıstanda qazandığım təcrübədən bilirdim ki, sovet hökuməti heç zaman imkan verməz ki, jurnalistlər gedib Bakıda törədilən faciəni çəksinlər. Düşündüm ki, burada nəsə oyun var. Həmin səhər xəstələndiyimi bəhanə edib Bakıya getməyəcəyimi bildirdim. Beləliklə, jurnalistlər təyyarə, mən isə qatarla Azərbaycana sarı yola düşdüm.

Düz 48 saatdan sonra - yanvarın 24-də gecə Bakıya çatdıq (mənimlə bərabər bir türk videooperator da Bakıya gəlmişdi), artıq komendant saatı idi. Qatarın pəncərəsindən baxdıq ki, silahlı rus "soldat"ları sıra ilə düzülüb qatardan düşənləri bir-bir yoxlayırlar. Əvvəldən bilirdik ki, Bakıda bizi qarşılayacaqlar. Çünki hər dəfə qatar stansiyalarda dayananda yanımızdakı tələbələr zəng vurub oradakı vəziyyəti öyrənirdilər. Bakıda da bizi "soldat"ların gözündən yayındırıb qatardan necə düşürməklə bağlı plan hazırlamışdılar. Bir də gördük ki, müasir geyimli iki gənc qız əllərində gül dəstəsi bizə tərəf gəlirlər. Onlar dedilər ki, "fotoaparatları və videokameranı qoyun burada, onları sonra gətirəcəyik, özünüzsə bizimlə gəlin". Qızların hərəsi birimizin qoluna girdilər ki, guya nişanlılarımızdırlar. "Soldat"lar da buna görə bizi yoxlamadan buraxdılar.

Köhnə bir avtomobillə Bakının mərkəzinə gəldik. Binalardan birindəki mənzilə xeyli adam yığışmışdı. Onlar burada baş verən faciə ilə bağlı məlumat verdilər. Axşamdan qurulan plana əsasən, səhər tezdən "Lada" maşınının arxasındakı oturacağın qarşısında yerə uzandım və üzərimə mələfə örtdülər. Oturacaqda isə iki nəfər oturdu. Başladıq küçələrlə getməyə, elə ki görürdülər yolda nəzarət zəifdir, işarə edirdilər, tez qalxıb yoldakı tankların, rus əsgərlərinin fotolarını çəkirdim. 3 gün Bakını bu formada gəzib fotolar çəkdim. Morqa getdim. Adamlar əllərində fotolar gəlib meyitlərin arasından yaxınlarını gəzirdilər... Xəstəxanaya da getdim. Yaralı insanları gördüm... Çox dəhşətli mənzərələr idi...

Sonra xəbər gəldi ki, yaralılardan bir neçəsi vəfat edib, minlərlə adam Şəhidlər xiyabanına onları dəfn etməyə yığışacaq. Həmin dəfnetmə mərasimindən də xeyli foto çəkdim.

Daha qayıtmaq zamanı yetişmişdi və adımıza düzəldilən saxta pasportlar vasitəsilə təyyarəyə bileti alıb Moskvaya qayıtdıq. Amma fotoaparatlarımızı və videokameranı iki rus qız özləri ilə bərabər gətirib sonradan bizə çatdırdılar.

Səhər tezdən Parisə uçduq və cəmi bir neçə saatdan sonra artıq dünya 1990-cı il yanvarın 20-də Bakıda törədilən qırğınlardan xəbər tutdu. Türk videooperatorun çəkdiyi videolar 18 ölkənin televiziyasında göstərildi. Mənim fotolarım isə 20 min jurnalda dərc edildi.

Əslində, Parisə çatmamışdan əvvəl həmin türk dostuma deyirdim ki, "biz çox gec çatmışıq. Yəqin artıq bütün dünya bu hadisələri bilir". Axı biz görmüşdük ki, Moskvadan



30-40 jurnalist təyyarə ilə Bakıya yola salınıb. Ancaq kimdən soruşduqsa, Bakıda nə olduğu barədə heç bir xəbərinin olmadığını dedi. Sonradan öyrəndim ki, demə, həmin jurnalistləri Bakı əvəzinə başqa bir yerə aparıb dumanlı ərazidə fırladıblar. Sonra onlara dumanlı havaya görə Bakıya gedə bilməyəcəklərini deyiblər. Beləliklə, jurnalistləri aldadıblar və İrəvan aeroportuna aparıblar. Jurnalistlər hava limanında görüblər ki, 7-8 nəfər yaşlı erməni qadını üzlərini cıra-cıra onlara sarı gəlirlər. Qışqırışırlar ki, "azərbaycanlılar bizi qovdular, yaxınlarımızı öldürdülər..." Jurnalistlər də onların fotolarını çəkiblər. Demə, əvvəldən plan qurublar ki, jurnalistlər gələndə erməni qadınlar onlara yaxınlaşıb bu cür yalanlar danışsınlar. Dünya da görsün ki, Bakıda heç nə olmayıb, guya azərbaycanlılar erməniləri öldürüblər...

Bizim o cür çətinliklərlə Bakıya gedib əsl həqiqətləri çəkməyimiz isə bu yalanların, saxtakarlığın qarşısını aldı.

(Əvvəli qəzetimizin 29 oktyabr nömrəsində)

### Xocalının qan yaddaşı

Üzərindən iki il keçdikdən sonra, 1992-ci ilin fevralında isə fotojurnalist Reza Deqati Ramiz Abutalıbovdan Azərbaycanla bağlı daha bir qara xəbər alır. Öyrənir ki, ermənilər Xocalıda əhaliyə divan tutublar, qətliam törədiblər.

- Əslində, bu xəbərə qədər də planlaşdırırdım ki, Qarabağa gedim. Çünki neçə il idi ki, orada müharibə gedirdi, amma başqa yerlərdə işlədiyim üçün heç cür gələ bilməmişdim. Bunu eşidəndə təyyarə ilə dərhal İstanbula, oradan da Bakıya gəldim. Ozamankı "Azərbaycan" hotelində dünyanın müxtəlif ölkələrindən nümayəndələr, jurnalistlər və Qarabağa yardım etmək üçün müxtəlif təşkilatların əməkdaşları toplanmışdılar. Hoteldə Fransadan yenicə gəlmiş ikisi qadın, ikisi kişi olan həkimlər də vardı. Onların "Sərhədsiz həkimlər" təşkilatının xətti ilə Qarabağa, amma azərbaycanlılara deyil, ermənilərə bir ton dərman yardımı aparacaqlarını öyrəndim. Özümü fransız kimi təqdim edərək, onlarla birgə getməyimi xahiş etdim. Həkimlər mənə Stepanakertin (Xankəndi) ətrafında xeyli erməninin öldürüldüyünü dedilər. İki gün əvvəl Fransadan Azərbaycana gəlmişdim və indi bunların dedikləri eyni sözləri oradakı jurnallarda, qəzetlərdə yazırdılar, Xocalının adı belə çəkilmirdi. Qarabağda baş verən faciələr guya azərbaycanlıların erməniləri öldürməsi kimi təqdim olunurdu. Yəni həmin fransız həkimlər, əslində, bilmirdilər ki, bu, yalandır və ermənilərə yardım aparmaq adıyla Bakıya gəlmişdilər. Onlarla getmək istəyimi çox həvəslə qəbul etdilər ki, ermənilərə dərman paylayanda fotolarını da çəkərəm. Beləliklə, məni də fransız nümayəndə heyətinin tərkibinə yazdılar. Haradasa martın 2-də biz dərman yüklənmiş iki "KamAZ"la Qarabağa yola düşdük. Gecə Ağdama çatdıq və orada bir evə düşdük. Fransızlar düşünürdülər ki, səhəri Xankəndiyə getsinlər, amma məlum oldu ki, yol bağlıdır. Ermənilərlə danışıqlar aparılmalıydı ki, dərmanları qəbul eləsinlər. Bu isə haradasa 1-2 gün çəkəcəkdi. Səhəri gün onları evdə qoyub şəhərə çıxdım ki, görüm nə xəbər var. Baxdım ki, Xocalıda törədilən erməni vəhşiliyindən canını qurtaranlar Ağdam Cümə məscidinin qarşısına toplaşıblar. İlahi, elə bil məhşər yeri idi... Sadəcə buradakı insanların üzlərinə baxmaq belə kifayət edirdi anlayasan ki, onlar dəhşət yaşayıblar. Qocalar, qadınlar, uşaqlar ağlayır, qışqırır, üz-gözlərini cırır, dizlərinə döyürdülər... Ah-nalədən, fəğandan qulaq tutulurdu... Balalarını haraylayan ata-anaların, valideynlərini axtaran övladların fəğanı ərşə dirənirdi... Gümanları kəsilən, əlləri yerdən də, göydən də üzülən xocalılıların vəziyyəti o qədər faciəvi idi ki, indi onların yeganə arzuları heç olmazsa doğmalarının meyitlərini tapmaq idi...

Orada Milli Qəhrəman Allahverdi Bağırovla tanış oldum, Xocalıda ermənilərin törətdikləri soyqırımla bağlı hər şeyi ətraflı öyrəndim. Axşam evə qayıdıb baş verənləri fransızlara danışdım. Onlar duruxdular, bu xəbərə inanmaq istəmədilər. Dedim ki, "istəyirsiniz sabah gedək özünüz hər şeyi gözlərinizlə görün".

Həmin vaxt Beynəlxalq Qırmızı Xaç Komitəsi ermənilərlə danışıq aparırdı və azərbaycanlıların meyitlərini geri qaytarırdılar. Fransızlar gəlib meyitləri görəndə çaşdılar ki, "axı bizə deyiblər ki, erməniləri qətl ediblər. Bunlar isə azərbaycanlıların meyitləridir. Bu necə ola bilər?"

Gecəsi Qırmızı Xaç Cəmiyyətindən olan isveçrəlini, hansı ki o, maşınla gedib xocalılıların meyitlərini gətirirdi, qaldığımız evə şam etməyə dəvət etdim. Məqsədim onun gördüyü əsl gerçəklərin fransız həkimlərə danışması idi. İsveçrəli, əslində, ermənilərin azərbaycanlıları qətl etdiyini danışdı. Bu zaman həkimlər dedilər ki, Fransadakı rəhbərlərinə zəng vurub azərbaycanlıların öldürüldüyünü, yaralı olduqlarını və onlara dərman lazım olduğunu söyləyiblər. Fransadan isə cavab veriblər ki, "yox, necə olur-olsun dərmanları ermənilərə çatdırın".

Həmin günlərin birində Allahverdi Bağırovla birgə əsirlərin dəyişdirilməsinin həyata keçirildiyi yerə getdim. O mənə dedi ki, azərbaycanca danışma, qoy səni fransız bilsinlər. Gördüm uzaqdan azərbaycanlı əsirləri gətirirlər, onların fotolarını çəkdim. Yolda xəndək qazmışdılar ki, maşınlar gedə bilməsin. Həmin xəndəkdə bir neçə erməni əsgəri oturmuşdu. Onların arasında təmiz fransızca danışan bir erməni döyüşçü də var idi. O burada Fransadan, Livandan və başqa ölkələrdən gələn yüzlərlə erməni olduğunu dedi və əlavə etdi ki, Livandakı bütün snayperçi ermənilər də buradadır, əksəriyyəti də qadınlardır. Həmin vaxt sərxoş erməni döyüşçülərindən biri əlini cibinə salıb bir çay qaşığı çıxardı və gözümün qabağında oynatmağa başladı. Fransızca danışan erməni isə dedi ki, "bunlar azərbaycanlı görəndə gözlərini çıxarırlar, bunu demək istəyir". Ətim ürpəndi, elə bildim ki, o mənim də azərbaycanlı olduğumdan duyuq düşüb öldürmək istəyir. Fransa ermənisi mənə deyirdi ki: "Sən nə üçün o tərəfdəsən, azərbaycanlılar səni öldürəcəklər, onlar vəhşidirlər, gəl biz tərəfə". Gördüm ki, onların beyinlərini azərbaycanlılara qarşı necə doldurublarsa, hamısı bu cür düşünür.



Səhəri gün fransız həkimlər mənimlə birgə Cümə məscidinə gəldilər. Biz orada olanda daha yeddi meyit gətirib həyətdə yerə düzdülər. Xocalılılar da baxırdılar ki, öz yaxınlarının meyitlərini onların içərisindən tapsınlar. Gördüm ki, meyitlərdən birinin gözləri yoxdur. Fransız həkim dedi ki, onun gözlərini diri ikən çıxarıblar. Ona görə bu qədər qan axıb. Orada çox dəhşətli fotolar çəkdim...

Bir neçə gündən sonra fransız həkimlər gəlib dedilər ki, Fransa bizə icazə vermədi, amma biz öz vicdanımızla bir ton dərmanı Ağdam xəstəxanasına veririk. O vaxt bu dərmanların yaralılara böyük köməyi dəydi.

### Şuşada son görüş

- Bilirsiniz, həmin zamanlar fotolar lentlə çəkilirdi deyə, ondan çox ehtiyatla istifadə edirdim ki, tükənməsin. Həmin ərəfədə gedib Xurşidbanu Natəvanın Ağdamdakı məzarından yalnız iki foto çəkmişdim. Eyni zamanda şəhərin girişindəki ana abidəsinin bir fotosunu lentə almışdım. Daha çox insanların faciəsini çəkməyə üstünlük verdiyim üçün şəhərin özünü, təbiətinin gözəlliyini çəkmirdim.

Aprel ayında isə müharibənin getdiyi ərazilərə yollandım, sonra Şuşaya üz tutdum. Neçə gün yol getdim, Azərbaycan döyüşçüləri ilə görüşdüm. O zamana qədər 12 il idi ki, dünyada gedən müharibələri çəkirdim, amma ovaxtkı Azərbaycan əsgərləri kimi heç yerdə əsgər görməmişdim. Nə düz əməlli formaları vardı, nə silahları, nə də döyüş təcrübələri... Hətta eləsi vardı heç silah atmağı da bacarmırdı. Amma milli ruhları, vətən sevgiləri çox yüksək idi...

Şuşaya çatmağıma az qalmış dedilər ki, yol bağlıdır, piyada getmək lazımdır. Piyadaları isə çox vaxt erməni snayperçilər vururdular. Ancaq dedim ki, bura kimi gəlmişəm, daha geri qayıtmaq olmaz. Yolda düz üç dəfə snayper gülləsinə tuş gəldim, sadəcə santimetrlərlə mənə dəyməkdən yayındı. Birtəhər təhlükələri adlayıb Şuşaya çatdım. Əvvəlcə mənim timsalımda xarici şəxsin Şuşaya gəlişi oradakılara çox qəribə və şübhəli göründü. İcra hakimiyyətinə gedib Nizami Bəhmənovla (Şuşanın sabiq icra başçısı) görüşdüm, gəlişimin məqsədini dedim. Beləcə, 10-15 gün orada qaldım və gördüm ki, Şuşada da peşəkar hərbçi yoxdur. Döyüşçülərdən biri sazçalandır, biri müğənnidir, biri şairdir, biri idman müəllimidir... onlar hamısı könüllü döyüşə gəlmişdilər.

Şuşadan ayrılanda Ramiz Qəmbərov (Milli Qəhrəman) və Rasim Yusifov adlı bir döyüşçü ilə görüşdüm. Onlara dedim ki, "gəlin qısa müddətlik də olsa müharibəni unudaq. Mən gedirəm, bəlkə yolda snayperə tuş gəldim, siz də burada qalırsınız, bilmək olmaz nə olacaq... Son dəfə bir dostluq çayı içək..."



Parisə çatan kimi Xocalıda soyqırımı ilə üzləşən insanların fotolarını dünyaya yaydım, gördülər ki, əslində, Xocalıda nə baş verib. Eyni zamanda fransız jurnal və qəzetləri də həmin fotoları dərc etməyə məcbur oldular.

Ermənilər o zaman mənə çox hücumlar, təzyiqlər etdilər ki, "yox, bunlar yalandır, Xocalını azərbaycanlılar özləri törədib". Amma fakt göz qabağında idi.

Ermənilər sərgilərimə hücum çəkib fotoları cırırdılar, internet çıxandan sonra isə oradakı fotoları silirdilər. Haqqımda yazılar yazırdılar ki, "Reza Deqati qərəzlidir". Ancaq fransalılar məni yaxşı tanıdıqları üçün ermənilərə cavab yazırdılar ki, "biz Rezanı tanıyırıq və ona inanırıq. Dediyiniz sözlər ona yapışmır. Əgər o nəyi isə deyirsə, çəkib göstərirsə, demək, bu həqiqətdir".

Ümumiyyətlə, ermənilər bu günə qədər də mənə iki cür təzyiq edirlər. Birincisi, sərgilərimdəki fotoları cırırlar, banerlər gətirib göstərirlər. Bəllidir ki, yaşayışımı sərgilərdən, kitablarımdan aldığım məvacib, qonorar vasitəsilə təmin edirəm. Ancaq onlar biləndə ki, haradasa sərgi edəcəm, qalereyaya, zallara basqın edirlər. Deyirlər ki, sərgi olsa, gəlib buranı dağıdacaqlar. Allah bilir ki, onlar bu 30 ildə mənə milyonlarla dollar məbləğində maddi zərər vurublar. Amma heç zaman haqq sözümdən dönməmişəm, bundan sonra da dönmərəm.




İndiyə qədər də sərgilərimdə xocalılıların fotolarını sərgiləyirəm. Bununla fotojurnalistlikdən əlavə insanlıq borcumu yerinə yetirdiyimi düşünürəm. Axı həmin insanların faciələrini gözlərimlə görmüşəm, onlar öz dərdlərini mənə danışıblar, bunları dünyaya çatdırmasam, böyük haqsızlıq, ədalətsizlik etmiş olaram.

### Azərbaycan əsgərinin qəhrəman obrazı

- İkinci Qarabağ müharibəsi başlayandan 10 gün sonra - oktyabrın 6-da Azərbaycana gəldim. Ağcabədi, Ağdam, Füzuli istiqamətinə getdim, hərbçilərlə görüşdüm və budəfəki Azərbaycan döyüşçüsünün 30 il əvvəlkindən qat-qat fərqli olduğunu gördüm. Milli ruhları eyni olsa da, İkinci Qarabağ müharibəsinin azərbaycanlı savaşçılarının yüksək səviyyəli hərbi hazırlığa malik peşəkar döyüşçülər olduğuna şahidlik etdim. Vətən müharibəsində qorxu bilmədən irəliyə can atan, cəsarətlə ölümə gedən əsgərlərin fotosunu çəkdim. O döyüşçülər Qarabağın, xüsusilə Şuşanın mürəkkəb relyefinə baxmayaraq, dərin dərələri, sıldırımlı qayaları bir həmlədə aşaraq vətənlərini işğaldan azad etdilər, misilsiz qəhrəmanlıq göstərərək, öz zəfər tarixlərini yazdılar.

Torpaqlar azad edildikcə, addım-addım döyüşçülərin arxasınca gedib o ərazilərin erməni vandallığına tuş gəlməsini fotolentə köçürürdüm. Ermənilər 30 il işğal altında saxladıqları Azərbaycan ərazilərində evləri, kəndləri, şəhərləri demək olar yer üzündən siliblər. Məzarlıqları elə hala salıblar ki, dünya tarixində buna bənzər vəhşilik heç yerdə olmayıb. Cəsədlərin qızıl dişlərini çıxarmaq üçün bütün qəbirləri bir-bir qazıb, insan sümüklərini ətrafa səpələyiblər. Bu, vəhşiliyin son həddidir.

40 ildir müstəqil jurnalist kimi çalışıram. Haradasa hadisə olanda zəng vurub agentliyə, ya jurnallara bildirirdim ki, "o yerlərə çəkiliş etməyə gedirəm". Onlar da mənim bilet xərcimi ödəyirdilər, avans verirdilər, ezamiyyət xərclərimi qarşılayırdılar. Hətta elə olurdu ki, iki jurnal arasında mübahisə düşürdü ki, fotolarımı məhz ona verim. Amma İkinci Qarabağ müharibəsində həmin agentlik və jurnallara zəng vurub deyəndə ki, "gedirəm Azərbaycana", cavab birmənalı olurdu ki, "yox, Azərbaycan bizə lazım deyil. Əgər Ermənistana getsən, bütün xərclərini qarşılayarıq". Onların "yox" deməsi, məni daha da inada saldı və qərara gəldim ki, "mütləq Azərbaycana gedib əsl həqiqətin necə olduğunu çəkib dünyaya göstərəcəm". Müharibə zamanı Ermənistan tərəfdə 80 nəfər xarici fotoqraf var idi, amma mən çəkənlərin heç biri onlarda yox idi. Həmin fotoqraflar mediaya bir-iki qurama foto vermişdilər ki, guya azərbaycanlılar mülki erməniləri öldürüblər. Ancaq gerçəkliyi əks etdirən fotolarımı sosial mediamda paylaşanda dünyada böyük əks-səda doğurdu. Məsələn, ermənilər cəbhə xəttindən xeyli uzaqda yerləşən Bərdəyə raket atandan çox qısa vaxtda orada oldum və törədilən bu terroru çəkib dünyaya göstərdim...

Bu günə qədər də Qarabağ və Şərqi Zəngəzurla bağlı fotolar çəkirəm. İşğaldan azad edilmiş torpaqlar minalardan təmizləndikcə dərhal o ərazilərə yollanıb erməni vandallığını fotoya alıram... Eyni zamanda Qarabağ fotolarımdan ibarət kitab hazırlayıram...

### Ürəkdağlayan o fotonun tarixçəsi

O, 19 yaşından ölkəsinin, xalqının maddi-mənəvi əzablarını çəkib göstərmək üçün dəfələrlə həyatını təhlükə qarşısında qoydu. Yarım əsrə yaxındır ki, doğulduğu diyarın üzünə həsrət qalan azərbaycanəsilli Reza Deqati dünyanı özünün vətəni saydı, yer üzündəki bütün insanları özünə məhrəm, doğma bildi. Müharibələrin insan həyatına gətirdiyi ağrı-acıları olduğu kimi çatdırmaq üçün yenə də öz həyatını heçə sayıb qızğın savaşların getdiyi nöqtələrə yollandı. Çox dəhşətlərin, faciələrin yaşandığı səhnələrə şahid oldu, görənlərini dərindən təsirləndirən fotolar çəkdi.




*Amma 1992-ci ildə Ağdamda Cümə məscidinin qarşısında əlini Allaha sarı qaldırıb fəryad, üsyan edən xocalılı qadının fotosunu çəkdiyindəki əzabı heç zaman yaşamadı: "Bu günə qədər dünyanın 115 ölkəsində şəkil çəkmişəm, bir milyondan çox fotonun müəllifiyəm. Onların hamısını sevərək, ürəkyanğısı ilə çəkmişəm. Bu fotoların hansına baxsan, hər birinin ayrıca hekayəsi var. Ancaq həyatımdakı ən təsiredici anı Ağdam Cümə məscidinin həyətində yaşadım. Qətliamdan bir neçə gün sonra məscidin həyətində cəsədlərin arasında oğlunun gözü çıxarılmış meyitini tapan və əllərini yuxarı qaldırıb fəğan edən xocalılı ananın fotosunu çəkərkən..."*

*Reza Deqati bu gün də Azərbaycanın, Qarabağın fotolarını çəkir. Amma bu dəfə dünyaşöhrətli fotoqrafın çəkdiyi şəkillər ölkəmizin Zəfərini, qürurunu, xoşbəxtliyini özündə əks etdirir...*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# "Azərenerji" COP29-la bağlı işini necə gücləndirəcək?

**COP29 tədbirinin və ümumilikdə Bakı şəhəri başda olmaqla ölkənin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün "Azərenerji" ASC gücləndirilmiş iş rejiminə keçir. COP29-la bağlı dövlət səviyyəsində yaradılan Təşkilat Komitəsinin üzvü olan "Azərenerji" ASC üzərinə düşən bütün öhdəlikləri yerinə yetirir.**




Belə ki, müvafiq dövlət qurumları ilə birgə enerji obyektlərinin fiziki və kibertəhlükəsizliyinin təmin edilməsindən tutmuş, enerji obyektlərində istismar və texniki xidmətlə əlaqədar baş verə biləcək qəza açılmalarının qarşısının alınmasına qədər bütün qabaqlayıcı tədbirlər görülüb. Bunun üçün paytaxt və ətraf ərazilərdə yerləşən 37 qovşaq yarımstansiyası, 129 ötürmə xətti və 6 elektrik stansiyası tam təftiş olunub, istehsal prosesində əlavə ehtiyat güc saxlanılması üçün resurslar müəyyən edilib.

Bundan başqa, yeni gətirilən elektrik avtobuslarının enerji ilə təmin edilməsi üçün 110 kilovotluq Zığ yarımstansiyası tam yenidən qurulub və genişləndirilərək gücləndirilib.

Eyni zamanda COP29 tədbiri ilə əlaqədar Hava limanı, Zığ şosesi və 8 Noyabr prospekti ilə kəsişən, eləcə də Hava limanı yolunun kənarı ilə gedən 5,5 km məsafədə 110 kV-luq ikidövrəli yüksəkgərginlikli hava xətləri sökülərək yeraltı kabel xətləri ilə əvəz edilib.

Tədbirlə əlaqədar xüsusi təyinatlı briqada və səyyar diaqnostika-laboratoriya avtomobilləri daim iş başında olacaq. Eyni zamanda avtomobil və xüsusi təyinatlı dronlar üzərində quraşdırılmış yüksəkdəqiqlikli kameralar və teplovizorlarla yarımstansiya və xətlərdə qızma nöqtələrinin müəyyən edilməsi və beləliklə, adi gözlə görünməsi mümkün olmayan qəza risklərinin müəyyənləşdirməsi təmin ediləcək.

Beləliklə, 24 saat fasiləsiz növbətçilik prinsipi ilə fəaliyyət göstərən "Azərenerji" ən müasir innovativ yeniliklər tətbiq etməklə istər enerjinin istehsalı, istər ötürülməsi, istərsə də idarə olunması sahəsində bütün gücünü səfərbər edib.

# 12 dövlət başçısı, 140-a yaxın nazir

## Kolumbiyada COP16 - BMT-nin Biomüxtəliflik Konfransının ikinci mərhələsi başlayıb

**BMT-nin Kolumbiyada təşkil olunmuş Biomüxtəliflik Konfransı bu həftə başa çatır. Yekun müzakirələrdə 140-a yaxın nazir və 12 dövlət başçısı iştirak edəcək.**




Kolumbiyanın Kali şəhərində COP16 - BMT-nin Biomüxtəliflik Konfransının ikinci mərhələsi başlayıb. Müzakirələr noyabrın 1-dək davam edəcək. Amerikadakı yerli icmaların nümayəndələri ölkələri iki il əvvəl götürdükləri öhdəliklərə əməl etməyə çağırıblar.

CECONSEC-in (Perunun Yerli İcmaları Assosiasiyası) başçısı Teddi Sinakay Tomas diskussiyalar zamanı çıxışında deyib: "Hökumətlərimiz qərarlar qəbul etməkdə tələsmirlər, onlar dəyişiklikləri çox ləng həyata keçirirlər. Hakimiyyətlər qanunların icrasına və siyasətlərin standartlaşdırılmasına diqqət yetirirlər, lakin zərərli fəaliyyətlərin dayandırılması, habelə biomüxtəlifliyin bərpası və qorunması üçün tədbirlər görmürlər."

Konfrans iştirakçıları iki il əvvəl qəbul olunmuş Qlobal Biomüxtəliflik Çərçivə Proqramının tətbiqinin nə dərəcədə uğurlu həyata keçirildiyini qiymətləndirməyə çalışırlar. Tərəflərin əsas öhdəliyi 2030-cu ilə qədər quru və dənizlərin ən azı 30 faizini qorumaq və deqradasiyaya uğramış ekosistemlərin 30 faizini bərpa etmək olub.

Kolumbiyanın WWF təşkilatının Baş direktoru Sandra Valenzuela konfransda bildirib: "Bu gün dünyanın quru ərazilərinin 17 faizi qorunur, lakin dəniz və okeanların sahil sularının yalnız 8 faizi qorunur. Buna görə də milli fəaliyyət planları mühafizəni gücləndirmək üçün təcili olaraq zəruri addımların atılmasını tələb edir. Lakin bu plan digər məqsəd, yəni ekosistemin bərpasını təşviq etməli olan 2-ci məqsəd olmadan həyata keçirilə bilməz".

Xatırladaq ki, təxminən 200 ölkə Qlobal Biomüxtəliflik Çərçivə Proqramını imzalayıb. Qarşıya qoyulan vəzifələrin icrasında lider Avropa İttifaqıdır.

Kalidə çıxışında Avropa Komissiyasının Ətraf Mühit Departamentinin Baş Direktoru Florika Fink-Hoyyer nikbin danışıb: "Bizim bir-biri ilə əlaqəli qorunan ərazilərin geniş şəbəkəsi olan "Natura 2000" layihəmiz var. Bunun sayəsində, eləcə də Təbiəti Bərpa Aktına əsaslanaraq tam əminik ki, 2030-cu il torpaq hədəflərinə nisbətən tezliklə çatacağıq. Suya gəlincə, bu, bir az daha mürəkkəbdir. Amma biz çox çalışırıq, su ehtiyatlarının davamlılığını təmin etmək üçün strategiya təqdim edəcəyik".

Qeyd edək ki, Kolumbiyada həm də əsas layihələrin maliyyələşdirilməsi ilə bağlı danışıqlar aparılır. BMT hesab edir ki, "yaşıl investisiya"lar üç dəfə artırılmalıdır.

COP16-nın ikinci həftəsində müzakirələrdə dünyanın müxtəlif ölkələrindən 140-a yaxın nazirin və 12 dövlət başçısının iştirakı gözlənilir. Kolumbiyada qəbul olunacaq mühüm qərarlar təbiətin məhvinin dayandırılması vədinin reallaşdırılmasına kömək edəcək .

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Paşinyan hökuməti təhlükəli vəziyyətlə üzləşib

## Ermənistanda hakim partiya ilə İstintaq Komitəsi arasında qarşıdurma ən yüksək həddə çatıb

**Ermənistanda sosioloqlar ölkədəki kriminogen vəziyyət və intiharların artması ilə bağlı narahatlıq keçirirlər. Bildirilir ki, bu ilin 9 ayı ərzində onsuz da əhalisi az olan ölkədə 100-dən çox intihar hadisəsi baş verib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə əhəmiyyətli dərəcədə çoxdur. İntiharların kökündə dayanan yeganə səbəb isə yoxsulluq, sosial sahədə yaranan problemlərdir.**

Ancaq hakimiyyəti sosial problemlər maraqlandırmır. Çünki partiyadaxili cəbhələşmə, komanda üzvlərinin bir-birinə qarşı kompromat toplamaq cəhdləri getdikcə şiddətlənir. Belə ki, Ermənistanın hakim "Vətəndaş müqaviləsi" partiyasının deputatları ilə İstintaq Komitəsi arasında ciddi münaqişə yaranıb. Bu məsələ hakim partiyanın parlament fraksiyasının rəhbəri Ayk Koncoryan tərəfindən qismən etiraf olunub. Onun sözlərinə görə, partiya daxilində İstintaq Komitəsinin rəhbəri Argişti Kərəmyanla bağlı müzakirələr gedir.

Qeyd edək ki, parlamentdə deputat Ovik Ağazaryanla Ermənistan İstintaq Komitəsinin sədri Argişti Kərəmyan arasında baş vermiş insidentdən sonra cinayət işi başlanıb.

Xatırladaq ki, oktyabrın 15-də Ermənistan parlamentində ölkədəki kriminal vəziyyətlə bağlı başlayan dinləmələr Kərəmyan və Ağazaryan arasında qalmaqala gətirib çıxarıb. Qarşıdurmanı başladan tərəf hakim partiyanın nüfuzlu üzvü Andranik Koçaryandır. Ovik Ağazaryanı özündən çıxaran məsələ isə hüquq-mühafizə orqanları ilə partiyadaşları arasında bir müddətdir davam edən gizli savaşdır. Belə ki, Ovikin oğlu qeyri-qanuni işlərlə məşğuldur və artıq polisin "radarı"na düşüb. Dövlət büdcəsi hesabına avtomobil idxalı ilə məşğul olub cibini dolduran Ağazaryanın xeyli adamı aldatdığı da üzə çıxıb. İddia edilir ki, baş nazir Nikol Paşinyanın parlament tərəfindən dəstəklənməyəcəyi təqdirdə, dövlət çevrilişini planlayan şəxslərdən biri də məhz Andranik Koçaryandır.

Qeyd edilib ki, baş nazir Nikol Paşinyan da komanda daxilində gərginlik və qarşıdurmadan xəbərdardır. Amma proseslərə ya təsir edə bilmir, ya da təsir etmək niyyətində deyil. Belə bir dilemma da var ki, əgər Paşinyan rüşvət və korrupsiyaya bulaşmış deputatları açıq-aşkar müdafiə etsə, hüquq-mühafizə orqanları içindəki dayaqları sarsılacaq. Maraqlıdır ki, əgər baş nazir qeyri-qanuni əmrlərini yerinə yetirən təhlükəsizlik qüvvələrini qorumağa çalışsa, bu zaman parlamentdəki oliqarxlar bundan narazı qala bilər. Bu səbəbdən də hələlik o, proseslərə müdaxilə etmir.

Son dövrlər partiyadaxili iclaslarda fraksiya üzvlərinin 99 faizi güc strukturlarının fəaliyyətindən kəskin narazılıqlarını bildirir, hətta bəziləri təhqiramiz ifadələr də işlədirlər, lakin həmin insanlar dinləmələrdə iştirak etməyiblər. Çünki korrupsiya və rüşvətə bulaşmış deputatlar dinləmələrə qatılsalar, hüquq-mühafizə orqanlarının qəzəbinə tuş gələ bilərlər. Əslində, bu dinləmələr də sübut etdi ki, artıq hakim partiyada birlik yoxdur.

Bu vəziyətdə hakimiyyət daxilində çəkişmə də ölkə üçün əlavə problemlər yaradır. Erməni politoloqlar hesab edirlər ki, yaxın vaxtlarda Hayastanın iqtidar partiyası daxili çəkişmələrlə çalxalanacaq. Çünki bir tərəfdən iqtidarda olan "Vətəndaş müqaviləsi" partiyasında vəzifələr uğrunda çəkişmələr güclənib, digər tərəfdən isə Nikol Paşinyanın ətrafındakı insanların peşəkarlığına görə deyil, sadiqlik prinsipi üzrə seçilməsi ciddi fəsadlar yaradır.

Politoloq Manvel Levonisyan qeyd edir ki, Paşinyan hökumətinin daxilində çəkişmələr də getdikcə artır və bu da sərmayədarları ölkədən qaçırır. Erməni politoloq "məxməri inqilab"ın Hayastanda oliqarxların kənarlaşdırılması və bir adamın hakimiyyətinin bərqərar olması ilə nəticələndiyini bildirib. Onun sözlərinə görə, Paşinyanın özü də partiyasının heç bir ideoloji əsaslara söykənmədiyini etiraf edib. Bu isə öz növbəsində, yüksək vəzifələrə təyinatların baş nazirə yaxınlıq prinsipi ilə həyata keçirilməsinə səbəb olur.

Bu onu göstərir ki, Ermənistanda hakimiyyətin vətəndaşlar arasında dayağı zəifləməyə başlayıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
24/7 iş rejimi ilə çalışan Çağrı Mərkəzinin (Call Center) yaradılması xidmətinin satın alınması məqsədilə
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 noyabr 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132**

***Tender komissiyası***


# Miopiya niyə artır?

## 2050-ci ilə qədər 740 milyondan çox uşaq və yeniyetmə yaxındangörmə problemi ilə üzləşəcək

**Göz orqanizmin ən həssas üzvlərindən biridir. İnsan həyatı boyunca müxtəlif göz xəstəlikləri ilə üzləşir. Miopiya ən geniş yayılan görmə problemidir. Gözün bülluru fokuslana bilmədikdə insan uzaq məsafədə yerləşən əşyaları aydın şəkildə seçə bilmir, yaxını isə əksinə, yaxşı görür. Belə şəxslərdə göz yorğunluğu, baş ağrıları, qaranlıqda görmənin pozulması müşahidə edilir.**



Son illər yaxındangörmə probleminin artdığı müşahidə edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edir ki, mövcud tendensiyalar davam edərsə, 25 il sonra dünya əhalisinin yarısından çoxu miopiyadan əziyyət çəkəcək. Miopiya hallarına xüsusilə uşaqlarda daha çox rast gəlinir. Araşdırmalara görə, 2050-ci ilə qədər 740 milyondan çox uşaq və yeniyetmənin bu problemlə mübarizə aparacağı proqnozlaşdırılır. Bu da valideynləri və səhiyyə işçilərini tədbir görməyə sövq edir.

### Qızlarda risk oğlanlara nisbətən daha yüksəkdir

Vəziyyətin belə acınacaqlı hal almasının bir sıra səbəbləri var. Mütəxəssislər uşaqların açıq havada daha az vaxt keçirməsinin, televiziya və video oyunlarına isə daha çox meyilli olmalarının miopiya riskini artırdığını bildirirlər. Covid-19 pandemiyası və bunun nəticəsində evdəqalma müddətinin artması bu problemi daha da sürətləndirib.

Miopiya problemi Asiya ölkələrində daha çox yayılıb. Yaponiya, Cənubi Koreya və Çin kimi ölkələrdə uşaqların əksəriyyəti bu problemlə üzləşib. Bunun uşaqların erkən yaşda məktəbə başlaması və intensiv təhsil sistemi kimi amillər ilə əlaqəli olduğu düşünülür.

Miopiyanın yaranmasında genetika önəmli faktordur. Valideynlərindən biri miopik olan uşaqlarda göz zəifliyi ehtimalı təxminən 3 dəfə, hər ikisi miopik olanlarda isə təxminən 6 dəfə yüksəkdir.

Tədqiqatların nəticələrinə görə, qızlarda miopiya riski oğlanlara nisbətən daha yüksəkdir. Bunun səbəbi qızların daha az sosiallaşması, məktəbdə və evdə fiziki fəaliyyətlə az məşğul olmalarıdır.

### Xəstəlik uzun müddət simptomsuz keçir

Mütəxəssislər bildirirlər ki, uşaqlarda miopiya uzun müddət simptomsuz gedir və əksər hallarda profilaktik oftalmoloji baxış zamanı təsadüfən aşkarlanır. Yaxındangörmə, adətən məktəb illərində inkişaf edir və ya proqressivləşir. Bu da uşaqların intensiv vizual yüklənmələrlə qarşılaşması ilə əlaqədardır. Uşaqlar lövhədəki yazıları aydın seçə bilmədiklərindən ora yaxınlaşır və ya gözlərini qıyırlar. Miopiyalı insanlarda qaranlıqda görmə pozulduğundan, axşam toran düşən vaxtda çətinliklə hərəkət edirlər.

Uşaqlar və yeniyetmələr yaxındangörmənin qarşısını almaq üçün görmə gigiyenasına riayət etməli, ekranlı vasitələrlə uzun müddət məşğul olmamalı, vaxtaşırı göz üçün idmanlar etməlidirlər.

Miopiyanın müalicəsi onun şiddətindən, fərdin yaşından və digər amillərdən asılı olaraq dəyişə bilər. Xəstəliyin müalicəsində eynək, kontakt linzalar, lazer əməliyyatı, göziçi linzalardan istifadə edilir.

Ən çox istifadə olunan müalicə üsulu eynəkdir. Kontakt linzalar eynəkdən daha təbii görünüş təmin edir. Bu, idman və ya digər fəaliyyətlər zamanı daha rahat ola bilər. Lakin əksər hallarda ciddi göz quruluğuna səbəb olduğu üçün oftalmoloqlar onu tövsiyə etmirlər. Belə ki, bu linzaların istifadəsi zamanı yaranan göz quruluğundan sonra gözlərə eksimer lazer əməliyyatı tətbiq edilmir. Lazer əməliyyatı isə birbaşa və birdəfəlik müalicə variantıdır.

Eksimer lazer əməliyyatı, adətən 18 yaşdan sonra edilir. Belə ki, insanların 80 faizində bu yaşda artıq orqanizm inkişafının formalaşması tamamlanmış olur. O zamana qədər isə uşaq və yeniyetmələrə optik eynək taxılması tövsiyə edilir. Həkimlər valideynlərə bu mövzuya daha ciddi yanaşmağı məsləhət görürlər. Çünki orqanizmdəki qoşa orqanlardan biri hər zaman daha dominant olur. Gözlər də istisna deyil. Uşaqlar sağ gözün hesabına rahat görə bildikləri üçün eynək taxmağa çox da can atmırlar. Eynək taxmadıqda isə digər göz tənbəlləşir, bu da daha ciddi problemlərə gətirib çıxara bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası elm və təhsil nazirinin köməkçisi Taleh Əhmədova bacısı

**GÜNEL ABDULLAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4207
Sifariş 2479

Qiyməti 60 qəpik